AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

HÜSEYN CAVİDİN ANADAN OLMASININ 140 İLLİYİ MÜNASİBƏTİLƏ

# HÜSEYN CAVİD VƏ MİFOLOJİ DÜŞÜNCƏ MÖVZUSUNDA

# ELMİ KONFRANSIN MATERİALLARI

**Bakı şəhəri, 15 noyabr 2022-ci il**

**Bakı – 2023**

**ELMİ REDAKTORU:** **Muxtar KAZIMOĞLU-İMANOV**
***AMEA-nın həqiqi üzvü***

**TƏRTİBÇİLƏR:** **Leyla MƏMMƏDOVA**
***filologiya elmləri doktoru, dosent***

**Nigar İMAMƏLİYEVA**

**Hüseyn Cavid və mifoloji düşüncə.** Bakı, "Elm və təhsil", 2022, 146 səh.

Kitabda AMEA Folklor İnstitutunun təşkilatçılığı ilə 15 noyabr 2022-ci il tarixində keçirilən "Hüseyn Cavid və mifoloji düşüncə" mövzusunda Elmi Konfransın materialları toplanmışdır.

**folklor.az**

**© Folklor İnstitutu, 2023**

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

***Sədr:***

**Akad. Muxtar Kazımoğlu-İmanov** – AMEA Folklor İnstitutunun baş direktoru

***Elmi heyət*** *(əlifba sırası ilə):*

Afaq Ramazanova – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutunun icraçı direktoru

Ağaverdi Xəlil – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutunun şöbə müdiri

Elçin Abbasov – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutunun elmi katibi

Elxan Məmmədli – Fil.ü.f.d., AMEA Folklor İnstitutunun şöbə müdiri

Əfzələddin Əsgər – Fil.e.d., prof., AMEA Folklor İnstitutunun şöbə müdiri

Əli Şamil – AMEA Folklor İnstitutu direktorunun xarici əlaqələr üzrə müşaviri

Əziz Ələkbərli – Fil.e.d., AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi

Fidan Qasımova – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutunun şöbə müdiri

Füzuli Bayat – Fil.e.d., prof., AMEA Folklor İnstitutunun şöbə müdiri

İlkin Rüstəmzadə – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutunun şöbə müdiri

Leyla Məmmədova – Fil.e.d., dos., AMEA Folklor İnstitutunun şöbə müdiri

Ləman Süleymanova – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutunun şöbə müdiri

Mətanət Abbasova – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutunun

şöbə müdiri

Nailə Rəhimbəyli – Sən.e.d., prof., AMEA Folklor İnstitutunun şöbə müdiri

Oruc Əliyev – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutunun şöbə müdiri

Ramazan Qafarlı – Fil.e.d., AMEA Folklor İnstitutunun şöbə müdiri

Rza Xəlilov – Fil.ü.f.d., dos., AMEA Folklor İnstitutunun şöbə müdiri

Seyfəddin Rzasoy – Fil.e.d., prof., AMEA Folklor İnstitutunun şöbə müdiri

**Katiblik:**

Gülnar Osmanova – fil.ü.f.d., AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi

Nigar İmaməliyeva – AMEA Folklor İnstitutunun böyük laborant

## KONFRANSIN AÇILIŞ MƏRUZƏLƏRİ

**Muxtar KAZIMOĞLU-İMANOV**
*Akademik, AMEA Folklor İnstitutunun direktoru*

# HÜSEYN CAVİD VƏ MİFOLOJİ DÜŞÜNCƏ MƏSƏLƏSİNDƏ SƏCİYYƏVİ MƏQAMLAR

***Hörmətli konfrans iştirakçıları!***

Bildiyiniz kimi, bu il dahi şair-dramaturq Hüseyn Cavidin 140 illiyi tamam olur. Bu münasibətlə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 24 sentyabr 2022-ci il tarixində imzaladığı sərəncamla bağlı olaraq Mədəniyyət Nazirliyi və AMEA xətti ilə ölkədə və ölkə xaricində silsilə yubiley tədbirləri təşkil olunur. Bizim bugünkü konfransımız həmin tədbirlərdən biridir. Bu konfransda Hüseyn Cavid irsində mifoloji düşüncə mövzusu ətrafında fikir mübadiləsi aparmaq başlıca məqsəd kimi nəzərdə tutulub.

Hüseyn Cavid bir romantik sənətkar kimi, O dünya ilə bağlı mifoloji təsəvvürü təsadüfdən-təsadüfə yox, ardıcıl olaraq nəzərə alır və bir sıra əsərlərində, ən çox da pyeslərində mifoloji obrazlara geniş yer verir. Hüseyn Cavidin ideal həqiqət axtaran və dərin daxili tərəddüd, təbəddülat içində çırpınan qəhrəmanları sövq-təbii mistik aləmə qapılmalı, İblis və Mələyin tərəf-müqabilinə çevrilməli olurlar.

Qəhrəmanın mistik qüvvələrlə tərəf-müqabil olması, yəni tək Hüseyn Cavid dramaturgiyası üçün yox, bütövlükdə dünya romantik ədəbiyyatı üçün səciyyyəvi olan bir cəhət, hər şeydən qabaq, nağıllardan gəlir: nağılda qəhrəman o qədər gözəldir ki, onun dardan qurtarmasında pəri qızlar öz möcüzəsini əsirgəmir; nağılda qəhrəman o qədər ağıllıdır ki, dünyanı barmağına dolayan şeytan özü onun fənd-felinə mat-məəttəl qalır. Amma nağıllarda pəri qızların əl uzatdığı bahadırlar da, şeytanın uduzduğu

kələkbazlar da hərəkət qəhrəmanlarıdır. Həm qılıncın, həm də ağılın gücü nağılda (həmçinin epik folklorun başqa janrlarında) məhz hərəkət və davranış vasitəsilə ifadə olunur.

Dram sənətinin mayası hərəkətdən yoğrulduğundan dinamiklik dramaturgiya üçün də səciyyəvi cəhət sayılmalıdır və sayılır. Amma bu dinamiklik içində statik səhnələr üçün geniş imkan var və sənətkar həmin imkandan öz üslubu çərçivəsində istifadə edir. Hüseyn Cavid üslubu romantik təbiətli düşüncə adamının daxili dünyasını açmağa yönəldiyindən Hüseyn Cavidin qələmə aldığı statik səhnələr özünü daha çox bu istiqamətdə göstərir.

Hüseyn Cavidin romantik qəhrəmanı ən çox nədən narahatdır? Qandan. Ölüb-öldürməkdən. Hüseyn Cavidin dramatik janrlar içərisində faciəyə tez-tez üz tutmasının da kökündə, görünür, həmin narahatlıq durur.

"Şeyda", "İblis" və "Knyaz" faciələrində Hüseyn Cavid ölümü, qan-qadanı xüsusi bir mövzu kimi ön plana çəkib, məsələyə bəşəri problemlər yüksəkliyindən baxmaq istəyir. Bu əsərlərin yazıldığı XX əsrin əvvəllərində dünyanı düşündürən inqilab və müharibə problemi, təbii ki, Hüseyn Cavidi də düşündürür və o, "Şeyda" ilə "Knyaz"ı inqilab, "İblisi" isə müharibə mövzusuna həsr edir.

Həm "Knyaz", həm də "Şeyda"da mistik səhnələr sarsıntı keçirən baş qəhrəmanın fikir-xəyalının ifadə forması kimi meydana çıxır. İnqilabın törətdiyi fəlakətlər barədə düşünərkən Knyazın gözünə xəyali yanğınlar görünür. Ölümlə əlləşən Şeyda Qara geyimli mələyin – Əzrayılın həmsöhbətinə çevrilir.

Mifoloji düşüncədə ölüm mələyi heç də bədxah qüvvə deyil. Yaradanın buyruğunu yerinə yetirən bu mələk hardasa haqq-ədaləti bərpa edən bir qüvvədir. Yaxşı adamlarla yanaşı, pis adamların da canını alması ölüm mələyinin ədalətini göstərən bir cəhət kimi təsəvvür edilir. Ölüm mələyi bədxah qüvvə sayılsaydı, adamlarda düzlük, etibar görməyən nağıl qəhrəmanı Əzrayılla kirvə olmaq (yaxud onunla yoldaşlıq, dostluq etmək) fikrinə düşməzdi. Ölüm mələyi bədxah qüvvə sayılsaydı, əcəl vaxtı Əzrayılın pis adamlara

əzab-əziyyət verməsi, yaxşı adamlara isə gül iylətməsi ilə bağlı motiv mifoloji mətnlərdə bu qədər təkrar olunmazdı.

İkiləşmə Hüseyn Cavid dramaturgiyasında folklordakı kimi ayrı-ayrı obrazların qoşalığından başlayır. Qoşalıq yaradan obrazlardan biri o birinin (məsələn, oğul atanın, qardaş qardaşın, dost dostun, nökər ağanın və s.) oxşarına ("Dvoynik"inə) çevrilir. Mifdən, folklordan gələn bu bədii sistem yazılı ədəbiyyatda, o cümlədən, Hüseyn Cavid dramaturgiyasında öz hüdudlarını genişləndirib həm zahiri, həm də daxili ikiləşmə şəklində ortaya çıxır. Zahiri ikiləşməni qəhrəmanların hərəkət və davranışları, daxili ikiləşməni isə qəhrəmanların duyğu və düşüncələri əsasında izləyirik. Amma xatırlatmağı lazım bilirik ki, burada şərti olaraq işlətdiyimiz "zahiri" sözü heç də "aldadıcı" mənasında başa düşülməməlidir. Nəzərə alınmalıdır ki, zahiri ikiləşmə də daxili ikiləşmə kimi əsərdə əsl məzmun və mahiyyətdən xəbər verir. Yəni eyni əsərdə iki obrazın bir-biri ilə nə qədər paralellik yaratdığını hərəkət və davranışlar əsasında da üzə çıxarmaq mümkün olur.

"Şeyda" əsərində zahiri ikiləşməyə ən münasib nümunə Şeyda və Qara Musa əlaqəsindən doğan ikiləşmədir. Bu ikiləşmədə aparıcı tərəf, heç şübhəsiz, Şeydadır. Oxucu və tamaşaçı hadisələrin əvvəlində Şeydanı bir inqilabçı, Qara Musanı isə onun yaxın silahdaşlarından biri kimi tanıdığından Qara Musada Şeydaya oxşar cəhətlər axtarır. Oxşarlıq onların hər ikisinin mühiti dəyişdirmək istəməsində, əzilən məzlumların haqqını müdafiə etməsindədir. Şeydanın inqilabi məzmunlu çıxışlar edib silahdaşları üçün xüsusi marş yazması, Qara Musanın istismarçı zümrəyə qarşı barışmaz mövqe tutması onların əməl birliyini göstərən faktlardır. Əməl birliyi Qara Musanı Şeydanın Oxşarı saymağa əsas verir. Bəli, Qara Musa bir Oxşar kimi, Şeydaya məxsus bəzi cəhətlərin ifadəsinə və bununla da onun (Şeydanın) oxucu və tamaşaçıya hərtərəfli tanıdılmasına kömək edir. Qan tökmək məsələsində Şeyda ilə Qara Musanın tam fərqli mövqe tutmasına gəldikdə, qeyd etməliyik ki, burada da təəccüb doğuracaq bir şey yoxdur. Baş qəhrəmanla onun Oxşarının hansı mə-

qamdasa başqa-başqa yollar tutması həm şifahi, həm də yazılı ədəbiyyatda qanunauyğun haldır.

Baş qəhrəman və onun Oxşarı arasındakı əlaqələrin bu istiqaməti Hüseyn Cavidin başqa pyesləri, eləcə də "Knyaz" üçün də səciyyəvidir. Çörək verib oxutduğu Antonla Knyaz arasındakı münasibət oğul və ata münasibətidir. Amma inqilabi hərəkatın başlanması bu adamları barışmaz düşmənə çevirir.

Əlbəttə, insan və İblis qarşılaşmasının daha geniş mənzərəsini "İblis" faciəsində görürük. Filosof təbiətli bir gənc olan Arifin İblislə tərəf-müqabil olmasının psixoloji kökü ondadır ki, Knyaz kimi Arif də dəhşətli yanğınların şahidi olub. Evi alovlar içində külə dönən Arifin bütün qohum-əqrəbası məhv edilib, qardaşı Vasif itkin düşüb.

İblis və Mələyin ardınca Arifin səhnədə görünməsi və Allahdan imdad diləməsi mifoloji obrazlara aydınlıq gətirməkdə açar rolunu oynayır. Aydın olur ki, İblis və Mələk əslində Arifin daxili ikiləşməsini əks etdirən obrazlardır. Arifin daxilindəki iki səsdən biri Mələyin, o biri İblisin səsidir. Mələk Arifə mərhəmət və məhəbbət, İblis isə "qəsvət" (rəhmsizlik) və "vəhşət" aşılayır.

Diqqət yetiriləsi cəhətlərdən biri insanı dəyişdirib şər əmələ qoşmaq istəyən İblisin özünün zahirən dəyişməsi, böyük ustalıqla cilddən-cildə girməsidir. Bu məsələdə də Hüseyn Cavid, təbii ki, mifoloji düşüncəyə əsaslanır. Romantik sənətkar nəzərə alır ki, mifdə demonik obrazlar hər şeyə qadir varlıqlar kimi təqdim olunur. Gah pirani qocaya, gah ağzı noxtalı qatıra, gah ceyrana, quşa, gül koluna, gah da bir ovuc darıya dönməsi demonik varlığın əlində su içmək kimi asan bir işdir. "İblis", eləcə də "İblisin intiqamı" əsərlərində bu cür çevrilmə və dönərgəliyin neçə-neçə epizoduna rast gəlirik.

"İblis" faciəsində nahaq qan tökülməsinə müəllifin kəskin etiraz etməsi şübhəsizdir. Amma bu etiraz əsərdə öz ifadəsini xeyirin şərə məğlub olması şəklində tapır. Xeyirin şərə məğlub olması, sənətkar qənaəti kimi dövrün ümumi əhvali-ruhiyyəsindən irəli gəlir. "İblis"in yazıldığı 1918-ci ildə Birinci Dünya müharibəsi

düşüncə adamlarını vahiməyə salır və onlarda bədbinlik əhvali-ruhiyyəsi yaradır. Hüseyn Cavidin tərəfdar olduğu güc haqq-ədalətə xidmət edən gücdür. Hüseyn Cavid haqq-ədalət naminə çarpışan qəhrəmanlar barədə düşünüb Səyavuş obrazını yaradır.

"Səyavuş" faciəsində, hər şeydən qabaq, diqqətimizi ata-oğul münasibəti cəlb edir. Ata-oğul münasibətinin mifdəki modeli çox sadədir: oğul atanın rəqibidir. Bu rəqabət bəzən ölüm-dirim mübarizəsi səviyyəsinə qalxır, oğul atanı öldürür və onun yerini tutur. Yunan mifində Zevsin Kronu, türk mifində Oğuz xanın Qara xanı öldürməsi qeyd olunan modelin tipik nümunələridir. Ata-oğul qarşıdurmasının Hüseyn Cavid dramaturgiyasında mühüm yer tutduğunu "Xəyyam"dakı Cəllad və Yusif səhnəsi də göstərir: Alp Arslan üsyançı Yusifi öldürməyə Cəllad çağıranda məlum olur ki, Cəllad Yusifin doğmaca atasıdır; tale ata ilə oğulu öldürən və ölən tərəflər kimi qarşılaşdırır. "Səyavuş"da isə məsələ bir az fərqli şəkildədir. Bu əsərdə oğulun atanı öldürməsindən yox, oğulun faciə ilə üzləşməsindən bəhs olunur. Amma faciənin baiskarları sırasında Səyavuşun atası Keykavus da olduğuna görə ata-oğul toqquşmasını bu əsər üçün səciyyəvi xətt saymaq mümkündür.

Bir-biri ilə ədavət aparan iki hökmdar (Keykavus və Əfrasiyab) Səyavuşa münasibətdə eyni mövqedə dayanırlar və əsərdə eyni bədii funksiya daşıyırlar. Başqa sözlə desək, Səyavuş – Keykavus münaqişəsi mahiyyətcə Səyavuş – Əfrasiyab münaqişəsindən fərqlənmir. Arifin daxilində Mələklə İblis qarşı-qarşıya gəldiyi kimi, Səyavuşun daxilində də ədalətlə ədalətsizlik, azadlıqla məhkumluq qarşı-qarşıya gəlir. Arif İblisin təsirindən yaxa qurtara bilmədiyi kimi, Səyavuş da ədalətsiz və zülmətsevər sarayların təsirindən yaxa qurtara bilmir. Nəticədə Arif İblisə məğlub olduğu kimi, Səyavuş da saraylara məğlub olur.

Hüseyn Cavidin, bir çox aparıcı obrazlar kimi, Əmir Teymuru da rəğbətlə qələmə almasına şübhə yoxdur. Rəğbətlə qələmə almağın əlamətidir ki, Topal Teymuru sadə bir kəndlinin, eləcə də elm və sənət adamlarının qayğısına qalan, qədir-qiymə-

tini bilən bir hökmdar və sərkərdə kimi görürük. Amma o da var ki, nahaq qan tökülməsinin əleyhinə olan müəllif Topal Teymuru ideallaşdırmaq da istəmir. İdeallaşdırmadan mümkün qədər uzaq olmağın bir göstəricisi Topal Teymurun Sultan Bayazidlə toqquşmasının (yəni qardaş qırğınının) əsas mövzu kimi seçilməsidirsə, başqa bir göstəricisi əsərdə bədii gülüş elementlərindən istifadə edilməsidir. Hüseyn Cavid dramaturgiyası üçün o qədər də səciyyəvi olmayan bədii gülüş elementlərindən məhz bu əsərdə nəzərə çarpacaq şəkildə istifadə edilməsi təsadüfi deyil. Məsələ burasındadır ki, "Topal Teymur" Hüseyn Cavidin qüdrətli bir hökmdarı baş qəhrəman kimi qələmə aldığı yeganə pyesidir. Pyesdə baş qəhrəman mühitlə toqquşub sarsılan yox, öz gücünə güvənib mühitə əsaslı təsir göstərən adamdır. Belə bir adamın ziddiyyətli cəhətlərini göstərmək üçün müəllif həm komik, həm də qeyri-komik antiqəhrəmanlardan istifadə edir. Dramda Şair Kirmani komik yox, ciddi yöndə təqdim edilmiş antiqəhrəman sayıla bilər. Ətrafda hamı hərbdən, türk qəhrəmanlığından danışdığı halda, Şair Kirmani gül-bülbüldən, sevib-sevilməkdən danışır. Topal Teymurun sarsıntılar keçirən bir obraz kimi təqdim edilməsinin inandırıcı olmayacağını nəzərə alan Hüseyn Cavid İblis və Mələk qarşılaşmasını "Topal Teymur" dramında daha çox əks mövqeli obrazların qarşılaşması şəklində qələmə alıb. Mələyin İblisə məğlubiyyətinin unudulmaz səhnələrini yaradır.

Hüseyn Cavid bir romantik sənətkar kimi mifoloji düşüncəyə geniş yer ayıran, gerçəkliklə müqayisədə idealı daha çox ön plana çəkən, mifoloji obrazlardan, folklorla bağlı motivlərdən özünün konsepsiyasına uyğun şəkildə istifadə edən böyük mütəfəkkirdir.

***Hörmətli konfrans iştirakçıları!***

Belə hesab edirəm ki, bizim bugünkü konfrans folklor və mifoloji düşüncə kontekstində Hüseyn Cavid yaradıcılığının az öyrənilmiş tərəflərinə işıq salacaq və konfransda edilən məruzələr yeni-yeni araşdırmalara rəvac verəcəkdir.

# AÇILIŞ MƏRUZƏLƏRİ

**Atif İSLAMZADƏ**
*AMEA Folklor İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*atifislamzade36@gmail.com*

## HÜSEYN CAVİD YARADICILIĞINDA FOLKLOR MOTİVLƏRİ İCTİMAİ MƏFKURƏ KİMİ

**Xülasə**

Bu məqalədə Hüseyn Cavid dramaturgiyasında folklor süjetləri araşdırılmışdır. Əsas olaraq müəllifin iki əsərindən- "İblis" və "Şeyx Sənan" faciələrindən bəhs olunmuşdur. "İblis" əsərinin əsasını təşkil edən mifologiya və folklor da mühüm şəkildə izah edilmişdir. Hüseyn Cavidə qədər demonizm mövzusunda yazılan tanınmış əsərlərdən və mifologiyada bu mövzunun müxtəlif örnəklərindən də söhbət açılmışdır. Folklorda iblis obrazından yaranan obrazlar haqqında da məlumat verilmiş, süjet və janrlara diqqət ayrılmışdır. "Şeyx Sənan" əsərinin isə əsatir, dastan, əfsanə mövzusu olduğuna yer ayrılmış, ancaq əsas olaraq əfsanə olduğu haqqında fikirlərin daha çox olduğuna da nəzər yetirilmişdir. Əsərlərdən nümunələr verilməklə tədqiqat daha da zənginləşmişdir.

Tədqiqatda müəllifin milli və dünyəvi ideyaları folklor motivləri və süjetləri əsasında ifadə etməsinə diqqət yetirilmiş, yazıçı üsulunun orijinallığı qiymətləndirilmişdir. Eyni zamanda bu yazıda sənətkarın inanc, əxlaq və elmi əsas götürdüyünə diqqət yetirilmiş, bu keyfiyyətlərin vətəndaş və şəxsiyyət üçün vacib şərtlər olduğu qənaətinə gəlinmişdir. Sənətkar bu ideyaları məhz folklora əsaslanaraq etdiyi üçün əsərləri xalq məhəbbəti

qazanmışdır.

**Açar sözlər:** Hüseyn Cavid, folklor, mifologiya, inanc, ideya, "İblis", "Şeyx Sənan"

## FOLKLORE MOTIVES AS THE PUBLIC IDEOLOGY IN HUSEYN JAVID'S DRAMATURGY

### Summary

In this article the folklore plots in Huseyn Javid's dramaturgy are investigated. Two works of the author such as "Devil" and "Sheikh Sanan" are mainly discussed. Mythology and folklore, which are the basis of the work "Devil", are also explained in an important way. The well-known works written on the theme of demonism up to H.Javid and various examples of this theme in mythology are also discussed. In folklore the information is also given about the images that arose from the image of the demon and the attention is paid to the plot and genres. "Sheikh Sanan" is the subject of fables, epics and legends, but it has been noted that there are more opinions about it being a legend. The study is enriched by providing examples from the works.

In the study the attention is paid to the author's expression of national and secular ideas based on folklore motifs and plots and the originality of the writer's method is estimated. At the same time in this article it is mentioned that the artist is based on faith, morality and science, it is concluded that these qualities are important conditions for a citizen and personality. As the artist made these ideas based on folklore, his works won the love of the people.

**Key words:** Huseyn Javid, folklore, mythology, belief, idea, "Devil", "Sheikh Sanan"

## ФОЛЬКЛОРНЫЕ МОТИВЫ КАК ПУБЛИЧНАЯ ИДЕОЛОГИЯ В ДРАМАТУРГИИ ГУСЕЙНА ДЖАВИДА


**Резюме**

В данной статье исследовались фольклорные сюжеты в драматургии Гусейна Джавида. В основном обсуждались два произведения автора трагедии “Дьявол” и “Шейх Санан”. Также были тщательно объяснены мифология и фольклор, лежащие на основе произведения “Дьявол”. Кроме того обсуждались известные произведения, написанные на тему демонизма вплоть до Г.Джавида, и различные примеры этой темы в мифологии. Также давались сведения об образах, возникших из образа демона в фольклоре, уделялось внимание сюжетам и жанрам. Было отмечено, что “Шейх Санан” является темой мифов, эпосов и легенд, но также упоминалось, что есть больше мнений о том, что это в основном легенда. Исследование обогащалось путем предоставления примеров из произведений.

В исследовании обращалось внимание на авторское выражение национальных и светских идей на основе фольклорных мотивов и сюжетов, оценивалась оригинальность писательского метода. В то же время в данной статье подчеркивалось, что драматург опирается на веру, нравственность и науку, и был сделан вывод о том, что эти качества являются важными условиями для гражданина и личности. Благодаря тому, что автор сделал эти идеи на основе фольклора, его произведения завоевали любовь народа.



**Ключевые слова:** Гусейн Джавид, фольклор, мифология, вера, идея, “Дьявол”, “Шейх Санан”


Hüseyn Cavid yaradıcılığı mütəfəkkirin adı kimi həmişə diri və əbədi yaradıcılıqdır. Bunun əsas səbəbi sənətkarın istedadıyla bərabər əsərlərindəki milli-bəşəri və ictimai ideyaların qa-

barıq olmasıdır. Şairin ictimai məfkurəsi hər zaman diqqət çəkir. Onu da qeyd etmək lazımdır ki, ictimai məfkurə milli-bəşəri mövzuları özündə cəmləyir. Əgər məfkurə deyildikdə ideyalar məcmusu ifadə olunursa, bu ideya məhəlli, milli, bəşəri ola bilər. İctimai məfkurə isə bütün toplumu özündə ifadə etdiyi üçün lokal, regional, qlobal səviyyələri bir termin adı altında ehtiva edə bilir. H.Cavid yaradıcılığı həm milli, həm də bəşəri yaradıcılıqdır. Bu baxımdan ictimai məfkurə daşıyıcılığının bədii ifadəsi daha əhatəli şəkildə bu aspektdə öyrənilə bilər.

H.Cavid irsi funksional səviyyədə öyrənilə bilir. Təbiidir ki, folklor baxımından da izlənilməsi mütəfəkkirin yaradıcılığını daha geniş əhatədə diqqətə çatdırır. Müəllif folklor motivlərindən istifadə etməklə ictimai məfkurəni bədii şəkildə cəmiyyətin nəzərinə çatdırmışdır. Xüsusilə onun "İblis" və "Şeyx Sənan" pyesləri özündə qabarıq ictimai məfkurəni göstərməklə bərabər folklor motivlərindən qaynaqlanır. Belə ki, demonizmin xalq arasında xtonik qüvvələri ifadə edən təcəssümü bir çox əsərlərə mövzu olmuşdur. Şair məhz bu motivdən I Dünya müharibəsinin dəhşətlərini qələmə almaq üçün istifadə etmişdir. Demonizmi özündə əks etdirən, xüsusilə də iblis və yaxud şeytan obrazının əsərin leytmotivində iştirak etməsi müəlliflərin ideoloji baxışlarının bədii ifadəsi idi. Bu əsərlər təbiidir ki, H.Caviddən əvvəl də yazılı ədəbiyyatda mövcud idi, ancaq birbaşa iblis obrazının süjet xəttində əsas təşkil etməsi daha çox Y.V.Hötenin "Faust", M.Lermantovun "Demon" əsərlərində qabarıq səviyyədə ədəbi auditoriyaya məlum idi (1; 2). Məhz H.Cavidin "İblis" əsəri də bu baxımdan diqqətəlayiq əsərdir. Əgər H.Caviddə iblis obrazı süjetin əsasını təşkil edirsə, "Faust" əsərində mefistofel (1), "Demon" əsərində isə demon obraz olaraq eyni struktur təşkil edir (2). Müəlliflər məhz bu obrazlar vasitəsilə öz məfkurələrini bədii səviyyədə ifadə etmişlər.

Eyni zamanda demonizmin daha arxaik dövrlərini izah etmək üçün təbiidir ki, ilkin olaraq mifoloji ədəbiyyata müraciət etmək lazımdır. Mifoloji sistemin əsas strukturunu təşkil edən

esxatoloji anlayışlar obraz şəkillənməsində eyni xtonik təzahürlərlə müşayiət olunur. Mifik mətnlərdə mövcud olan marginal obrazların, xtonik qüvvələrin kökündə məhz iblis və yaxud şeytan arxetipi durur. Təsadüfi deyil ki, iblis mifoloji mətnlərdə məhz marginallığı ilə də diqqət çəkir ki, bu da mənfi baxış əsasında bu şəkildə formalaşır. Bu barədə "Türk mitoloji ansiklopedisi"ndə oxuyuruq ki, Türk ve Altay mitolojisinde İblis. Tayran da denir. Tek ayaklı, tek kollu, tek elli, tek bacaklı ve tek ayaklıdır. Tek gözlüdür ve o gözünü de uzun kirpikler örter (3, 282).

Eyni obraz xalq ağzında müxtəlif deyim, lətifə, rəvayət, nağıl və s. janrlarda da "kor şeytan" kimi marginallığını qoruyub saxlayır. Bu klişe tam olaraq "lənət kor şeytana" və yaxud "lənət sənə kor şeytan" şəklində xalq ağzında işləkdir (4, 473; 5, 330-331).

H.Cavidin "İblis" əsərində də iblis məhz zülmətin səciyyəsi olaraq sakrallığın əksini, periferik və xaotik anlayışları ifadə edir. Dramın baş surəti Arif iblisə deyir:

Uymam sana, hər mələnətin bəncə əyandır,
Dəf ol da, get, azğınları, sapqınları qandır;

Hürriyyətə əsla bəni sən irdirəməzsin,
Bir zülmət ikən nuri-həqiqət verəməzsin (6, 12).

İblis obrazının folklorda mifoloji qatlardan gələn və demək olar ki, bütün folklor mətnlərində ifadə olunan paradiqmaları H.Cavidin "İblis" əsərində ictimai məfkurə olaraq təzahür edir. Müəllif bu əsərində iblis obrazından istifadə edərək dünyada baş verən dəhşətli situasiyaları, I Dünya müharibəsinin vəhşətlərini, insanlığın çöküşünü, dünyanı idarə edənlərin mövcud durumda və gələcəkdə maddi mənfəətlərin əldə edilməsi üçün iblisanə baxış və siyasət qurduğunu diqqətə çatdırır. Yalnız iblisin son monoloqu nəinki Cavid dövrünü, ondan sonrakı bütün dövrləri, eyni zamanda bu günü təcəssüm etdirir:

Bənsiz də, əmin ol sizə rəhbərlik edən var:
Qan püskürən, atəş savuran kinli krallar,

Şahlar, ulu xaqanlar, o çılğın dərəbəylər,
Altın və qadın düşkünü divanə bəbəklər.
Bin hiylə quran tilki siyasilər, o hər an
Məzhəb çıqaran, yol ayıran xadimi-ədyan;
Onlarda bütün fitnəvü şər, zülmü xəyanət,
Onlar duruyorkən bəni təhqirə nə hacət?!
Onlar, əvət onlar sizi çignətməyə kafi,
Kafi, sizi qəhr etməyə, məhv etməyə kafi... (6, 104).

Beləliklə, H.Cavid bu əsərində xalqa söykənən, xalq düşüncəsində köklü olaraq sabit obraz olan iblis anlayışından milli-bəşəri ideyaları ifadə etmək üçün məharətlə istifadə etmişdir. Eyni zamanda qeyd etmək lazımdır ki, H.Cavid iblis obrazına yalnız bədii surət olaraq baxmamış, sözün həqiqi mənasında səmavi kitablarda bəyan olunan iblisin varlığına sözün həqiqi mənasında inanmış, lakin iblis obrazından bədii şəkildə də bəhrələnməyi qarşısına məqsəd qoymuşdur. Bu onun aşağıdakı misralarından da aydın görünür:

Ya Rəb, bu nə dəhşət, nə fəlakət?
Ya Rəb, bu nə vəhşət, nə zəlalət?
Yoq kimsədə insafü mürüvvət,
İblisəmi uymuş bəşəriyyət!? (6, 8).

Təsadüfi deyil ki, əsərin baş qəhrəmanı Arifin ilk monoloqu da yuxarıda təqdim etdiyimiz mələyin monoloqu kimi Uca Allaha müraciətlə “Dünyaları yoqdan yaradan ey Ulu Tanrı!” xitabı ilə başlanır (6, 8). Əslində H.Cavid dünyanı bu vəhşətlərdən xilas edəcək olan Allahu-Təalaya sığınmaq və Allah inancı daşımaq, iblisləşmədən qurtulmaq, nəfsi tərbiyəyə üstünlük vermək və sosial ədalətin bərpasına çalışmaq kimi ideyaları ortaya qoymaqla qeyd etdiyimiz kimi yalnız öz dövrünün deyil, bütün dövrlərin qiymətli əsərini meydana qoyduğunu təsdiq etmiş olur.

Elə mifoloji ədəbiyyatda da demonoloji obrazların meydana gəlib, epik mətn hadisəsinə çevrilməsi onların mövcud olmaması anlamını vermir. El ağzında bu gün belə işlək olan cin və ruh haqqındakı hekayətlər bir tərəfdən şüuri-psixi yaşantıdan

irəli gələn qarabasmalardan (hallüsinasiya) törəyirsə, başqa bir tərəfdən gerçək görüntülərdən də qaynaqlanır.

Mütəfəkkirin xalq xəzinəsinə, folklora söykənməklə yaratdığı əsərlərdən biri də təbiidir ki, "Şeyx Sənan" əsəridir. "Şeyx Sənan" dramı süjet xəttindən bəlli olduğu kimi yazılı ədəbiyyata keçid şəklində təqdim olunan xalq əfsanəsidir. "Şeyx Sənan" mövzusunun əfsanə olması haqqında S.Vəliyeva ümumi baxışları səciyyələndirərək əhatəli şəkildə yazır ki, Hüseyn Cavid "Ana" və "Maral" əsərlərindən sonra 1914-cü ildə "Şeyx Sənan" mənzum faciəsini yazdı. Faciənin əsasında "Şeyx Sənan" adlı ərəb əfsanəsi dayanırdı. "Şeyx Sənan" bir ərəb əfsanəsi kimi Şərq hadisəsi idi" (7, 69).

İ.Atilla isə hətta Şeyx Sənan əhvalatını əsatir adlandırır, elə tədqiqat işini də "Şeyx Sənan" əsatiri və Hüseyn Cavid" adlandırır. O yazır ki, dramaturq bu əsatirlə nə zamandan maraqlanmağa başlamış, "Şeyx Sənan" faciəsi necə yaranmış, bu əsərin özündən əvvəlki əsərlərdən fərqi nədir? (8, 9).

Tədqiqatçı eyni yazıda "Şeyx Sənan" faciəsini paralel olaraq dastan və əfsanə də adlandırır ki (8, 9) bu da "Şeyx Sənan" dramının məhz folklor motivləri əsasında yazılmasından və struktur etibarilə yazılı ədəbiyyat janrlarından daha çox folklor janrları ilə səsləşməsindən irəli gəlir.

K.Əliyev isə əsas müddəalara uyğun olaraq "Şeyx Sənan" faciəsini əfsanə adlandıraraq yazmışdır ki, H.Cavidin əfsanə ilə bağlı ən maraqlı əsərlərindən biri "Şeyx Sənan" faciəsidir (9, 307).

K.Əliyev "Şeyx Sənan" süjeti ilə "Əsli-Kərəm" dastanı arasında da yaxınlıq görmüş, bu istiqamətdə müəyyən paralellər aparmışdır (9, 308-322).

Hər iki əsərdə ilk paralel təbiidir ki, süjet səviyyəsində diqqət çəkir. Hər iki əsərin süjetində din fərqi olan aşiqlərin taleyi və faciəli sonu əsərin remarkasını təşkil edir. Əlbəttə, bu da "Şeyx Sənan" əfsanəsinin xalqdan alınıb yazılı ədəbiyyata gətirilən nümunə olduğuna nəzər yetirmək tələbatını ortaya qoyur.

K.Əliyev hər iki əsərdə xalq ədəbiyyatına məxsus olan

qoşma örnəyi ilə də paralel apararaq əsərlərin yalnız süjet deyil, janr səviyyəsində də uğurlu müqayisəsini göstərmişdir: “Daha maraqlı cəhət ondan ibarətdir ki, ikinci pərdənin ikinci səhnəsində verilmiş türkü də sənətkarlıq baxımından yüksəkdir və onu Azərbaycan ədəbiyyatının klassik qoşmaları ilə bir sırada görmək olar:

“Uzaqlaşdım gülümdən, sevgilimdən,
Ayrı düşdüm vətənimdən, elimdən,
Həp sızlaram, bir şey gəlməz əlimdən,
Yar-yar deyib gecə-gündüz ağlaram.

Çoxdan bəri nazlı yarı görmədim,
Öpmədim, gül üzündən gül dərmədim,
Gülər üzlə heç bir ömür sürmədim,
Yar-yar deyib gecə-gündüz ağlaram”

(Cavid, II c., 1982: 56).

Son dərəcə maraqlı faktdır ki, “Əsli-Kərəm” dastanında da eyni əhvali-ruhiyyədə, hətta eyni rədifdə (Ağlaram!) olan belə bir şeir nümunəsi də vardır:

“Aşdı getdi qarlı dağın ardına,
Xan Əslim yadıma düşdü, ağlaram,
Heç təbiblər çarə etməz dərdimə,
Xan Əslim yadıma düşdü, ağlaram.

Dağların burçusu mənə yurd oldu,
Meşəsində aslan oldu, qurd oldu,
Üç ay mənə çox böyük bir dərd oldu,
Xan Əslim yadıma düşdü, ağlaram.

(Azərbaycan məhəbbət dastanları, 1979: 81) (9, 319, 320).

H.Cavidin “Şeyx Sənan” əsərində bu kimi xalq ədəbiyyatına bağlı örnəkləri geniş müşahidə edirik, ancaq şairin və yaxud dramaturqun, daha dəqiqi isə milli-bəşəri mütəfəkkirin ictimai məfkurəsi də burada diqqətdən kənarda qalmamalıdır. Qeyd etdiyimiz kimi H.Cavidin “Şeyx Sənan” faciəsi folklor rakursu ba-

xımından hətta süjet və janr səviyyəsində kifayət qədər geniş müşahidə olunur, yalnız əsərin məzmunu yazılı və şifahi ədəbiyyatı birləşdirən geniş düşüncə tərzini ifadə edir. Əsərin irfani qatı, daha dərin mahiyyəti üzdə göründüyü kimi antidini deyil, əslində eşqdən başqa heç nə olmadığı, bütün ideoloji münasibətlərin Allah qatında yanlış sayıldığı, yalnız insan amilinin əsas olduğu çox diqqətəlayiqdir. Elə bütün dinlər də mahiyyət etibarilə eyni surət, eyni ürək, eyni funksiya daşıyan insanın bərabər olduğu, hansısa milli, sinfi, dini münasibətlərin əsl din olmadığı, əsl dinin isə yalnız sevgi dini olduğunu bəyan etməkdədir. Təsadüfi deyil ki, islamın mübarək kitabı Qurani-Kərimdə Allahu-Təala heç bir ayətdə "Ey müslimanlar" demir, yalnız "Ey insanlar, ey möminlər" deyib insanlığa müraciət etdiyini bəyan edir. Bu baxımdan islam dininin mərkəzində insan modeli dayanır. Məhz H.Cavid bu bəşəri və əsl dini məfkurəni bir əfsanə əsasında bədii şəkildə ifadə etməklə öz düşüncə tərzini meydana qoyur. H.Cavid eyni zamanda xalq arasında yayğın olan "Şeyx Sənan" əfsanəsini və yaxud rəvayətini yazılı ədəbiyyatda istifadə etməklə yenə də ictimai məfkurənin bədii əksini nümayiş etdirmişdir. Bu əsər bəşəri siqlətiylə çox möhtəşəm əsərdir. Eyni zamanda bu gün də aktual olan tolerantlığın və multidissiplinarlığın əhəmiyyətini özündə cəmləyir.

H.Cavidin Vahid Allah inancı daşıdığı, bütün əsərlərini zahiri və daha dərin səviyyədə Allah sevgisi ilə ifadə etdiyi onun məşhur "Qız məktəbində" şeirində aydın görünür. Şairin düşüncə modelinin sabit olduğunu bəyan etmək üçün bu şeiri olduğu kimi tam şəkildə təqdim edirik:

– Quzum, yavrum! Adın nədir?
– Gülbahar.
Pəki, sənin anan, baban varmı?
– Var.
Nasıl, zənginmidir baban?
– Əvət, zəngin, bəyzadə...
– Öylə isə, geydiyin geyim niçin böylə sadə?

Yoqmu sənin incilərin, altın biləziklərin?
Söylə, yavrum! Hiç sıqılma...
– Var əfəndim, var... lakin
Müəlliməm hər gün söylər, onların yoq qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.
– Pək doğru söz... Bu dünyada sənin ən çoq sevdiyin
Kimdir, quzum, söylərmisin?
– Ən çoq sevdiyim ilkin
O Allah ki, yeri-göyü, insanları xəlq eylər.
– Sonra kimlər?
– Sonra onun göndərdiyi elçilər.
– Başqa sevdiklərin nasıl, yoqmu?
– Var...
– Kimdir onlar?
Anam, babam, müəlliməm, bir də bütün insanlar... (10, 49).

Göründüyü kimi, H.Cavid bu şeirində öz baxışlar sistemini geniş səviyyədə ortaya qoyur. Yaradanın və yaradılışın mahiyyəti, Uca Allahın ən çox, ən ilkin sevilməsinin vacibliyi, onun seçdiyi peyğəmbərlərin birmənalı olaraq qəbul olunması və Allahu-Təalanın əmrlərinin dinlənilib əməl olunması, valideynlərin, müəllimlərin və bütün insanların sevilməsinin gərək olduğu sabahı müjdələyən məktəblinin dlində nə qədər böyük ustalıqla oxucuya və dinləyiciyə təqdim olunmuşdur. Biz bu şeiri H.Cavidin milli-bəşəri məfkurəsi olaraq qəbul edirik.

"Qız məktəbində" şeirində mövcud situasiyanın məktəbdə olması da təsadüf deyil Uca Allahın insanlara ilk əmri, məhz "oxu əmri" olmuşdur. Mübarək Qurani-Kərimin ilk surəsi olan "Alak" surəsinin ilk ayətində Uca Allah insanlara buyurur:

بِسْمِ اللهِ الرَّحْمٰنِ الرَّحِيمِ
اِقْرَأْ بِاسْمِ رَبِّكَ الَّذِي خَلَقَ ﴿١﴾ (11, 597)
Bismillahir-Rəhmanir-Rəhim,
İkra biismi Rabbukə əllədi-xalak
(Rəhman və Rahim Allahın ismi ilə,
Xəlq edən Rəbbinin ismiylə oxu).

Təbiidir ki, oxumağın vəzifə olduğu yerdə Uca Allahın əmrinin sabahın baharında gül açacaq nəslindən yenilikdən (mətndə məhz Gülbahar adlı çocuqla bu anlam işarələnir) məntiqi nəticə ilə öyrənilməsi H.Cavidin milli məfkurəsinin inanc səviyyəsində işarəsidir. Mətndə Gülbahar tərəfindən var-dövlətin, zənginliyin, geyimin, altunun, incinin bir mənası olmadığı, müəllimənin hər gün söylədiyi bilginin və ismətin, tam mənasında əxlaqın vacib olduğu Cavidin gələcək üçün arzularıdır. Eyni zamanda şeirdə poetik baxımdan folklor spesifikası özünü aydın göstərir. Dialoq əsasında qoca və uşaq arasında qurulan rabitə "atalar və oğullar" motivinin (12, 39-53) bədii səviyyədə ifadəsidir. Görünüş əsas deyil, mahiyyət əsasdır. Burada qız çocuğu da oğul anlamında işarələnmiş, gələcəyin müjdəsi kimi proyeksiyalanmışdır.

Şair bir qisim şeirlərində də ictimai məfkurənin bədii əksini folklor motivlərindən alaraq oxuculara yazılı ədəbiyyat nümunəsi olaraq təqdim etmişdir. Ancaq bizim məqsədimiz H.Cavid dramaturgiyasında folklora ictimai məfkurə olaraq baxış sərgiləmək olduğu üçün bu mövzunu gələcək tədqiqatlara saxlayırıq. Təqdim etdiyimiz "Qız məktəbində" şeiri istisna olaraq H.Cavidin inanc və etiqadını elə dram əsərləri baxımından izah etmək üçün diqqətə çatdırılmışdır. Halbuki sənətkarın "Şeyx Sənan" və "İblis" dramları belə geniş səviyyədə ənənəvi-təsviri və struktur-semantik metod ilə araşdırılmamış, bu kontekstdə konkret olaraq təhlil olunmuş, digər dram əsərləri də şeirlər külliyyatı kimi tədqiqə cəlb olunmamışdır. Əks təqdirdə bu mövzuda cild-cild kitab yazmağa ehtiyac hiss edərdik. Necə ki, görkəmli cavidşünaslar tərəfindən cildlərlə əsər yazılmışdır. Lakin Cavid nəhəngliyi yenə də mövzunun açıq qalmasına səbəb olmuşdur. Biz, bu dramları tədqiq etməklə Cavid əfəndinin ictimai məfkurəsini elmi və kütləvi auditoriyaya təqdim etməyə çalışmışıq. Fikrimizcə, bu mövzu da açıq qalır. Milli və bəşəri ideyaları özündə cəmləyə bilən ictimai məfkurə istiqamətində mütəfəkkirin yaradıcılığına gələcəkdə də qayıtmaq vacib və zəruridir.

## ƏDƏBİYYAT


1. Gete V.Y. Faust. Bakı: Azərnəşr, 1970
2. Lermontov M.Y. "Şeirlər, poemalar, mənzum dram, romanlar". Bakı: Yazıçı, 1989
3. Karakurt D. Türk mitoloji ansiklopedisi. I baskı, ağustos, 2011 / Türkiye
4. Atalar sözü / toplayanı, tərtib edəni və nəşrə hazırlayanı Ə. Hüseynzadə Bakı: Yazıçı, 1985
5. Adilov M. Niyə belə deyirik (IV cild) I-II hissə. Bakı: Elm və təhsil, 2019
6. Cavid H. Əsərləri. Beş cilddə, III cild. Bakı: Lider nəşr, 2005
7. Vəliyeva S. Hüseyn Cavid ədəbi irsinin poetikası. Bakı: Zərdabi Nəşr MMC, 2019
8. Atilla İ. Şeyx Sənan əsatiri və Hüseyn Cavid / "Kredo" qəzeti, 18 dekabr, 2018
9. Əliyev K. Hüseyn Cavid (Əsərləri, 10 cilddə, III cild). Bakı: Elm və təhsil, 2018
10. Cavid H. Əsərləri. Beş cilddə. I cild. Bakı: Lider nəşr, 2005
11. Kur'an-i Kerim (arapça) Diyanet İşleri Başkanlığı Yayınları, 5. Baskı, 2018, İstanbul, Türkiye
12. İslamzadə K. "Ata ilə oğulun döyüşməsi" ənənəvi süjetinin modifikasiyaları / "Folklorşünaslıq məsələləri", VII buraxılış. Bakı, 2009

**Elçin QALİBOĞLU**
*AMEA Folklor İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*elcin.galiboglu@gmail.com*

# İBLİS OBRAZI: MİFOLOJİ-DİNİ ŞÜURDA VƏ YAZILI ƏDƏBİYYATDA (H.CAVİDİN "İBLİS" PYESİ ƏSASINDA)

**Xülasə**

Hüseyn Cavid nəinki Azərbaycan, bəşər mədəniyyətinin nadir simalarındandır. Onun əsərlərində insanlığa, həqiqətə, ədalətə yetmək çağırışı səslənir – inamlı, inadlı, ilahi… 1937-ci ilin qovğaları ilk olaraq aydınların sıradan çıxarılmasına, ümumən ulusumuzun sarsıdılmasına yönəlmişdi. Bunun ilk zərbəsini alanlardan biri də Hüseyn Cavid idi. O, yaşadığı çağa, mühitə sığmırdı. Onunla toplum arasında yerlə göy fərqi vardı. Onun əsərləri, qəhrəmanlarının halı bunu göstərir.

Məqalədə İblis obrazı mifoloji-dini şüurda və yazılı ədəbiyyatda (H.Cavidin "İblis" pyesi əsasında) araşdırılır.

**Açar sözlər:** İblis obrazı, mifoloji-dini şüur, "İblis" pyesi, cin, şeytan

# IMAGE OF IBLIS: IN MYTHOLOGICAL-RELIGIOUS CONSCIOUSNESS AND WRITTEN LITERATURE (BASED ON THE PLAY "IBLIS" BY H.JAVID)

**Summary**

Huseyn Javid is not only Azerbaijan, but one of the rare figures of human culture. In his works, a call to reach humanity, truth, and justice is heard confident, stubborn, divine... The events of 1937 were aimed at eliminating the intellectuals and shaking our nation in general. Huseyn Javid was one of the first

victims of this. He did not fit into the age and environment in which he lived. There was a world of difference between him and society. His works and the state of his heroes show this.

The article examines the image of Iblis in mythological-religious consciousness and written literature (based on the play "Devil" by H. Javid).

**Key words:** the image of the Devil, mythological-religious consciousness, the play "Devil", demon, devil

## ОБРАЗ ДЬЯВОЛА: МИФОЛОГО РЕЛИГИОЗНОЕ СОЗНАНИЕ И ПИСЬМЕННАЯ ЛИТЕРАТУРА (ПО ПЬЕСЕ Г. ДЖАВИДА "ДЬЯВОЛ")

### Резюме

Гусейн Джавид – одна из редких личностей не только Азербайджана, но и общечеловеческой культуры. В его произведениях звучит призыв к человечности, истине, справедливости - верному, упорному, божественному... Репрессий 1937 года имел целью выбить из рядов интеллигенцию и встряхнуть весь наш народ. Гусейн Джавид стал одной из первых жертв этого. Он не соответствовал возрасту и среде, в которой жил. Между ним и обществом была большая разница. Об этом свидетельствуют его произведения и ситуации его героев.

В статье рассматривается образ Дьявола в мифолого-религиозном сознании и письменной литературе (на материале пьесы Г.Джавида "Дьявол").

**Ключевые слова:** Образ Дьявола, мифолого-религиозное сознание, пьес Г.Джавида "Дьявол", сатана

**Giriş**. H.Cavidin əsərləri insan faciəsini, insanın bitməyən kədərini göstərdiyi dərəcədə oxucunun yaşamaq ümidini bir an da azaltmır. Çünki Cavidin yaradıcı insan olaraq harayında insan, ulus, bəşər dərdinə, halına doğma yanaşma var. Cavidin hə-

qiqət axtarışları bitmir, tükənmir, insanlara, əbədi sabahlara yeni yaradıcılıq imkanları yaradır. Onun qəhrəmanları gerçəkliyə sığmırlar.

Cavid gerçəkliyi gözəl bildiyi dərəcədə bənzərsiz yaradıcı xəyalçıdır. "Şeyx Sənan" faciəsi sevdiyim əsərlərdəndir, insanın həqiqətə doğru qarşısıalınmaz, qeyri-adi, bənzərsiz sevgisini, həqiqətə qovuşmaq ehtirasını ifadə edir. Ümumiyyətlə, Cavidin bütün əsərlərində insanın ali həqiqət axtarışları başlıca yer tutur:

Hər qaranlıqda çırpınır bir nur,
Hər həqiqətdə bir xəyal uyuyur.

Cavid "Şeyx Sənan"da özlərindən ayrı düşənlərin faciəsini dahiyanə şəkildə göstərir. İnamsızlıqdan adamların içərisində qorxu, böhtan ağacı boy atır, şübhə meyvələri yetişir, ancaq Sənanların içərisində ədalət, ülviyyət ağacı bitir, fərəh, inam meyvələri yetişir. Sənanın ömrünə bənzərsiz qətiyyət gəlir, iradə məqamına yüksəlir. İdrakın gerçək idrakdan göy qədər uca, əlçatmaz səviyyəsi var. Bu həqiqəti Cavid dərindən anlayır, duyur, özünəməxsus ifadə edir.

Cavidin Səyavuşu, Xəyyamı da zamana qarşıdır, şəraitdən, mühitdən yüksək həqiqət istəyir. Cavid oxucunun idrakını zamandan ötəliyə çağırır, onu özündəki naqisliklərlə barışmağa qoymur…

Şairin qəhrəmanları mənəviyyatın göy səviyyəsinə yüksəlirlər. Bu obrazlar insanları ədalətsizliyə, həqiqətsizliyə qarşı durmağa çağırır, ləyaqətsizliyə, azğınlığa, zalımlığa, harınlığa qarşı vuruşur, örnək olurlar.

Faciəvilik ruhlu insanın zamandan üstünlüyüdür, fərdin özündən keçməsi bahasına başa gəlir. Ulus məsələsi uca hadisədir. Əgər fərd anlayırsa ki, onun aqibəti xalqı yaratmağa xidmət edir, deməli, bu faciəvilik artıq gerçəkliyə sığmayan aqibət, özünütəsdiqdir. Böyük mənada aqibətini yaşayan insan bilir ki, onun gerçəkləşdirmək istədiyi əməl faciəsiz başa gəlməyəcək. Hüseyn Cavid bu bənzərsiz taleyi yaşadı, qəhrəmanlarının aqibətini təsdiq etdi.

Cavidin "İblis"indəki insanlıq harayı İblisə uymuşların inamsızlığına qarşıdır. Əsərdən alınan qənaət budur: yerdəkilərin İblis adlı səcdəgahı var, onlar yüksələn göründükləri dərəcədə alçalırlar, çünki göysüzdürlər. Cavid haray çəkir: insanların yaşamında zülmət gətirən İblis halı yaranır. İnsanların duyğu, iradə yoxluğundan fitnə-fəsad, şərdən yoğrulmuş işlər törəyir. Xurafat, cəhalət, anlamsız adət-ənənələr mənəviyyatsızlıq yaradır. Şairin qəhrəmanları zəlilləşmənin yaratdığı qələbəyə inanmır. Mənəviyyatsızlar vicdanın səsini eşitmirlər, çünki İblisə tapınırlar. H.Cavidin ölçüsündə İblislik insansızlıqdan yaranır. Bu, şübhəsiz, doğru yanaşmadır.

**İblis obrazı mifoloji-dini şüurda.** Azərbaycan folklorunda İblis (Şeytan) mövzusuna atalar sözü və məsəllərdə ("Şeytana papış tikir, dabanını da deşik qoyur", Şeytandan da betərdir", "Şeytanın dal ayağıdır" və s.), inanclarda ("Axşam düşəndən sonra yerə qaynar su tökmək olmaz, cinlər balalarıynan gəzirlər, yandıqları üçün insandan qisaslarını mütləq alırlar" (1, 92-93) və habelə folklorun başqa janrlarında (əfsanə, rəvayət, nağıl və s.) rast gəlinir. El arasında "Cin ayrı, şeytan ayrı" kimi çox işlənən məsəl də var. Göyçədən toplanmış mifoloji rəvayətdə qoca kişi hal arvadını tutur, məlum olur bu cindir, onu bir şərtlə buraxır ki, nəslindən – "yeddi arxa dönəninnən" kim varsa, ona toxunmasın (1, 54). "Cin dərəsi" adlı mətndə deyilir, Göyçənin Ağbulaq kəndində Usuf adlı kişinin faytonuna ağ paltarlı adam minir, çiynində də kisə olur. Usuf bunu nə qədər danışdırırsa, dillənmir. Sən demə, bu, cin imiş, qəbiristanlığa çatanda düşür. Usuf bərk qorxur, yatağa düşür, bir də o yolu tək getmir (1, 55). "Cin gəlini" adlı mətndə yad yerdə əxlaqa uyğun davranmayan adam başına gələn qorxulu hadisəni danışır. Məlum olur, əylənmək istədiyi qadın cin imiş. Bir də bu cür etməyəcəyinə and içdikdən sonra qopmuş qulağı yerinə qayıdır, cinlər onu öldürmürlər (1, 56). Mahiyyətcə buradakı cin obrazı şeytan anlamında anlaşılır.

Mətnlərdə fobiyanın (qorxunun) güclü olduğu aydınca gö-

rünür. Hadisənin iştirakçıları dünyaya gözlərini açandan eşitdiklərinin təsiri ilə ömrü boyu yaşayır, altşüurda bu, xof səviyyəsində qalır, bu və ya başqa şəraitdə (qaranlıqda, gecə tək yol gedərkən, uyğun olmayan davranış zamanı və s.) qarşılaşdıqları durumu "normalaşmış məntiqlə" əsaslandırırlar.

İblislik ağılda, ömürdə necə yaranır? Əslində İblis şər saydığımız duyğuların (qorxu, həsəd, köləlik, xəbislik, cahillik, vəhşilik, hərislik, zalımlıq və s.) ifadəsidir. Minillər öncəki insanların həyata, təbiətə münasibəti şübhəsiz, indiki səviyyədə deyildi. Onun istər-istəməz ətrafda baş verənləri anlaya, dəyərləndirə bilməməsi, çoxçeşidli fobiyalarının, anlaşılmazlıqlarının, tərəddüdlərinin, mənasız həyəcanlarının yaranmasına səbəb olurdu.

İbtidai insanların yaşamından indiki dövrə kimi bəşər təsəvvürəgəlməz dərəcədə inkişaf yolu keçib. Bu gün dünyada kompüter texnologiyalarının inkişafı artıq qarşısıalınmaz görünməklə yanaşı, sabahımızda hətta böyük fəsadlar yaradacağı haqqında faktlarla danışılır. İnsan gerçəkdən yaratdıqlarının əsirinə çevrilmək təhlükəsi ilə üz-üzədir. Belə bir zamanda yenə də tərəddüdsüz olaraq praqmatik ağıldan fərqli olaraq yaradıcı, insanlığa əsaslanan idrakın məntiqində mənəviyyat məsələsi önə keçir, buna qaçılmaz gərəklik yaranır. Ulusların, dövlətlərin sabahkı taleyi artıq hamını ciddi şəkildə düşündürməkdədir. Ancaq müharibəni yaradan güclərin bu amansız gedişi dayandırmaq fikirləri göründüyü kimi yoxdur. Yəni dünyanın halsızlığının, ölkələrarası, insanlarası münasibətlərin kökündə elə insanların halsızlığı dayanır. İnsanlarası münasibətlərin pisliyi ölkələrarası münasibətlərin pisləşməsinə səbəb olur.

İblis (Şeytan) mövzusunun insan idrakının işığında, mənəviyyat imkanlarını aşkarlamaqla həll etməli olduğu halda bəşərin bu qanlı gedişdə özünü qəsdən çaşdırması dəhşətli dərəcədə ağrılıdır. Çağdaş dünyəvi düşüncə sivilizasiyalı gediş deyərkən daha çox texnoloji əsaslanmanı önə çəkir. Habelə dünyada dini təmayüllərin artması, çoxçeşidli gərginliklərin, anlaşılmazlıqların qalması yenə də bəşərin təzadlı yaşamasından xəbər verir. Bu

baxımdan araşdırdığımız mövzunun aktuallığı göz önündədir. İnsanlığın məntiqi deyir ki, çağımızda bu yöndə elmi araşdırmaların canlı, ömürdən gələn insani məntiqlə birikməsi qaçılmazlığa çevrilir.

Əcdad düşüncəsində Xeyirin gec-tez qələbə çalacağına sarsılmaz inam Cavidlərin qələmində yenidən ömürləşir, çağımıza nəfəs səviyyəsində mənəvi yön verir.

Mifoloji-dini şüurda İblis (Şeytan) obrazının daimi varlığı, qarşısıalınmazlığı əslində insanın öz yaradıcı imkanlarına tam inanmaması, alın yazısı mifizminə qapılması ilə bağlıdır. Əcdad düşüncəsində alt şüurunda bu, artıq qarşısıalınmaz fobik təmayülə çevrilir, minillərdir transformasiyaya uğrayaraq gerilikçi yol gəlir, mahiyyətcə isə demək olar, xeyirliyə heç nə dəyişmir. Fobik əhvallar çağımızda psixologiya, psixiatriya tərəfindən təhlil olunur, irsiliyin problemləri araşdırılır, ancaq həm də insanın fobiya ilə yanaşı ağalıq duyğusunun bir-biri ilə bağlı olduğu unudulur. Psixologiya, psixiatriya bu mövzunu da təbii olaraq öyrənir, ancaq "necədir?" sualına cavab verir, "nə üçün?", "necə etməli?" suallarına cavab vermir. Folklor mətnlərində bu halsızlıqların doğurduğu əhvalları aydınca görmək olur. Yəni qorxan (fobiyaya məruz qalan) həm də qorxuzur. Ərdoyla bağlı mətnlərdə bunun izlərinə rast gəlmək olur. Ərdoyu bir kişi meşədə tutub kəndə gətirir, işlədir. Bunlar metal əşyadan qorxurlarmış. Ancaq fənd işlədib qaçarkən uşaqların bir neçəsinin yanağını dişləyir (3). Halla bağlı inanclarda isə həyat yoldaşı doğan kişi Halı qorxuzmaq üçün tüfəng atır (3).

Cinlərlə bağlı bu inanc indi də adamların təsəvvüründə var. Təsadüfi deyil ki, kəndlərimizdə bəzi evlərin girişində indi də köhnə at nalı vurulur. Səbəbi odur ki, inanca görə, cinlər metal əşyadan qorxduqları üçün evə girə bilmirlər (3).

M.Kazımoğlu-İmanov yazır, mifoloji düşüncədə şeytan (iblis) qədər dərin iz buraxan ikinci bir demonik varlıq tapmaq çətindir. Şeytanın (iblisin) qüdrəti, mifoloji təsəvvürə görə, cilddən-cildə girib insan qəlbini ələ almasında və insanı onun (şey-

tanın) iradəsinə uyğun addımlar atmağa təhrik etməsindədir. Əgər belədirsə, yəni şeytan gücün-qüdrətin bir rəmzidirsə, onda insan düşüncəsində bu güc-qüdrəti dəf etmək arzusu da yer tapmalıdır və tapır da (6, 6).

Dini-mifoloji şüurda ibtidailikdən gələn fobiya (qorxu) "elmiləşdirilir", standartlaşdırılır, yəni aqibətləşdirilir, əbədi həyat təmayülünə çevrilir.

İblis mövzusuna münasibət istər-istəməz dindəki yanaşmanı təhlil etməyi önə çəkir. Dinə görə, İblis zəhərli oddan yaradılıb. Bununla bağlı çoxlu dini təfsirlər var: İnsanın palçıqdan, İblisin isə oddan yaradılması dönə-dönə vurğulanır. Dində bu məsələ xüsusi şəkildə obrazlaşdırılır. Azərbaycanda islamın gəlişindən sonra bu yöndə təsəvvürlər çulğaşıb, daha çox isə dinin təsiri üstünlük təşkil edib.

Qurandan: "Bir zaman Biz mələklərə: "Adəmə səcdə edin!" dedikdə, İblisdən başqa hamısı səcdə etdi. O, imtina edib təkəbbür göstərdi və kafirlərdən oldu (Əl-Bəqərə 2.34) (5, 7). "Şeytan haqq ilə müxalif olan hər növ tüğyançı varlığa deyilir – istər insanlardan olsun, istər cinlərdən, istərsə də heyvanlardan. İblisi ilahi göstərişlərlə müxalifət və tüğyan etdiyinə görə onu "şeytan" adlandırırlar. Deməli, şeytan həm İblisə, həm də ondan qeyrilərinə aid edilə bilən ümumi bir addır (8).

Dini şüurda İblis insanları ardıcıl çaşdıra bilən bir varlıqdır. Bir məqama da diqqət edək: "Quranda cinlər zahiri gözlə görünməyən varlıqlar sayılır. Şeytan da cin tayfasından sayılır: gözlə görünməyən, ancaq varlığı dəqiq olan, ağlı qarışmış, tərs, xarakterсə zəif olan insanları yolundan azdırmağa çalışan cinlərə şeytan adı verilir. Əsl adı İblisdir. İblis Rəbbinin buyruğuna uymayan, üsyan edərək yoldan azmış cinlərdir" (4).

İblisin oddan yaradılması ideyası onun daha çox yandırıcılıq, məhvedicilik xüsusiyyəti ilə bağlıdır. Ancaq Azərbaycan ictimai düşüncəsində odun isidicilikdən üstün, işıqpərəstlik yönü özünü aydın şəkildə göstərir. Zərdüştün "Təmiz söz, təmiz düşüncə, təmiz əməl" düsturu mahiyyətcə Azərbaycan türk düşün-

cəsidir. Burada insanın içdən arınması, od amilinin mənəviliyinin ön plana çəkilməsi aydınca görünür. "Avesta"da iki əsas qütb var: Xeyiri təmsil edən Hürmüzd, Şəri təmsil edən Əhrimən. Hürmüzd hər yerdə Əhrimənlə döyüşür, onun gec-tez məhv olacağına, tamam silinəcəyinə inam var. Əsatirdən yaranan bir dinin şəxsində bu, ciddi bir ideya idi.

Azərbaycan-türk hadisəsi Zərdüştçülüyü Tanrıçılığın davamı saymaq olar. Novruz düşüncəsində Xeyir və Şər ideyalarının yaşarılığı var, əcdad düşüncəsində soyuq (qış) Şər, istiliyin (yazın) gəlişi, təbiətin canlanması Xeyir sayılıb. Zərdüştlükdəki od Türk düşüncəsindən gələn oda ilahi-insançı münasibətə əsaslanır. Novruz düşüncəsində odun insanı içdən təmizlədiyinə inam olub, indi də bu fitrətən yaşayır. Bu, odun tanrılaşdırılmasıdır. Dinlərdə, eləcə də İslamda odun İblis obrazında təqdimi ilə Türk düşüncəsində Oda ilahi-insançı, yaradıcı (içi təmizləyici) yanaşmadan tamam fərqli bir yanaşma var.

Xeyir-Şər təzadı var, dialektik məntiqdən fərqli olaraq təzadların birliyi yoxdur. Əslində əcdad düşüncəsindəki qətiliyin məntiqi burada aydın görünür. Türk düşüncəsində Xeyirə və Şərə münasibətin sərhədi, aydınlığı var.

Dünyanın gedişində Şər, yəni Xeyirə uyğun gəlməyən nizamsızlıq, çatışmazlıq var, insanların minillərdir gerçəkliyə qarşı müxtəlif səviyyələrdə hiddəti, razılaşmaması davam edir.

C.Bəydilinin tərtib etdiyi "Türk mifoloji sözlüyü"ndə V.Radlova və Y.Tursunova istinadən "Şeytan" adlı məqalədə deyilir: "Gözə görünməyən demonik varlıqlardandır. Ənənəvi görüşlərə görə, dinib-danışmır, kimsəyə görünmür. Bəzən də İblis deyilən bu ruh adamları həmişə natəmiz işlərə sürüklər. Türk düşüncəsinə görə, övliyaların, müqəddəslərin olmadığı yerə şeytan gələr və o zaman da həmin yerdə çirkinlik, yamanlıq və şər ruh hakim olar. Tədqiqatçılara görə, yeraltı ruhlara şeytan deyilməsi islamın qəbulundan sonra bir ənənə şəklini almışdır (2, 341).

İblisin ruh sayılması, eləcə də "şər ruh" anlayışı yüzillərdir insanların ağlında normalaşıb, oturuşub. Ancaq ruh anlayışının

mahiyyəti bütün sahələrdə fəlsəfədə, dində, elmdə tam anlaşılmadığına görə mövzu hələ ki, açıq qalmaqdadır. Mahiyyətcə insanın inamı, idrakı, mənəviyyatı və iradəsinin birliyi olan ruhun keyfiyyətlərinin insanlığın bugünkü səviyyəsində öyrənilməsi bəşərin yeni bir inkişaf səviyyəsini yarada bilər.

İblis mövzusu çağımızda da cəlbediciliyini saxlayır. İblisin – Şərin daxildən təmizlənməsi, yoxa çıxarılması mümkündürmü? Dində alın yazısı olduğundan bunun aradan qaldırılması mümkünsüzləşir, insan ömrü boyu yaratdığı təsəvvürlər sistemindən asılı olaraq qalır. Yəni dini sistemə görə insanın taleyi öncədən müəyyənləşdirildiyindən onun özünü islah etmək imkanı tamamilə yoxa çıxır.

Cavidlərin yaratdığı bəşəri ədəbiyyatın böyük istəyi odur ki, insan özünə yiyə dura bilsin.

Tanrıçılıqda insan Tanrısı ilə bir ola bilir. Əslində Türk insanı Tanrısı ilə birlikdə, həm də Tanrı olaraq dünyanın yaradılışında iştirak edə bilir. Dində dünya Dünyadan qıraqdakı qüvvə tərəfindən yaradılır, Tanrıçılıqda isə dünyadakından yaradılır.

***

Yüzillərdir ədəbiyyat bu mövzuya müraciət edir, bədii ədəbiyyat ölçüsündə çıxış yolu axtarılır. F.Dostoyevskinin “Cinayət və cəza” romanının əsas surəti Raskolnikov Napoleon olmaq istəyir. Bu səbəbdən də varlı sələmçi qarını vicdan əzabı çəkmədən öldürür, ancaq müəyyən vaxt keçdikdən sonra cinayətini etiraf edir, obrazlı desək, Şeytan onu axıradək yenə bilmir. Əslində burada vicdan amilinin insanın içində ölçü olduğu görünür, bilinir.

Hötenin “Faust”unda Mefistofel Tanrı ilə bəhsə girir. Sual yaranır: Faustun qüdrətinin yaranması Mefistofelin köməyinəmi möhtac idi? Başqa cür mümkün deyildimi? Hötenin “Faust”unda yaşı artıq ötmüş olan Faust Mefistofelin – İblisin inadı qarşısında yenilir. Mefistofel ona gözəl günlər vəd edir. Əgər Faust ru-

hunu İblisə verib cavanlığını alırsa, bu yaşam necə ideal, insanlığa uyğun ola bilər? Göründüyü kimi, Qərb dünyası Höte kimi düşüncə yiyəsinin şəxsində çaşır, bəşəri də çaşdırır. Belə insanlığa ideal sayıla biləcək xoşbəxtlik olmur. Burada insanlığın məntiqi pozulur.

Faustun yanaşmasından fərqli olaraq Caviddə Xeyirin Xeyir, Şərin isə Şər sərhədi aydınca bilinir, insanlığından ayrılanların faciəsi təsvir olunur, şər daşıyıcısı ola bilməyənlərin məsumluğu insanlıq dərsi kimi təqdim edilir. Cavid şübhəsiz, Hötedən də bəhrələnib, ancaq onun əsəri mahiyyətcə İnsançı ideyasına görə Höteninkindən üstündür. H.Caviddə bunun özünəməxsus, həm də fəlsəfi həllini görürük. Cavid Hötedən fərqli olaraq bəşərin qurtuluş yolunu özünəməxsus göstərə bilir: İnsan içindəki şərdən qurtulanda dünya var olacaq. Dünyanın pis günə qalması şəraitlə, dindəki alın yazısı ilə bağlı və s. deyil, insanın özünün yaratdığı durumla bağlıdır. "İblis" əsərinin qeyri-adiliyi bir tərəfdən gerçəkliyin peşəkar şəkildə ifadə olunması, başqa tərəfdən, ona bənzərsiz romantik çalar verilməsindədir. Əslində bu mövzuda "İblis"i dünya klassikasının ən gözəl əsəri saymaq olar.

Ya rəbb, bu nə dəhşət, nə fəlakət,
Ya rəbb, bu nə vəhşət, nə zəlalət?!
Yox kimsədə insaf, mürüvvət! (7, 8).

Burada ilahi ünvana ünvanlanan haray əslində Vicdanın səsidir. Cavid gerçəkliyin acı, zəlil durumunu aydın təsvir edir, ancaq dəhşəti bu sayaq ifadə etmək insanlığa, insana ümidin əlamətidir:

Ya rəbb, bu cinayət, bu xəyanət, bu səfalət
Bulmazmı nəhayət?!
Yüz min deyil iblisə uyan, həp bəşəriyyət
Etmiş bu gün ev yıxmağa, qan içməyə adət! (7, 9).

Yaxud:

Duyduqca, düşündükcə olur qəlbimə tarı,
Min şübhəli illət.

Min dürlü həqiqət mənə xəndan, həpsində də zülmət! (7, 15).

Cavid çağında ideal sayılan nə varsa, hamısında yalan görür. Fəhmi ona deyir ki, şərə qarışmış xeyir artıq xeyir deyil, şərdir. Şər dünyanın mayasında, mahiyyətində deyil, zahirən güclü olsa, sayılsa da, təməlsizdir. Bu gedişi yaradan insanlardır, onlar özləri də bunu sonlandıra bilərlər.

Hər fəlsəfə, hər dinü təriqət, bütün adət
Rəqs etmədə həp olsa xəyal, olsa həqiqət.
Həp rəqs ediyor hüznü sürur, eşqü fəlakət,
Həp rəqs ediyor xeyirlə şər, elmü cəhalət
Rəqs etmədə hətta o görünməz ulu məbud,
Rəqs etmədə hətta o vücudi-ədamalud (7, 27).

Caviddə məsələ problem geniş biçimdə qoyulur. Dünyanın gedişatındakı şər Arifləri qatilə çevirir, İxtiyarları halından eləyir. Cavidin haqlı, idraklı kədərinin mayasında həm də böyük bir ümid yaşayır. Cavid insanlığın ümidini insanın vicdanında arayır, inamında yanılmır...

**Sonuc.** Araşdırma göstərir ki, İblis obrazı mifoloji-dini şüurda və yazılı ədəbiyyatda bəşərin indiyə qədərki idraki səviyyəsinin ifadəsi olaraq özünü göstərir. Mövzunun bundan sonra daha geniş, çoxçalarlı araşdırılması zərurəti yaranır. Burada dünya ədəbiyyatı örnəklərindən bir neçəsi haqqında qısa danışmaqla H.Cavidin "İblis"i ilə paralellər apardıq. Gəlinən qənaət odur ki, H.Caviddə sözügedən mövzuya yanaşma bənzərsiz məntiqli, insanlığa, deməli, ədəbiyyatın da sabahkı özünütəsdiqinə uyğundur.

## ƏDƏBİYYAT

1. Azərbaycan Folkloru Antologiyası. 3-cü kitab. Göyçə folkloru. Bakı: Səda, 1999, 746 s.
2. Bəydili (Məmmədov) C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.
3. Qaliboğlu E. Şəxsi arxivi.
4. Quran nəzərindən İblislə şeytanın fərqi nədir? - Cavablar

xəzinəsi - açılmasında məqsəd İslama aid suallara cavab vermək olmuşdur (islamquest.net)

5. Qurani Kərim və Azərbaycan dilinə mənaca tərcüməsi (islamhouse.com)

6. Kazımoğlu-İmanov M. Şifahi və yazılı ədəbiyyatımızda demonizm. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Elmi-ədəbi toplu, 2022/1 (57). Bakı, “Elm və təhsil”, 2022, səh. 3-34

7. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. III cild. Bakı, “Lider nəşriyyat”, 2005, 304 səh.

8. Cin və şeytan haqqında Qurana istinadən. http://ixlas.az/meqaleler/551-cin-ve-sheytan-haqqindaqurana-istinaden.html

# MƏRUZƏLƏR

**Aygün ƏLİYEVA**
*Biləsuvar rayon Səmədabad kənd tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*
a.alisoy423@gmail.com

## İBLİS – TRANSSENDENTLİKDƏN ROMANTİK MİFYARATMAYA

## IBLIS – FROM TRANSCENDENCE TO ROMANTIC MYTH

**Summary**

The article talks about the mythical roots of the image of Iblis, who represents evil. H.Javid described the image of Iblis in a romantic way. In the work “Iblis”, events revolving around the questions “What is the Devil?”, “What is a human who betrays everyone?”, and the dialogue between Arif and the Devil clarify the place of the Devil in the mythological system and the aspects of its origin. In the work, the struggle between Good and Evil is presented as a struggle between the Devil and human. H.Javid's work “Iblis” is a perfect work written against war and the demonic thoughts that cause it.

**Key words:** Demon, good, evil, romantic mythology, symbolic image

# ИБЛИС – ОТ ТРАНСЦЕНДЕНТНОСТИ К РОМАНТИЧЕСКОМУ МИФУ


**Резюме**

В статье говорится о мифических корнях образа Иблиса, олицетворяющего зло. Х.Джавид описал образ Иблиса в романтическом ключе. В произведении “Иблис” события, вращающиеся вокруг вопросов “Что такое Дьявол?”, “Что такое человек, который всех предает?”, и диалог между Арифом и Дьяволом проясняют место Дьявола в мифологической системе и аспекты его происхождения. В произведении борьба Добра и Зла представлена как борьба Дьявола и человека. Произведение Х.Джавида “Иблис” — совершенное произведение, написанное против войны и вызывающих ее демонических мыслей.



**Ключевые слова:** Демон, добро, зло, романтическая мифология, символическое изображение


Şeytan-İblis-Şər qüvvə ən çox “daşlanan” obraz kimi bədii ədəbiyyatda dünyanı dərketmə üsulları mifoloji strukturla üst-üstə düşən bir çox yazıçıların müraciət etdiyi mifik qəhrəmandır: Dante Aligyerinin “Cəhənnəm”, Şarl Bodlerin “Şeytana dualar”, Uilyam Peterin “Şeytan”, İohann Volfqanq Hötenin “Faust”, Stiven Kinqin “Məhşər”, Lev Tolstoyun “Şeytan”, Hüseyn Cavidin “İblis”, “İblisin intiqamı”.

Nəzərə alsaq ki, bu varlıq dini ədəbiyyatlarda da yer alır və orada qeyd edilir ki, şeytan cin tayfasındandır, cinlər zahiri gözlə görünməyən sürətli varlıqlardır. Cinlər insanlardan öncə tüstüsüz oddan yaranmışlar (“*Cinləri isə daha öncə qızmar alovdan yaratmışdıq*” Hicr surəsi 27). Dini rəvayətlərə görə əsl adı Əzazil olan İblis Yer kürəsində qarışıqlıq yaradan cinlərin üzərinə göndərilən qoşunun başçısı olur və azğın cinləri məğlub edir, altı min il Allaha ibadət etdiyi üçün hətta mələklərdən də üstün səviyyəyə yüksəlir. Lakin Cənab Haqqın, “Adəmə səcdə edin”, -

əmrindən çıxdığı üçün qovulmuş, "iblis" və "şeytan" adlandırılmışdır. Qurani Kərimdə o insanın ən böyük düşməni adlandırılır. Lakin Şeytan insan pis əməl törətdikdən sonra ona hakim olur, mömin bəndələr üzərində onun heç bir hökmü yoxdur. "Qurani-Kərim" də İbrahim surəsinin 22-ci ayəsində deyilir : "...Əslində mənim sizin üzərinizdə heç bir hökmüm yox idi. Lakin mən sizi çağırdım, siz də mənə uydunuz. İndi məni yox, özünüzü qınayın. Nə mən sizin dadınıza çata bilərəm, nə də siz mənim dadıma..."

İblisin mifoloji köklərini araşdırdıqda paralel miflərin bəzi model və sistemlərinin sonrakı mərhələdə dini təsəvvürlərin analogiyası olduğunun şahidi oluruq. Mifin və dinin bağlılıq məsələsinə toxunduqda Ramazan Qafarlı qeyd edir ki, ilkin mərhələdə primitiv dini görüşlərdə sinkretik düşüncə köklərindəki dünya haqqında təsəvvürlər mənşəcə eyni başlanğıca malikdir. Qeyd edək ki, mifin və dinin sərhədini müəyyən etmək elə də çətin deyil. *Miflər heç də insanların bəsit düşüncə və yanaşma tərzi deyil. Miflər kortəbiilikdən, dünyanın bəsit qavrayışından yaranmamışdır, onlar dünyanın sadəcə qeyri-səlis dərkindən törəyir*. Fikrimizcə, müqəddəs kitablarda təsvir edilən qissələr, eləcə də dini rəvayətlər İblis mifinin başlanğıcıdır. Yəni təkamülçülərin əksinə olaraq düşünürük ki, iblis və bu tipli şər qüvvələr transsendent varlıq kimi başlanğıcını animistik təsəvvürlərdən (E.Taylor) deyil, dindən götürür. Çünki ilk insan Adəm yerə endikdə İblis də cənnətdən qovulmuşdu. Bu qovulma məqamı "Dədə Qorqud" dastanında belə vurğulanır:

Adəmə sən tac urdun,
Şeytana lənət qıldın.
Bir suçdan ötüri dərgahdan Sürdün.
("Qazılıq Qoca oğlu Yeynək boyu")

İblis xristianlıqda "satana", islamda "şeytan", türk mifoloji düşüncəsində isə Oğuzun meşədə döyüşdüyü nəhəng heyvan-Kıat Ağ kağanın dünya yaratmaq işinə mane olan şər qüvvə kimi verilir. Xeyir və Şərin mübarizəsi fonunda H.Cavidin "İblis"

əsərində təsvir edilən İblis poetik mifyaratmanın məhsulu kimi mifin bədiilik qazanmış Şəri təmsil edən modelidir. Digər romantiklərdən (Lermontov, Höte) fərqli olaraq H.Cavid İblisi gah bədii-simvolik planda, gah gerçək, gah da mifik planda vermişdir, hadisələr əsərdə düzxətli deyil, spiralvari formada təqdim edilmişdir. Bu rasionallığa qarşı gəlmək deyildi, sadəcə “İblis” əsərində poetik dərketmə mistikaya əsaslanırdı. H.Cavid bu əsəri ilə K.Əliyevin: “Azərbaycan romantikləri folklor nümunələrini millilik məzmunu, xəlqilik mahiyyəti daşımalarına görə qiymətləndirir, onlara məhz bu cəhətdən üstünlük verirdilər”, - fikrini aşaraq bəşəri aspektdən İBLİS-İNSAN qarşıdurmasına aydınlıq gətirmişdir.

H.Cavidin İblis obrazı ilə romantik mifyaratmada istər tarixi-ənənəvi, istərsə də milli-mənəvi mifologiya baxımından spesifik yanaşması özünü göstərir. Belə ki “İblis” əsərində yazıçı İblis obrazı timsalında emprik müxtəlifliyin əridiyi tarixi-milli mifologiya (“nisbi mifologiya”) aspektindən İblisi yenidən mənalandırır. H.Cavidin mifik qəhrəmanı olan İblis nə mifolegem yaradıcılığında dünyanın ən qədim nağıl süjeti olan olan “Dəmirçi və İblis” nağılında olduğu kimi (dəmirçi zalım varlıqla saziş bağlayaraq, ürəyini fövqəltəbii qüvvə müqabilində dəyişir), nə də J.Saramaqonun “İsanın incili” əsərində olduğu kimi çoban qiyafəsində kimisə aldatmır. H.Cavidin “İblis” əsərindəki mifik qəhrəman insanların (Arif, Elxan və d.) ən kiçik şübhəyə düşmə məqamında yanlarında peyda olur, “Tanrı olsaydım əgər, gerçəkdən, ya bu insanları xəlq etməz idim, əgər etsəm, yaşatırdım daim məsud, - deyən Elxana “Öylə yekrəng olaraq keçsə həyat, bıqar insan, yaşamaqdan yorulur, yaşayış bəlkə də mənasız olur”, - cavabını verir.

H.Cavidin romantik poetik düşüncənin elementinə çevrilən mifik qəhrəmanının nağıllardakı kimi xalq içərisindən çıxmış, sadə zəhmət adamlarının arasında böyümüş qəhrəman tərəfindən sehirli əşya və vasitələrlə məhv edilməsi motivinin əksinə olaraq ona insanlar uyur, əli öpülür (Arif, İbn Yəmin, İxtiyar və b.).

Folklor nümunələrində“Xarabalıqda cin-şeytan olar” - deyimində olduğu kimi ”Kəl Həsən” nağılında “Mərd və Namərd”in nağılında dəyirmanlar, xarabalıqlar şərin məkanı, gecələr zamanı kimi təqdim edilsə də, H.Cavidin yaratdığı İblis mifik surəti şübhənin olduğu hər yerdə, hər zaman gah xidmətçi, gah İxtiyar qiyafəsində peyda olur.

“İblis” əsərində İblis nədir?- Hər kəsə xain insan nədir?- sualları ətrafında cərəyan edən hadisələr, Ariflə İblisin dialoqu İblisin mifoloji sistemdə yeri, yaranma aspektlərinə də aydınlıq gətirir.

Nəzəri-epistomoloji konteksdən yanaşsaq, elm, incəsənət və dinin ayrılmadığı mifik zamanda İblis əmrə tabe olmadığı üçün Allahın ilahi nemətlərdən məhrum etdiyi məxluq kimi göstərilirdi. İlahi qanunları pozan insan isə artıq İblisin baziçəsi kimi təqdim edilirdi.

Beləliklə, H.Cavid “İblis” əsərində Arifin “İnsanları xəlq etmədə var bəlkə də hikmət, İblisə nə hacət?!-dilemması fonunda bəşəri narahat edən problemlərə ən qədim mifik qəhrəmanı romantik planda realizə etməklə toxunmuşdur. İnsanlar inanmaq istəməmişlər ki, şəri Allah yarada bilər. Bu baxımdan İblisin dini, eləcə də mifik demiurq kimi mənşəyi müxtəlif dövrlərdə fərqli izah olunur. H.Cavid “İblis” əsərində “mütləq” mifyaratmanın sərhədlərini pozaraq (çünki Kainat-İnsan-Allah bölünməz üçlüsünü ikiləşdirir) Xeyir-şər, qaranlıq-işıq, pis-yaxşı münasibətlərində romantik universiumda İblis obrazını transsendentlikdən (təcrübə xaricində olmaq, təcrübə ilə dərk edilə bilməməzlik) çıxararaq “nisbi” mifyaratmaya yaxınlaşmış məkan və zaman olaraq İblis-İnsan qarşıdurmasını kosmosdan yerə endirmişdir. Belə ki, Xeyir və Şər ünsürünün mübarizəsi romantik mifyaratmada İblis və insan ünsürü ilə rekonstruksiya olunur. Bu baxımdan İblis insanla eyni zaman və məkanda transsendentlikdən uzaqlaşır. **Hüseyn Cavid yaradıcılığında İblis “magik seyretmə”də yeni bədii simvolik məna qazanaraq İNSAN NƏFSİ kimi mənalandırılaraq bütün şərin başlanğıcı kimi təqdim olunur.**

## ƏDƏBİYYAT

1. Azərbaycan dilində dini-mifoloji qara qüvvələrin adlarının leksik-semantik xüsusiyyətləri. Dil və ədəbiyyat, Azərbaycan Dillər Universiteti, Bakı,2016,N3 s.121-128
2. Mif və Nağıl. ADPU-NUN nəşriyyatı, Bakı, 1999, s.64
3. Hüseyn Cavid.Əsərləri. Beş cilddə. III cild.Bakı, "Lider Nəşriyyatı", 2005, s.85-86
4. Ramazan Qafarlı. Mifologiya. 6 cilddə. I cild. Mifogenez: rekonstruksiya, struktur, poetika, Bakı, "Elm və Təhsil", 2015, s.63-64
5. Əliyev K. Romantizm və folklor. Bakı, "Elm", 2006, s. 42.
6. Qurani-Kərimin Azərbaycan dilində tərcümə və şərhi. Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2005

***Bağır BABAYEV***
*Naxçıvan Dövlət Universiteti,*
*Fəlsəfə üzrə fəlsəfə doktoru*
*baqirbabayev59@mail.ru*
**Rəşad ƏSGƏROV**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,*
*Fəlsəfə üzrə fəlsəfə doktoru*
*asgarov_rashad@mail.ru*

# HÜSEYN CAVİDİN MİFOLOJİ DÜŞÜNCƏSİNDƏ DİNİ İNANCLAR ("İBLİS" FACİƏSİ ƏSASINDA)

**Xülasə**

Hüseyn Cavidin bədii, fəlsəfi yaradıcılığı poeziyası, dramaturgiyası ümumbəşəri xarakterli ideyalarla daha zəngin olsa da, orada mifoloji düşüncəyə, simvolik-mifik obrazlara da geniş yer ayrılmışdır. Cavidin pyeslərində, eləcə də, onun ilk şeirlərində də bunlara rast gəlmək mümkündür. Belə ki, Cavidin "Hübuti-Adəm" şeirində xeyirlə şərin qarşılığında Allaha asi çıxan və "Qurani-Kərim"də adı keçən, min bir hiylə ilə insanları Haqq yolundan döndərməyə çalışan, başlarına gələn bütün bələların səbəbkarı olan, müqəddəs duyğulardan xəbərsiz qalan mərhəmətsiz məxluq İblisə münasibəti açıqcasına görünməkdədir.

Cavidin İblis-Mələk tərəf müqabilinə, insan İblis qarşılaşmasına daha geniş olaraq "İblis" faciəsində rast gəlirik. Buradakı İblis obrazı mistik təfəkkürə və dini inanclarda olan İblisdir. Şər qüvvənin simvolu kimi, İblis əməlində bəşər övladını ram etmək, onu düz yolundan azdırmaq, insanlar arasında nifaq salmaq, onları ardınca aparmaqla şər qüvvəyə çevirmək istəyindədir. Müharibələrə bais olan, insanları cinayətlər törətməyə sürükləyən də İblisdir. İblis daima özünü zahirən dəyişdirir, böyük ustalıqla cilddən- cildə girir, beləliklə də, çox böyük bacarıqla insanların könlünü fəth edir. Lakin Cavidin irfan təliminə görə,

nəfsinə qalib olan, imanlı, təqvalı, kamil insan İblisə qalib gələcək “nuri-həqdən” olduğunun təsdiqləyəcək. “Nuri-həqiqət“ axtarışında yola çıxan və bu yolu axıra qədər getmək əzmində olan insan qalib olanda İblis məyusluq içində onu tərk edib gedəcəkdir.

**Açar sözlər:** Hüseyn Cavid, ümumbəşəri ideyalar, “İblis” faciəsi, mifoloji düşüncə, simvolik-mifik obrazlar, İblisə münasibət

## RELIGIOUS BELIEFS IN THE MYTHOLOGICAL THOUGHT OF HUSEYN JAVID (ON THE EXAMPLE OF THE TRAGEDY “IBLIS”)

### Summary

Although Huseyn Javid's artistic and philosophical work - poetry, drama - is richer in ideas of a universal nature, it also devotes a lot of space to mythological thought, symbolic and mythical images. They can be found in Javid's plays, as well as in his first poems. So, in Javid's poem "Hubuti-Adam”, his attitude to Iblis, a ruthless being who disobeyed Allah in exchange for good and evil and named in the "Koran" and became the cause of all the troubles that befell people, who did not know about sacred emotions, is clearly traced.

In a broader sense, we find the demonic - Angelic side and the human-diabolical meeting of Javid in the tragedy “Iblis”. The image of Iblis is a devil, here is a devil with mystical thinking and religious beliefs. As a symbol of evil power, Iblis in his act seeks to tame humanity, to lead it off the straight path, to discord people, to turn them into an evil force, leading them along. He is also Iblis, a demon who leads wars and pushes people to commit crimes. Iblis constantly changes himself externally, penetrates from skin to skin with great skill and, thus, conquers the hearts of people with great skill. But according to Javid's teaching, a person who has conquered his soul, a

believer, pious, perfect, will confirm that he is from “Nuri-Hak”, who will defeat Iblis. When the person who went in search of "Nuri-Hakikat" wins and decided to go this way to the end, Iblis will leave him in despair and leave.

**Key words:** Huseyn Javid, universal ideas, the tragedy “Iblis”, mythological thought, symbolic and mythical images, attitude to Iblis

## РЕЛИГИОЗНЫЕ ВЕРОВАНИЯ В МИФОЛОГИЧЕСКОЙ МЫСЛИ ГУСЕЙНА ДЖАВИДА (НА ПРИМЕРЕ ТРАГЕДИИ “ИБЛИС”)

### Резюме

Хотя художественное, философское творчество Гусейна Джавида - поэзия, драматургия-богаче идеями общечеловеческого характера, в нем также много места отведено мифологической мысли, символико-мифическим образам. Их можно встретить в пьесах Джавида, а также в его первых стихах. Так, в поэме Джавида “Хубути - Адам” отчетливо прослеживается его отношение к Иблису, безжалостному существу, ослушавшемуся Аллаха в обмен на добро и зло и названному в “Коране” и ставшему причиной всех бед, постигших людей, не знавшему о священных эмоциях.

В более широком смысле мы находим демоническо - Ангельскую сторону и человеческо - дьявольскую встречу Джавида в трагедии “Иблис”. Образ Иблиса- дьявола, здесь- дьявол, имеющий мистическое мышление и религиозные убеждения. Как символ злой силы, Иблис в своем поступке стремится приручить человечество, сбить его с прямого пути, разладить людей, превратить их в злую силу, ведя их за собой. Он также Иблис- демон, который ведет войны и подталкивает людей к совершению преступлений. Иблис постоянно меняет себя внешне, с большим мастерством

проникает из кожи в кожу и, таким образом, с большим мастерством покоряет сердца людей. Но согласно учению Джавида, человек, победивший свою душу, верующий, благочестивый, совершенный, подтвердит, что он из "Нури - Хака", который победит Иблиса. Когда побеждает человек, отправившийся на поиски "Нури-Хакиката" и решивший идти этим путем до конца, Иблис в отчаянии покинет его и уйдет.

**Ключевые слова:** Гусейн Джавид, общечеловеческие идеи, трагедия "Иблис", мифологическая мысль, символико-мифические образы, отношение к Иблису

XX əsrin Azərbaycan poeziyasında, milli poetik düşüncə tariximizdə Hüseyn Cavidin yaradıcılığı, mənəvi-əxlaqi və bədii dünyası, geniş diapazonlu istedadı fəlsəfi axtarışlarında daima millətini daha böyük qələbələrə səsləmiş və bu gün də səsləməkdədir. Hüseyn Cavid yaradıcılığı, ümumiyyətlə, bənzərsiz sənətkarlıq xüsusiyyətlərinə malikdir. Sənətinin təkrarsızlığı ilə "Hüseyn Cavid Azərbaycan ədəbiyyatının, ictimai fikrinin böyük nümayəndələrindən biridir" (3, 2022).

Heç də əbəs deyildir ki, Hüseyn Cavidin yaşadığı dövrün çox mürəkkəb-qarışıqlıqlarla dolu dönəmlərində, yəni "XIX əsrin sonu-XX əsrin əvvəllərində böyük mədəni-mənəvi yüksəliş keçən və milli yetkinlik mərtəbəsinə qədəm qoyan xalqımız" (18, s.10), o cümlədən XX əsr Azərbaycan ədəbiyyatı bundan sonra "siyasi-ictimai hadisələrin, ideoloji cərəyanların zorakı basqısına məruz oldu. Bu isə təsadüfi olmayıb, dövrün, zamanın hadisələri ilə bağlıdır" (15, s.78). Belə ki, Azərbaycanın şimalının əsarətində qaldığı Rusiyada 1917-ci il bolşevik inqilabından sonra, xüsusilə də, AXC-nin süqutu ilə başlanan sovetləşmə dövründə "tamamilə başqa prinsiplərə və normalara" əsaslanmaqla "Azərbaycan türk xalqının öz milli köklərindən qopardılaraq Azərbaycan sovet xalqına transformasiya edilməsi" ilə milli-fəlsəfi fikir və məfkurəyə qarşı açıq zorakılıq tüğyan

etmiş oldu.

Bədii, fəlsəfi yaradıcılığını poeziyasını, dramaturgiyasını ümumbəşəri xarakterli ideyalarla hər zaman zənginləşdirən Hüseyn Cavid bununla yanaşı, eyni cür mifoloji düşüncəyə, simvolik-mifik obrazlara da əhəmiyyətli dərəcədə böyük yer vermişdir. Əbəs yerə deyilməmişdir ki, ”Azərbaycan poeziyası da öz başlanğıcını miflərdən götürmüşdür: ilkin təbiət və məişət kultları ilə bağlı dualar-nəğmələr, magik ovsunlar, mifik əcdad kultuna bağlı atalar sözləri və nəzmlə yaranmış saysız- hesabsız deyimlər və s. müasir poeziyanın ilkin bünövrə daşlarını təşkil edir” (16, s.11).

Elə bu mənada da Cavidin yaradıcılığındakı mifoloji düşüncəyə yaxınlıq, doğmalıq bir sıra mifoloji obrazlara müraciətlə yazılmış şeirlərlə sübuta yetirilmişdir. Cavid də daxil olmaqla “Azərbaycan romantizmi poetika baxımından zəngin və çoxçeşidli olub, burada folklor süjetlərindən tutmuş ən müxtəlif özünəməxsus mövzular, insanın daxili aləmi, irreal aləm, iblislik, platonik məhəbbət, vətən məhəbbəti, Şərq- Qərb qarşıdurması və qarşılaşdırması və s. kimi komponentlərə başlıca yer verilmişdir” (4, s.87). Deməli, “XX əsr Azərbaycan romantizmində, o cümlədən Cavid yaradıcılığında simvolik-mifik obrazlara istinad Pəri, Mələk, İblis surətləri ilə daha bariz şəkildə görünür. Aydındır ki, bu romantiklərin mifologiyaya olan dərin maraqları ilə bağlı idi” (7, s.341).

Ona görə də Cavidin “Hübuti-Adəm” şeiri yaradıcılığındakı mifoloji düşüncənin ilk nümunələrindən biri kimi olduqca qiymətlidir. “Onun şeirlərində insan taleyinə doğru istiqamətlənən həssaslıq və qayğı qırmızı xətt kimi keçir” (6, s.155). Burada mənəviyyat-ruhaniyyət məsələlərinin və gözəlliyin fərqli yanaşmadan yönlərdən təsviri vardır. Hüseyn Cavid burada ruhani duyğulardan, mələklərin uçuşundan, güllərin-çiçəklərin təkrarsız ətrindən, xəzansız ötüşən bahardan ibarət olan bir cənnətdən söhbət açmaqdadır. Şeirdə təsvirinin verildiyi cənnət Adəmlə Həvvanın yaşadığı ülvi bir məkandır və orada onlar ikilikdə qəmsiz, kədərsiz, lakin tənha yaşamaqdadırlar:

Diyorlar bir zaman Adəmlə Həvva
Yaşarmış rövzeyi- cənnətdə tənha (2, s.35).

Cənnət elə bir məkandır ki:

O bir məva ki, ruhani, münəvvər,
Uçarmış orda zərrinpər mələklər.
O bir məva ki, nəşr eylər sərasər
Əməllər, nəşələr, güllər, çiçəklər (2, s.35).

Tədqiqatçılara görə, "Adəmlə Həvvanın cənnətdə təsviri Cavidin öz gözəlliyi və füsunkarlığı ilə seçilən təbiətə marağının təsdiqidir. Nə qədər inandırıcı, yaradıcı və İlahi sevgi ilə yoğrulan bir təsvirdir. Bu təsvir o qədər təbii və canlıdır ki, Cavid cənnəti görüb gəlmiş adam təsiri bağışlayır" (19, s.21). "Bu cəhətdən mütəfəkkir şairin fəlsəfi-estetik və mifoloji dünyagörüşünün formalaşmasında Şərq, İslam dəyərləri əhəmiyyətli rol oynamışdır. Mifoloji və İslam dünyagörüşünün qovuşması H.Cavid yaradıcılığında aparıcı mövzu və ideya mənbəyinə çevrilmişdir" (16, s.5).

Burada mənəviyyat məsələsi və gözəlliyin təsviri var. Bir çox mələyin yanında mələklərdən olmayan, yalnızca insan olaraq yaradılan Adəm və Həvva tamamilə mələklərin əhatəsindədirlər. Elə bu səbəbdən də Adəm və Həvvanın əvvəlcədən mələklərdən seçilmədikləri çox təbidiir. Təəssüf ki, onlar İblisə uymaqla gözəl və təmiz olan hər şeydən əbədilik olaraq məhrum qaldılar. Cənnətin tamamən saf, təmiz, məsum olan belə layiqli sakinləri əsl ismət və ləyaqətlərini təsdiq edə bilməkdə qarşılarındakı çətinliklərdən keçə bilmədilər. Çünki insan gözəlliyinin ovsunlu cazibəsi o qədər möhtəşəmliklə güclü çıxdı ki, bu gözəllik Adəmin ağıllı davranmasına, hisslərinə hökm edə bilməsinə imkan vermədi. Sonrakı peşmançılıq da heç zaman və heç bir yerdə fayda gətirmədiyindən Adəm və Həvva cənnətdən qovulmuş oldular.

Yəni, qəsdən edilməyən bir günah bağışlanır. Günahlarla dolu olan insan həyatında Adəmin aldanması ilə yanaşı, Həvvanın da onunla münasibətindən qaynaqlanan sevgisi ortada açıqca görünməkdədir. Bu günahların mənbəyində insan və onun həyat

sevgisi dayanır. Adəm və Həvva cənnətdən qovulduqda elə bu hisslərin qurbanı oldular, İlahi məkanı isə əbədilik itirmiş oldular:

Əmin ol, nerdə nəfs olmuşsa hakim:
Həqiqi eşqi məhv etmiş məzalim,
Kimin ülviysə ruhu, söz onundur,
Əsiri-nəfs olan daim zəbundur (2, s.36-37).

Allahu-Təala insanın qəlbindəki xislətinə görə onun qismətini qarşısına çıxarır. Adəm ülviyyətin içində qala bilmədi və İlahi gözəllikdən məmnun qalmadı. O, həmişə ətrafda olanlara can atırdı, elə ona görə də cəzasız qalmadı. İnsanın qəlbi Allah nuru ilə dolmayanda dünya da onun üçün qaranlıq qalır. Qurani-Kərimdə deyilir ki, “Allah onların nurunu aldı və onları zülmət içində qoydu, onlar görə bilmədi” (14, 2-17).

“Hubuti- Adəm” şeirində Adəm və Həvvanın cənnəti tərk etməsinə səbəb olan amillərdən birinin məhz İblis olduğu nəzərdən qaçırılmamalıdır. O vaxtdan bəri İblis dünyadakı xaosun günahkarı olmaqla qalmayıb, bəşəriyyətə fəlakət gətirməkdədir. “Allah ilk insanları - Adəmi və Həvvanı cənnətdə yerləşdirdi. İblis isə onları qadağan olunan ağacın meyvəsindən dadmağa təhrik etdi. Müsəlman mifologiyasının əsas süjetlərindən biri də elə burdan başlanır” (1, s.88). İblis özünün “fəzilətini” sübut etməyə çalışmaqla insan da daim öz sadəlövhlüyü üzündən əziyyət çəkəcəkdir. Şeirdə Adəm və Həvvanın göydən qovulmasının və Adəmin yerə atılmasının əsasını qoyan İblis sonradan Cavidin “İblis” faciəsində daha çox fəlakətlər mənbəyi olan obraz kimi meydana çıxdı. “Bizcə, “İblis insanın içindədir” qənaətinin dərin kök atmasına ancaq bir obyektiv səbəb ola bilər. Bu da ondan ibarətdir ki, iblisanəlik həqiqətən müəyyən insanların canına, qanına keçir. Və bu naqis cəhətlər, xüsusiyyətlər həmin insanların vasitəsilə genetik olaraq da yeni nəslə ötürülür” (18, s.18).

“Hubuti-Adəm” şeirində Adəm və Həvvanın cənnəti tərk etməsinə səbəb olan amillərdən birinin məhz İblis olduğu hesab edilsə də, tədqiqatçılara görə, günəş işığı qədər aydın olan

problem isə məhz ülvi-insani eşqin təcəssümüdür. Əslində Adəm və Həvvanın bir-birinə olan sevgisi, ülvi-insani eşqi İlahi sevgidən fərqli olan insan sevgisidir. Onların cənnətdən ayrılmasının əsasını məhz bu təşkil edir (18, s.29). Bunun səbəblərini necə bilmək olar ki... Çünki Allahdan uzaqlaşan insan tez-tez şeytanın İblisin əsiri olur. "Ən böyük ideal Allahı ehtiva etmək deyil, Allah duyğusu ilə ehtiva olunmaq, O-na tapınmaq, Ona sığınmaqdır. Allahı təbiətdə və insanın qəlbində axtaranlar da var. Əlbəttə, hər şeydə Onun nişanəsini görmək olar. Yaradılmış olan ən azı Yaradanın iradəsinin məhsuludur. Lakin məqsəd Onu özündə tapmaq deyil, özünü Onda itirmək, dəryanın damlası olmaqla sonsuzluğa qovuşmaqdır. Qalxaraq ruh aləminə qovuşmaq, vəhy məqamına çatmaq, özünün Haqq olduğunu deyil, Haqqa qovuşduğunu, Onun bir parçasına çevrildiyini anlamaq, duymaq-budur böyük səadət, budur kam almaq və budur kamala çatmaq!" (18, s.48).

Deməli, "Cavidin ümumbəşəri mətləblərə müraciət etməsi, adilikdən uzaqlaşıb qutsallığa can atması Tanrı obrazının fəallığını şərtləndirir. Cavid Tanrını dünya ilə eyniləşdirmir, onu hər şeydən uca tutur, Tanrını göylərdən yerə endirmir, əksinə, insanların kamilləşərək Tanrı dərgahına yüksələ bilməsi ideyasını ortaya qoyur" (15, s.89). "Müsəlman dini mifolojı sistemində aparıcı olan Allah kainatın yaradıcısıdır: yeri, göyü, suyu, torpağı O yaradıbdır" (1, s.88). Həqiqətən də "mütəfəkkir şair və dramaturq Hüseyn Cavidin həm həyatının əsas qayəsi, həm də bütün yaradıcılığının aparıcı motivi Ulu Tanrı və insan münasibətlərinin məcmusudur. Allah insanı nə üçün yaratdı və onun Yer üzündə rolu nədən ibarətdir? Öz nurundan verib şərəfləndirdiyi insan onu daim azdırmaq, çaşdırmaq istəyən İblisə hansı böyük əməlləri ilə qalib gələ bilər? Bu suallara cavab onun bütün əsərlərində aydın görünməkdədir (19, s.131).

Birinci Dünya müharibəsinin başlanması, qanlı gedişatı və sonda gətirdiyi fəlakətlər törədən nəticələri belə bir əsərin ortaya qoyulması üçün əsas oldu. Hüseyn Cavid 1918-ci ildə "İblis"

faciəsini yazmış və bir növ dahiyanə şəkildə nəhəng şər obrazını yaradaraq, onun bəşəriyyətə qarşı yönəlmiş mənfur niyyət və vəhşiliklərinin zirvəsini kəşf etmişdir. Ədəbiyyat tariximizdəki faciənin rolu və əhəmiyyəti bununla bitmir, eyni zamanda insan ləyaqətinin iblisləşməsi və insanın törətdiyi faciələr əsərdə öz bədii həllini tapmışdır. “Əlbəttə, insan və İblis qarşılaşmasının daha geniş mənzərəsini “İblis” faciəsində görürük“ (11, s.33). “Cavidin “İblis” əsəri XX əsr Azərbaycan romantizmində mifoloji obrazın baş qəhrəmana çevrilməsinin ən bariz nümunəsidir” (8, s.247).

Şair, dramaturq Cavid bədii təxəyyülündə İblisə münasibətində insanı və onun ilahi missiyasını yenidən sınağa çəkir. Burada o, “Şərqin hüdudlarından çox kənara çıxır. Bu da Cavidin zəngin dünyagörüşünə, əhatəli məlumata malik olduğunu göstərir” (17, s.79). Çünki rəhmsiz, vicdansız olan İblis xarakterli insanlar da elə fəlakətlər törətməkdə, dağıtmaqda, viran qoymaqda, göz yaşlarından həzz almaqda İblislə yol yoldaşıdır. “İblis” faciəsinin kamil səviyyədə, yüksək bədii formada yazılmasının və böyük şöhrət qazanmasının səbəbi də məhz “sənətkarın həyata və ədəbiyyata baxışlarının doğru və düzgün olması ilə şərtlənir. Ona görə də mifoloji İblis obrazına müraciət və “İblis” adlı faciənin yaranması Cavidin ağlına təsadüfən gəlməyib” (19, s.131).

Mifolojidə İblislə həmişə üz-üzə gələn, şübhəsiz ki, Mələkdir. Məhz bu mifik obrazların görüşündən Hüseyn Cavidin yaradıcılığında bu mifik obrazları qarşılaşdırır. Bununla da həm İblisin, həm də Mələyin hansı vəzifələrin icraçısı olduqları tam aydınlığı ilə ortaya gətirilir. İblis insanları sürüklədiyi müharibələrin, fəlakətlərin və sarsıntıların başlıca günahkarı olduğunu isbatlayır. Digər tərəfdə isə Mələk ondan tamamilə fərqli bir düşüncəyə sahibdir. O, gördüklərindən, bildiklərindən ortaya çıxardığı əsl həqiqəti söyləyir, bununla da, insanlığın başına gəlmiş və gələcək fəlakətlərin səbəbini göstərmək istəyir. Bir az sonra “İblisəmi uymuş bəşəriyyət!?” sualı bütün güman və şübhələr-

dən təmizlənir. Həmişə haqqın və həqiqətin tərəfin də olan Mələyin qətiyyətli fikri eşidilir. Bu qətiyyətli fikrə görə, müharibə siyasəti-dəhşət və fəlakətlər məhz İblisin adı ilə bağlıdır" (7, s.171).

Şübhəsiz ki, Hüseyn Cavidin ruhunun əsası İslam dini, "Qurani-Kərim" hikmətidir. Bu baxımdan bunlar hamısı şairin romantik ideal axtarışına, həyatına və xarakterinə uyğun gəldi. "Qurani-Kərim"də bu məsələ çox aydın şəkildə işıqlandırılır və göstərilir ki, İblis əlbəttə, insanların qəlbinə yol tapa bilər, amma yalnız o insanların ki, onların qəlbində müqəddəslik duyğusu, Allah eşqi yoxdur. Allah eşqi olan yerə İblis yaxın düşə bilməz (18, s.20).

Lakin faciənin əsas aparıcı xəttində İblislə Mələyin arasındakı ziddiyyətlər əsas götürülmür, İblis sanki göylərdən yerə-insanlar içərisinə endirilir və bəşər övladı ilə qarşılaşdırılır. İblis mifik örtüyünü ört-basdır etsə də, qılığını- qiyafətini dəyişdirsə də, o, yenə də Şərin simvolu olub, insanla oyuncaq kimi davranmaqdan geri qalmır, özünü qüvvət və qüdrət sahibi saymaq istərkən, Allahın qüdrəti qarşısında "gücünü" qorumuş kimi təkəbbürlülüyünü gizlətməkdən geri durmur.

Cavidin "İblis" faciəsindəki hadisələr Şərq aləmində baş versə də, bu əsəri təkcə Şərq aləminə aid etmək düzgün olmazdı, çünki əsərdə ümumbəşəri ideyalar əks olunmuşdur. Əsərin qəhrəmanı "İblis təkcə Şərqin yaratdığı İblis deyil, bu İblis ümumbəşəri bir İblisdir (5, s.101). Ona görə də əbəs deyildir ki, burada əsas cəhətlərdən "biri insanı dəyişdirib şər əmələ qoşmaq istəyən İblisin özünün zahirən dəyişməsi, böyük ustalıqla cilddən-cildə girməsidir. Bu məsələdə də Cavid, təbii ki, mifoloji düşüncəyə əsaslanır. Romantik sənətkar nəzərə alır ki, mifdə demonik obrazlar hər şeyə qadir varlıqlar kimi təqdim olunur" (10, s.165).

Tədqiqatçılara görə, "danılmazdır ki, romantizmin obrazlar sistemində mifologiyaya maraq daha geniş yer tutur və realizmin obrazlar sistemindən ciddi şəkildə fərqlənir" (7, s.338). Ona görə də İblis lovğalıqla ona tən ola biləcək rəqibinin isə yal-

nızca Allah olduğunu söyləyir. Halbuki elə İblis və iblisliyə qarşı da klassik poeziyamızın ideoloji və məna dünyasını formalaşdıran müqəddəslik xüsusiyyətlərində Allah əbədidir, zaman və məkan xaricindədir; Allah hər yerdədir, hər şeyi görür; Allah hər şeyi bilir. O, sonsuz biliklərin daşıyıcısıdır. Allah hökm və qərar verəndir. "Allah duyğusu olmayan qəlbdə İblis üçün böyük meydan açılır. Amma H.Cavidin məqsədi də elə bundan ibarətdir ki, insanları ilahi eşqə, müqəddəslik duyğusuna səsləsin və bununla da, insanı naqis mühitin fövqünə qaldırsın; insan nə öz içərisində, nə də mühitində, cəmiyyətdə İblisə yer qoymasın" (18, s.20).

Bu əsərin ilk romantik mühitində "İblis də romantik obrazdır, Mələk də" (5, s.101). Yaşar Qarayevə görə, insanlığa aydın olan odur ki, "İblis çox ağıllıdır, amma ürəyi yoxdur" (13, s.176). Lakin İblis insanların daxili aləminə çox dərindən bələd olan birisidir. O, kimsədən çəkinmir, aşkarca İbliscəsinə öz mövqeyində hərəkət etməkdədir və incə zövqə, həssas, saf, təmiz qəlbə malik, ədalətli- haqsevər insanları nə vaxtsa yolundan sarpdıra biləcəyində israrlıdır. İblis mərhəmətlini zalıma, aqili nadana çevirməkdə, rəngarəng səhnələr yaratmaqda ustalıqla öz yolunda itəliləməkdə və heç zaman, heç bir yerdə dayanmamaqdadır. Onun xoş niyyətlə atılan addımını saymağa belə ehtiyac yoxdur və olmayacaqdır. Bu, İblisin həyat manifestidir: insanların səadətinə yol verməmək, kinayəli çılğın qəhqəhələrlə onlara gülmək, riyakarlığı, ikiüzlülüyü alqışlamaq və aşılamaq.

Min cür hiylə quran İblis yalnız diriləri yox, həm də ölüləri əlində oyuncağa döndərə bilir. Ölülər qol götürüb İblisin çaldırdığı həzin havaya oynamağa başlayırlar. "Ümumiyyətlə, Hüseyn Cavidin yaradıcılığı bənzərsiz sənətkarlıq xüsusiyyətlərinə malikdir. Orijinal sənətkarlıq xüsusiyyətləri Cavid sənətinin təkrarsızlığını müəyyən edir" (9, s.379).

Beləliklə də, romantik bir sənətkar kimi, Cavidin folklora-mifoloji dini inanclara olan tükənməz sevgisinin təzahürü aydınlıqla görünməkdədir. Çünki istər ayrılıqda hər bir fərdə - insana,

istərsə də, ümumiyyətlə, bəşəriyyətə münasibətində mifoloji obrazlar Azərbaycan romantizminin xüsusiyyətlərini, poetikasının orijinallığını üzə çıxarmaq üçün əsas vasitələrdən biridir. Ona görə də Cavidi narahat edən ən vacib məsələ mənəvi yüksəlişə-təmizlənmə, saflaşma, İlahi ruha sahib olmaq məsələsidir. Onun qəhrəmanlarının mənəvi yüksəlişi daha çox sevgi ilə, İlahi eşqlə bağlıdır. Lakin daimi yeri yalnız insanlar arasında olacaq İblis isə öz çirkin niyyətlərini həyata keçirməklə məşğul olduğundan, şərin simvolu kimi, bütün dünyanın yaradılışının nizamını pozmaqdan geri durmur. O, bitib tükənməyəcək istəyinin nəticəsi kimi, hər addımda insan övladının arzusunun qarşısında sədd olub, onu öz əsirinə çevirmək, onu məğlub, puç görmək istəyir. Cavid qəhrəmanlarının mənəvi yüksəlişi daha çox sevgi ilə- İlahi eşqlə bağlıdır. Mövcud quruluşda hakim olan riyakarlığı, ikiüzlülüyü yalnız İblis açа bilərdi. Dünya ədəbiyyat dahiləri ilə bir sırada adı çəkilən Cavid sənətkar gücü ilə millətin tərəqqisi və nicatı üçün  çıxış yolunu göstərməyə çalışmlşdır.

## ƏDƏBİYYAT


1. Bəkirqızı Pərvanə. Mifopoetika və XX əsr Azərbaycan ədəbiyyatının poetik strukturu. Bakı: Elm və təhsil, 2015. 248 s.
2. Cavid Hüseyn. Əsərləri. 5 cilddə. I cild. Tərtib edəni: Turan Cavid. Redaktoru: Teymur Kərimli. Çapa hazırlayanı: Gülbəniz Babaxanlı. Bakı: Elm, 2007. 297 s.
3. Elçin.  Cavid intiqami- Hüseyn Cavid haqqinda bir neçə söz. Ədəbiyyat qəzeti, 22 oktyabr 2022
4. Əhmədov Bədirxan. XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər istiqamətlər, problemlər. Bakı., Elm və təhsil, 2015, 552 s.
5. Əliyeva Dilarə. Ədəbiyyatda İblis obrazı (Hüseyn Cavid və Bayronun yaradıcılığı əsasında). “Hüseyn Cavid əsərlərinin gənc nəslin tərbiyəsində rolu”. Respublika elmi konfransının materialları. Bakı, 23 oktyabr, 2015, 148 s. (s.100-104)

6. Əliyev Kamran. Ədəbiyyat tarixinə bir baxış. Bakı., “Elm və təhsil”, 2013, 302 s.
7. Əliyev Kamran. Hüseyn Cavid. (Əsərləri, 10 cilddə, III cild). Bakı, “Elm və təhsil”, 2018, 456 s.
8. Əliyeva Gülşən-Kəngərli. Azərbaycan füzulişünaslığı. Bakı, Çaşıoğlu. 2007
9. Həbibbəyli İsa. Hüseyn Cavid və sənəti. Əsərləri. 10 cilddə. Bakı., “Elm və təhsil”, II cild, 2017
10. Kazımoğlu Muxtar. Folklorda obrazın ikiləşməsi. Bakı: Elm, 2011, 228 s.
11. Kazımoğlu Muxtar (İmanov). Portretlər. Bakı: “Nurlan”, 2013, 184 s.
12. Məmmədli Cavidə. Hüseyn Cavidin maarifçi və ədəbi-nəzəri görüşləri. Bakı, Mütərcim, 2013
13. Qarayev Yaşar. Seçilmiş əsərləri, I cild., Bakı: “Elm”, 2015. 466 s.
14. *Qurani Kərim. Azərbaycan dilində* manaca tərcüməsi kral Abdellah.Bakı: 2020. 914 s.
15. Sultanova Xanım. XX yüzil Azərbaycan poeziyasinda mifopoetik ənənə. Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2022. 314 s.
16. Sultanova Xanım. XX yüzil Azərbaycan poeziyasinda mifopoetik ənənə. Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2022. 53 s.
17. Rüstəmov İzzət. Cavidşünaslıq, VI cild. Cavidin fəlsəfi irsi, Bakı, 2012. (s.76-88)
18. Xəlilov Səlahəddin. Cavid fəlsəfəsi (2-ci kitab: klassik Şərq və müasirlik). Bakı, “Nurlar” nəşriyyatı, 2009. 128 s.
19. Vəliyeva Sona. Hüseyn Cavid sənətinin qüdrəti”. Bakı, “Zərdabi LTD” MMC, 2018, 328 s.

**Əpoş VƏLİYEV**
*AMEA Folklor İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru*
*elyarvelisoy@mail.ru*

## HÜSEYN CAVİD VƏ XALQ YARADICILIĞI

**Xülasə**

Hüseyn Cavid 20-ci əsrin əvvəllərində görkəmli Azərbaycan şairi və dramaturqu idi. O, çağdaş Azərbaycan ədəbiyyatında mütərəqqi romantizm cərəyanının banilərindən olub. Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları üslub, yazı ədası forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaradır. Onun əsərləri folklorla zəngindir.

**Açar sözlər:** Hüseyn Cavid, Azərbaycan ədəbiyyatı, folklor, xalq yaradıcılığı, şair

## HUSEYN JAVİD AND FOLK CREATİVİTY

**Summary**

Huseyn Javid was a prominent Azerbaijani poet and playwright of the early 20th century. He was one of the founders of progressive romanticism movement in the contemporary Azerbaijani literature. His philosophical and epic tragedies, and family dramas introduce a new line of development in Azerbaijani literature. His works are rich in folklore.

**Key words:** Huseyn Javid, Azerbaijani literature, folklore, folk creativity, poet

## ГУСЕЙН ДЖАВИД И НАРОДНОЕ ТВОРЧЕСТВО

**Резюме**

Гусейн Джавид был выдающимся азербайджанским

поэтом и драматургом начала 20 века. Он был одним из основоположников течения прогрессивного романтизма в современной азербайджанской литературе. Его философо-эпические трагедии, семейные драмы вводят новую линию развития в азербайджанскую литературу. Его произведения богаты фольклором.

**Ключевые слова:** Гусейн Джавид, азербайджанская литература, фольклор, народное творчество, поэт

Folklorun tükənməz, zəngin söz xəzinəsindən, xalq yaradıcılığı nümunələrindən yazılı ədəbiyyat öz inkişafının bütün mərhələlərində bəhrələnmişdir. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir şair Hüseyn Cavid də xalq ədəbiyyatından, xalqın yaratdığı örnəklərdən bəhrələnərək səmərəli şəkildə öz yaradıcılığında istifadə etmiş, həmin nümunələrin gələcək nəslə çatdırılmasına öz töhfəsini vermiş bir sənətkardır. Onun Abdulla Şaiqlə birgə yazdığı "Ədəbiyyat dərsləri" kitabı 1919-cu ildə çap olunmuşdur. Müəlliflər həmin kitabda xalq ədəbiyyatının xüsusiyyətlərindən, necə yaranmasından, xalq ədəbiyyatı və yazılı ədəbiyyatın əlaqəsindən, xalq yaradıcılığı nümunələrinin yazılı ədəbiyyata keçməsindən bəhs etmişlər. Onlar yazır: "El ədəbiyyatının əksəri pək əski zamanlardan bəhs edər. Və bizə ulu babalarımızdan bir payan söylər. El ata-baba mirası kibi tanıdıqları bu ədəbiyyatı sevə-sevə hafizəsində saxlar və nəhayət, artıq ağızlarda az söylənməyə başladıqdan get-gedə zəifləyərək mövqeyini yazı ədəbiyyatına tərk edər" (3, s.70).

Böyük fəlsəfi düşüncəyə sahib olan Hüseyn Cavid mənsub olduğu xalqın milli-mənəvi dəyərlərini, adət-ənənələrini, ümumilikdə folklorunu dərindən öyrənmiş, mənimsəmiş və bütün yaradıcılığı boyu həmin nümunələri yerli-yerində istifadə edərək öz əsərlərinin zənginliyini və oxunaqlığını daha da artırmışdır. Elə ona görə də onun əsərlərində xalq ruhu duyulur. Cavidin bir çox misraları dillər əzbəri olmuş, zərb-məsələ, hikmətli ifadəyə çevrilərək müasir dövrümüzdə də xalq arasında işlədilir:

“Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü” (8, s.18).

***

“Kimsədən gözləmə yardım əsla;
Yalnız kəndinə kəndin ağla!” (8, s.63).

***

“Mən bir türkəm, dinim, cinsim uludur;
Sinəm, özüm atəş ilə doludur” (8, s.78).

***

“Zalimlə məzlumu, saqın, bir tutma,
Yediyin əkməyi, duzu unutma!” (8, s.137).

***

“Ölüm varki həyat qədər dəyərli,
Həyat var ki, ölümdən də zəhərli” (8, s.237).

Qədim nağıllarımızda, dastanlarımızda gözəl müdrik kəlamlar, hikmətli sözlər, atalar sözləri və məsəllər işlənmişdir. Şifahi xalq ədəbiyyatının qədim abidələrindən olan “Kitabi-Dədə Qorqud”da da çoxlu müdrik kəlamlar, hikmətli sözlər, atalar sözü və məsəllər vardır: “Kül təpəcik olmaz”, “Qarı düşmən dost olmaz”, “Çıxan can geri dönməz”, “Əski bambıq bez olmaz”, “Baba malından nə fayda, başda dövlət olmasa” və s. (1, s.136).

Dahi şair Hüseyn Cavidin həm mənzum və mənsur dramları, həm də lirik, lirik-epik şeirləri atalar sözləri, məsəllər, aforizmlər, xalq hikməti ilə çox zəngindir. Hüseyn Cavid atalar sözləri, məsəllər, aforizmlər və digər xalq yaradıcılığı nümunələrini ya olduğu kimi, ya da formaca və məzmunca dəyişərək istifadə edir, əsərin mövzusuna uyğunlaşdırır. Həmin xalq yaradıcılığı nümunələri qəhrəmanlığı, vətən sevgisini, əməksevərliyi, sülhü, insanlara hörmət, qayğı və sevgini təbliğ edir. Bununla da dahi şairin əsərlərini həm daha oxunaqlı, həm də zəngin və ölməz edir.

“Şeyx Sənan” faciəsi geniş mənada Azərbaycan dramaturgiyasının şah əsərlərindən biridir. Bu əsər Cavidin romantik dramlarının zirvəsində dayanır. “Şeyx Sənan” mənzum faciəsi (1914) dini-əfsanəvi şəxsiyyət olan Sənanın məhəbbət macərası

əsasında insan mənəvi ucalığı haqqında yazılmış dramatik üvertura təsiri bağışlayır. Cavid bu əsərində əsl eşqin dini etiqad üzərindəki təntənəsini, bütün buxovları dağıtmaq qüdrətini nümayiş etdirmişdir (9).

Dahi şair atalar sözlərindən, hikmətli kəlamlardan, məsəllərdən "Şeyx Sənan" faciəsində də istifadə edib. Bəzən bu ifadələri olduğu kimi saxlayıb, bəzən də onlara poetik əlavələr edərək öz əsərini daha da oxunaqlı etmiş, zənginləşdirmişdir. Məsələn:

Şübhəsiz, var cəzası hər əməlin,
Hiç zərər yoq, cəzasıdır çəksin (4, s.111).

***

Bəncə fürsət qanatlı bir quşdur,
Kim ki, əldən uçursa, sərxoşdur (4, s.181).

Bir çox hallarda atalar sözləri, hikmətli sözlər, məsəllər Hüseyn Cavidin əsərlərində olduğu kimi də işlədilib. Məsələn:

Pək gerçək,
Gedəlim, haydı, yolçu yolda gərək (4, s.138).

***

Xayır, bu hiç olmaz,
Güclü gücsüzdən intiqam almaz (4, s.182).

"Kişinin sözü bir olar" (2) məsəli el arasında çox işlənir, gündəlik məişətimizdə bu ifadə ilə tez-tez rastlaşırıq. Bu məsəl ilə sözündən dönənlər, yalan danışanlar, sözünə sahib çıxa bilməyənlər, əhdinə sadiq olmayanlar qınanılır, tərbiyə edilir. Hüseyn Cavid həmin məsəlin mənasını saxlamaqla, onu formaca dəyişmiş və "Ana" dramında istifadə etmişdir:

Ər kişidə olur bir söz, bir məram.
Əzm eylədim, məhv olsa aləm tamam (4, s.39).

"Çoban türküsü" şeiri qoşma formasındadır. Bu şeirdə yarının həsrətindən qovrulan, onun sevgi atəşi ilə yanan Aşiqin iztirabı, əziyyəti və yanğısı göstərilir. Şeirdə xalq ədəbiyyatında işlənən "Tərlan yerin sar tutmaz" məsəli həm heca, həm də qafiyələrə uyğunlaşdırılaraq olduğu kimi verilir:

Məcnun könül Leylasını unutmaz,

Başqa bir gözəl dərdimi uyutmaz,
Bir məsəldir: "Tərlan yerin sar tutmaz!"
Yar-yar deyib gecə-gündüz ağlaram (8, s.67).

Xalq arasında tez-tez işlənən ən məşhur məsəllərdən biri də "Daldan atılan daş topuğa dəyər" şəklindədir (2). Həmin məsəldə sonrakı peşmançılıq, gecikmiş qərar, zamanında atılmayan addım bir növ qınanılır. Bu məsəli də dahi Hüseyn Cavid elə olduğu kimi "Ana" dramında istifadə edir:

Mərd atalar bir məsəl söyləmişlər,
"Daldan atılan daş topuğa dəyər" (4, s.35).

İnsan şüurlu fəaliyyətində daim xeyir və şərlə qarşılaşmalı olmuşdur. Xeyir və şər anlayışının yaranması ilə erkən təsəvvürlərdə xeyri alqışlamaq, şəri isə qarğışlamaq anlayışı da yaranmışdır. Arzulamaq, bəyənmək mənasında başa düşülən "alqış"ın mənası alqışlama - xoş söz, qırmızı sözlə bağlı olmuşdur. Xeyirin əksi şərdir. Xeyiri alqışlayan insan şəri pisləməklə qarğış yaratmışdır (10).

Hüseyn Cavidin əsərləri ağız ədəbiyyatının ən çox işlənən, bəyənilən, gündəlik məişətimizdə, xüsusilə də toy mərasimlərində çox istifadə olunan alqışlarla da zəngindir.

Sana, yavrum, Xuda əcir versin (4, s.124).

***

Gəl, utanma, hifz etsin sizi Tanrım;
Gəl, öpəyim səni, gəl, quzum, yavrum! (4, s.30)

***

Gül rəngin afət görməsin, solmasın!
İsmət! Hiç bir günüm sənsiz olmasın! (4, s.30)

Qanpolad bunsuz, bu onsuz olmasın!
Allah bir-birindən ayrı salmasın! (4, s.35)

***

Hər bəladan saqlasın sizi Tanrım!
Söylə, nə müjdə istərsin, arslanım? (4, s.40)

***

Var olun!
Biz saraylarda deyil, hər ikimiz
Xalqa xidmət diləriz (6, s.15).

Qarğışlar xalq arasındakı ictimai hadisələrlə bağlıdır. Qarğışlarda xalqın qanlı-qadalı keçmişi, sosial yaşayış tərzi öz əksini tapmışdır. Bir neçə nümunəyə diqqət edək: ”Elin-oban yarımasın”, “Soyuna yağı dadansın”, “Düşmənin el-obasında başıpapaqlı tapılmasın”, “Yağı gələn yollara daş yağsın”, “Namərdin tufağı dağılsın”, “Yağının yığdığı ellərə qalsın”, “Yağının yurdunda canavar ulasın”, “Yağının ulusundan vay-şüvən əskik olmasın”, “Yağıya allah qənim olsun”, ”Dava istəyənin damı başına uçsun”, “Ruzuya toxunanın balası mələr qalsın”, “Çörək kəsənin, çörəyi kəsilsin” və s. kimi qarğışlar ictimai xarakter daşıyır. Ürəkağrısı ilə deyilmiş bu kəlamların arxasında nə qədər qanlı-qadalı hadisələrin şəhadətnaməsi dayanır (7, s.170-180).

Hüseyn Cavidin əsərlərində qarğışlara da rast gəlirik. Xüsusilə də qadın obrazların dili ilə deyilmiş qarğışlar ağız ədəbiyyatının ilkin janrlarından biri kimi çox yayılmış, müasir dövrümüzdə də çarəsiz insanlar tərəfindən gündəlik məişətdə istifadə edilir. Məsələn:

Allah İsməti öldürsün!.. (4, s.24)

***

Yazıq Orxan! Billah yazıqlar olsun,
Sən bir yigitsin, sana çoq ar olsun! (4, s.18)

Andlar ağız ədəbiyyatının ən qədim janrlarından biridir. Andlar insanların müqəddəs hesab etdiyi varlıqlara inamı ilə bağlı olaraq yaranıb. İnsanlar yerə, göyə, suya, oda, atəşə, Günəşə, Aya müqəddəs varlıq kimi baxmağa başladığı zamandan ilk andlar da yaranmağa başlamışdır: “Gün haqqı”, “Torpaq haqqı”, “İşıq haqqı”, “Su haqqı” və s. İnsanın təsəvvürünün hüdudları genişləndikcə valideynlər və əziz adamlarla bağlı andlar yaranmışdır: “Atamın canı üçün”, “And alsun anamın canına”, “Balamın canına and olsun” və s. Dini təsəvvürlərin insanların şifahi yaradıcılığında hökmran mövqe tutması ilə əlaqədar and-

lar da yaranmışdır: “Allaha and olsun”, “Peyğəmbər haqqı”, “Əli yolu haqqı”, “Məzhəb haqqı” və s. (11).

Müşahidələr əsasında aydın olur ki, Hüseyn Cavid əsərlərində andlara da geniş yer vermiş, yeri gəldikcə onlardan istifadə etmişdir. Bunumla da həmin andların öz əsərlərində yaşamasına, qorunmasına nail olmuşdur. Onun yaradıcılığı ilə tanış olduqda obrazların dili ilə verilmiş, gündəlik məişətimizdə istifadə olunan çoxsaylı andlara rast gəlirik. Məsələn:

Billah, məhv olursun... (4, s.18)

***

Allahın sevərsən, çıq get bir yana! (4, s.24)

***

Söylə, İsmət, söylə ki: vallah, billah,
Bu xəncərdən hiç xəbərim yoq bənim,
Həm də kimindir bilməm əsla... (4, s.27).

***

Vasif! Allahı sevərsən də bıraq! (5, s.33)

Hüseyn Cavidin əsərlərindən seçib göstərdiyimiz nümunələrdən aydın olur ki, dahi şair bütün yaradıcılığı boyu folklordan, xalq yaradıcılığından, ağız ədəbiyyatından səmərəli şəkildə bəhrələnmişdir. Onun əsərləri atalar sözləri, zərb-məsəllər, andlar, alqışlar, qarğışlar, hikmətli ifadələr və digər xalq yaradıcılığı nümunələrilə çox zəngindir. Hüseyn Cavid istifadə etdiyi xalq yaradıcılığı nümunələrini bəzən formaca dəyişməklə, poetik əlavələr etməklə yaddaqalan etmiş, həm də onlara yeni nəfəs gətirmişdir. Bununla da onun əsərləri xalq yaradıcılığı nümunələrilə zənginləşmiş, həm də həmin nümunələr onun əsərlərində qorunub saxlanmışdır. Bütün deyilənlərdən aydın olur ki, Hüseyn Cavid yaradıcılığı xalq yaradıcılığı ilə sıx bağlıdır.

## ƏDƏBİYYAT

1. İ.Ə.Babayev, P.Ş.Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: “Maarif”, 1970, 263 s.

2. Əpoş İslam oğlu Vəliyevin şəxsi arxivindəki Naxçıvan MR-dan topladığı folklor nümunələrindən.
3. Hüseyn Cavid. Abdulla Şaiq. Ədəbiyyat dərsləri. Bakı, 1919, 134 s.
4. Hüseyin Cavid. Əsərləri. Beş cilddə. II cild. Bakı, "Lider nəşriyyat", 2005, 352 s.
5. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. III cild. Bakı, "Lider nəşriyyat", 2005, 304 s.
6. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. IV cild. Bakı, "Lider nəşriyyat", 2005, 256 s.
7. Xalqımızın deyimləri və duyumları. (II nəşri), Tərt. ed. M.Həkimov, Bakı: "Maarif", 1986, 384 s.
8. Kamran Əliyev. Hüseyn Cavid. (Əsərləri 10 cilddə, III cild). Bakı, "Elm və təhsil" 2018, 456 s.
9. https://az.wikipedia.org/wiki/Hüseyn_Cavid
10. https://www.azerbaijans.com/content_111_az.html
11. https://www.azerbaijans.com/content_112_az.html

**Gülnar OSMANOVA**
*AMEA Folklor İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru*
*gulnar.osmanova05@gmail.com*

# HÜSEYN CAVİDİN "TOPAL TEYMUR" ƏSƏRİNDƏ TARİXİ MÖVZU VƏ MÜASİR İDEYA

**Xülasə**

Dahi şair-dramaturq Hüseyn Cavidin yaradıcılığında insan haqları, məfkurə, ideal həmişə əsas yer tutmuşdur. O, bütün fəaliyyəti boyu böyük ideyaları təbliğ etmiş, dəyərlərimizə, xalqımızın mədəniyyətinə sədaqət nümayiş etdirmişdir. Buna görə də onun bədii irsi həmişə yeni söz, yeni fikir deməkdir. Tarixdə şəxsiyyətlərin rolu problemi də H.Cavidi bütün yaradıcılığı boyu düşündürmüşdür. Belə ki, "Şeyx Sənan"da və "İblis"də əsas qəhrəman olan filosof və mütəfəkkir "Topal Teymur" dramında sərkərdə və cəngavər surəti ilə əvəz olunmuşdur.

Məqalədə H.Cavidin "Topal Teymur" əsəri tarixi dramda müasirlik ideyasının təbliği kontekstində araşdırmaya cəlb olunmuşdur. Qeyd edək ki, türklərin, türk dünyasının dirçəlişi, birliyi və yüksəlişi məsələsi bu əsərdə də ön plana çəkilmişdir.

**Açar sözlər:** H.Cavid, romantizm, dram, tarixi süjet, ideya, müasirlik, mənəvi dəyərlər

# THE HISTORICAL THEME AND MODERN IDEA IN THE WORK "TOPAL TEYMUR" BY HUSEYN JAVID

**Summary**

Human rights, ideology and ideals have always occupied a central place in the work of the genius poet-dramatist Huseyn Javid. Throughout his activities, he promoted great ideas, showed loyalty to our values, the culture of our people. Therefore,

his artistic legacy always means a new word, a new idea. The problem of the role of personalities in history made H.Javid think throughout his work. Thus, the philosopher and thinker who is the main hero in “Sheikh Sanan” and “Iblis” was replaced by a military leader and a knight in the drama “Topal Teymur”.

In the article, the play “Topal Teymur” by the great playwright was investigated in the context of the promotion of the idea of modernity in historical drama. It should be noted that in this work the question of the revival, unity and exaltation of the Turks and the Turkic world is also brought to the fore.

**Key words:** H.Javid, romanticism, drama, historical plot, idea, modernity, moral values

## ИСТОРИЧЕСКАЯ ТЕМА И СОВРЕМЕННАЯ ИДЕЯ В ПРОИЗВЕДЕНИИ “ТОПАЛ ТЕЙМУР” ГУСЕЙНА ДЖАВИДА

### Резюме

Права человека, убеждения и идеалы всегда стояли на основе творчества гениального поэта-драматурга Гусейна Джавида. На протяжении всей своей деятельности, он пропагандировал высокие идеи, проявлял верность нашим ценностям, культуре нашего народа. По этому, его художественное наследие всегда означает новое слово, новую идею. Таким образом, в драме “Топал Теймур” философ и мыслитель, которые являются главными героями “Шейх Санан”а и “Иблис”а, были заменены образами полководца и рыцаря.

В статье, произведение Г.Джавида “Топал Теймур”, было привлечено к исследованию в контексте пропаганды идеи современности в исторической драме. Следует отметить, что в этом произведении на первый план выдвигается также вопрос о возрождении, единстве и возвышении тюрков и тюркского мира.

**Ключевые слова:** Г.Джавид, романтизм, драма, исторический сюжет, идея, современность, духовные ценности

Hər bir sənətkarın müraciət etdiyi mövzu, əks etdirdiyi həyat və zaman yüksək ictimai-əxlaqi idealları öz dünyagörüşü mövqeyindən ifadə etmək vasitəsidir. Buna görə də mövzu istər müasir gerçəklikdən götürülsün, istərsə də tarixi hadisə və şəxsiyyətlərdən bəhs etsin, müəllif eyni ideya-bədii məqsəd izləyir: müasir insanı düşündürən ictimai-əxlaqi məsələləri əks etdirməyə çalışır. Bu baxımdan bədii yaradıcılıqda əsas məsələ mövzunun müasirliyi və ya tarixiliyi deyil, münasibətin və mövqeyin müasirliyi və tarixiliyidir. Əsl sənətkarlar, mövzunun hansı dövrdən alınmasından asılı olmayaraq, öz məqsədlərinə məhz hadisələri müasirlik və tarixilik mövqeyindən göstərməklə nail olurlar. Onlar mövzu seçərkən tarixə müraciət etdikdə, yəni keçmişdə baş vermiş hadisələri qələmə alıb təsvir etdikdə belə, öz dövrləri üçün zəruri nəticələr çıxarır, müasir ideyalar təbliğ edirlər.

Şübhəsiz, burada yazıçının mənsub olduğu metod və cərəyanın da mühüm əhəmiyyəti vardır. Romantizmin tarixi göstərir ki, onun ən görkəmli nümayəndələri tez-tez tarixə müraciət etmiş, ən böyük şəxsiyyətlərin həyatını, qeyri-adi hadisələri, mifoloji və dini süjetləri bədii tədqiqata cəlb etmişlər. Bu cəhətdən "romantik ideallar şairi" olan Hüseyn Cavidin yaradıcılığı da çox mühüm ideya-estetik xüsusiyyətlərə malikdir. Onun istər poeziyası, istərsə də dramaturgiyası öz romantik idealları ilə həyatla bağlı olmuş, dövrünün məsələləri ilə səsləşmişdir. Deməli, əsas məqsəd müasir ideyaların ifadəsidir və bunun üçün mövzu bir vasitədir. Cavidin tarixi mövzulara müraciət etməsi də yaradıcılıq metodu ilə əlaqədar idi. Yeni ictimai gerçəkliyi romantizmin tələbləri əsasında təsvir etməkdə çətinlik çəkən Cavid tarixi hadisələrin, böyük şəxsiyyətlərin təsvirinə meyil edir və öz fikirlərini onların vasitəsilə ifadə etməyə çalışırdı (2, 162). O, həmişə müasir mövzularla həyatın adi məsələlərinə deyil, ülvi və qeyri-adi məsələlərinə toxunduğu kimi, tarixi və əfsanəvi

mövzuların işlənməsində də həmişə müasir ümumbəşəri idealları tərənnüm və təcəssüm etdirmişdir. İnqilabdan əvvəlki yaradıcılığında artıq yüksək səviyyəyə çatan bu cəhət onun sovet hakimiyyəti illərindəki yaradıcılığında da uğurla davam etdirilir. “Ana”, “Maral”, “Uçurum” xətti ilə yanaşı, “İblis” və “Şeyx Sənan” xətti də ardıcıl izlənilir. Tarixi şəxsiyyətlərdən bəhs edən “Peyğəmbər”, “Topal Teymur”, “Xəyyam” kimi əsərlər meydana çıxır. Onun əsərlərinin əsas mövzusunu Şərq tarixində vaqe olan hadisələrin təsviri təşkil etmişdir və müəllif, əksərən, şərqli mütəfəkkir, sərkərdə və hökmdarlardan ibarət tarixi-romantik səpkili surətlər yaratmışdır.

Tarixi mövzunun müasirliyin xidmətinə cəlb edilməsi “Topal Teymur” pyesi üçün də çox səciyyəvidir. Bu əsərin müəyyən sələfləri olmuşdur. Məsələn, Kristofer Marlonun “Böyük Teymurləng”, Rasininin “Bəyazid”, Harold Lembin “Teymur” və s. Azərbaycan ədəbiyyatında isə bu mövzuda ilk dramı M.S.Ordubadi 1914-1915-ci illərdə qələmə almışdır. Ədibin “Teymurləng və İldırım Bayazid” pyesində Topal Teymur idealizə edilməmiş, əsər aşiqanə-tarixi bir dram kimi yaradılmışdır. Lakin Cavidin Teymuru tarixi Teymurun özünə daha çox bənzəyirdi. O vaxtkı tənqid Cavidin tarixi mövzulara müraciət etməsini həyatdan uzaqlaşmaq adlandırsa da, obyektiv həqiqət bundan ibarətdir ki, Cavid tarixə münasibətdə müasir fikirlərini ifadə etməyə çalışırdı. Bu əsərdə də onun əvvəlki əsərləri üçün səciyyəvi olan ideya və fikirlər davam və inkişaf etdirilir. Müharibələrin və qəsbkarlığın fəlakətlər gətirdiyini, cəmiyyətin ahəngini pozduğunu “İblis” pyesində (1918) mənəviyyat aləminin təsvirində göstərən dramaturq həmin məsələləri “Topal Teymur” əsərində (1926) bilavasitə həyat materialında təqdim edir. Əgər “İblis”də “qan püskürən, atəş sovuran kinli krallar, şahlar, ulu xaqanlar, çılğın dərəbəylər” tərəfindən törədilən cinayətlər, bunun nəticəsində insanların düşdüyü fəlakətlər canlandırılsa, burada həmin fəlakətləri törədən “şahzadələrin, çılğın dərəbəylərin” konkret obrazları verilir, əsl iblislərin əməlləri əks etdirilir.

Tarixi şəxsiyyət olan Əmir Teymuru səhnəyə gətirməkdə H.Cavidin məqsədi yeni rejimin təzyiqi altında əzilməkdə olan türkçülük idealını ucaltmaq idi. O, bununla yeni hakimiyyət başçılarına türk dövlətçilik ənənələrini xatırladırdı. Professor Kamran Əliyevin təbirincə desək, "Topal Teymur" əsəri türk qüruru və türk mənlik tarixinin sadəcə olaraq bədii inikası deyil, həmçinin bədii kəşfidir. Xatırlatmaq yerinə düşər ki, "Oğuznamə"lərdə türk xaqanının əzəmətli yürüşləri, göyləri və yerləri tutmaq ehtirası, özünü cəmiyyətin fövqünə qaldırmaq inadı folklor yaradıcılığından sıyrılıb H.Cavidin timsalında yazılı ədəbiyyata keçdi. "Oğuznamə" epopeyasının Oğuz xan, Bilgə xaqan, Qazan xan kimi əfsanəvi şəxsiyyətləri Topal Teymur və Yıldırım Bəyazidlə əvəz edildi" (4, 144).

Bununla belə, Cavid romantikasının əsas xüsusiyyətlərindən biri də odur ki, böyük sənətkar yer üzündəki istismarı, haqsızlığı görür və buna qarşı özünün humanist, insanları birliyə, ülfətə, mənəvi təkamülə çağıran bəşəri məhəbbət ideyasını irəli sürürdü: "Məhəbbət! Məhəbbət!.. Əvət, bütün bəşəriyyəti xilas edəcək yalnız məhəbbətdir. Məhəbbətlə çırpınan bir çoban qəlbi, kin və ədavət püskürən bir sultan qafasından daha şərəflidir" (6, 302).

Təsadüfi deyildir ki, Cavid məhəbbəti, sevgini təkcə ideoloji, fəlsəfi bir konsepsiya kimi irəli sürmür, həm də onu özünün pənahı, əbədi qibləgahı, tanrısı hesab edirdi:

"Hər qulun cahanda bir pənahı var,
Hər əhli-halın bir qibləgahı var,
Hər kəsin bir eşqi, bir ilahı var,
Mənim tanrım gözəllikdir, sevgidir" (5, 130).

H.Cavid böyük romantik sənətkar kimi cahan savaşının, hərblərin, çaxnaşmaların törətdiyi fəlakətlərdən, bəşəriyyətin sarsıntılarından söhbət açır, insanları bunun qarşısını almağa çağırırdı. O, bütün yaradıcılığı boyu türklərin, türk dünyasının dirçəlişi, birliyi və yüksəlişi məsələsini ön plana çəkərək deyirdi:

"Turana qılıncdan daha kəskin ulu qüvvət,

Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!" (6, 27).

Yaradıcılıq ideallarının əsasında insanpərvərlik, sülh və demokratizm kimi yüksək mənəvi prinsiplər dayanan H.Cavidin despotizmə və cahangirlik ehtirasına qarşı cəsarətli etirazı və üsyankarlığı "Topal Teymur" dramında bütün kəskinliyi ilə meydana çıxmışdır. Hələ I Dünya müharibəsi illərində yazdığı "Hərb və fəlakət" (1916), "Hərb allahı qarşısında" (1917) şeirlərindəki fikirlərini dramaturq bu əsərində davam etdirmişdir. Tarixi şəxsiyyət olan Əmir Teymur əsərdə mütləq hökmranlığı təmsil edən, bütün dövlət işlərini, xalqın və ordunun gücünü öz iradəsinə birləşdirən və nüfuzu altında saxlayan müstəbid – cahangir surətidir. Teymur bir tərəfdən ölkənin həyatında böyük islahatlar aparan, elmin, maarifin inkişafına təsir göstərən ayıq və şüurlu dövlət xadimi kimi yüksəlirsə, digər tərəfdən şəxsi rəyini və iradəsini hamıdan və hər şeydən üstün sayan qəddar, hikkəli "hakimi-mütləq" kimi meydana çıxır. Teymurun fikrincə hərb – müharibə inkişafın başlanğıcıdır. O, hərbi zəfərlərin ən böyük nailiyyəti kimi, mədəniyyətin çiçəklənməsindən iftixarla danışır: "İştə məftunu olduğun şu mənzərələr, Səmərqənddəki möhtəşəm saraylar və ali mədrəsələr, böyük məbədlər və abidələr həp qalibiyyət əsərləri, həp fəth və zəfər tarixidir... Görüləcək mənzərələrin ən gözəli hərb və qalibiyyət səhnələridir" (6, 256).

Dramaturq Teymuru şərq romantizminin "hərb allahı" kimi təsvir edir, daha doğrusu, "hərb demonu"nun surətini yaradır. O, Teymurun və İldırım Bəyazidin timsalında türk tarixinin faciəsindən bəhs edir. Dünyada bir padşah olmalıdır deyən Teymura qarşı dramaturq, şair Kirmani obrazını yaratmış, müharibə və dünya ağalığı iddiası əleyhinə olan fikirlərini onun dili ilə vermişdir. Kirmaninin hərb dəhşətlərindən zövq alan Teymura və onun sərkərdələrinə dediyi sözlərə diqqət edək: "Siz cəngavərlər insan qanına hərissiniz. Sizin hərb və nərələriniz ürəkləri qoparır, insanları parçalatır, anaları ağladır. Hökmdarların hiddət və qəzəbi böyük bir məmləkəti alt-üst edir. Açıq söyləmək lazım gəlirsə, mən qan tökməkdə heç bir haqq və ədalət görmürəm" (6,

260-261).

Göründüyü kimi, Cavid bu obrazın timsalında öz estetik idealını verə bilmişdir. Dramda müsbət həyati başlanğıcın, insana məxsus təbii fitri və işıqlı keyfiyyətlərin keşiyində duran əsas qüvvə məhz şair Kirmani surətidir. O, insanlığı yüksəldə bilən mənəvi-əxlaqi amillərin mövqeyini təmsil və ifadə edir. Onunla Teymur arasında, "dünyanı və cəmiyyətin həyatını idarə etməkdə hansı qüvvənin əsaslı və gərəkli olması" xüsusunda gedən söhbətləri, nəhayət, şair belə sona yetirir: "Əgər dünyanın şanlı çarpışmaları, qanlı vuruşmaları nəticədə bir məhəbbət, fövqəlbəşər bir məhəbbət doğurmayacaqsa, bütün həyata, bütün kainata nifrətlər olsun" (6, 302). Budur şairin əsas müddəası. Bu həm də H.Cavin idealı idi:

"Şaşırıb durma böylə, bir aydın
İdeal arxasınca qoş, çırpın!
İdealsız nicat ümidi məhal...
İttihad! İştə ən böyük ideal!" (5, 54).

Beləliklə, tarixdə şəxsiyyətlərin rolu problemi H.Cavidi bütün yaradıcılığı boyu düşündürmüşdür. "Şeyx Sənan"da və "İblis"də əsas qəhrəman olan filosof və mütəfəkkir "Topal Teymur" dramında sərkərdə və cəngavər surəti ilə əvəz olunmuşdur. Lakin istər ənənəvi-tarixi, istərsə də müasir mövzulara həsr olunmuş əsərlərində o, hər şeydən əvvəl, insanın böyüklüyünü, onun həqiqət axtarışlarını, azadlıq və gözəllik uğrunda mübarizəsini göstərmək məqsədini izləmişdir. Bir sözlə, H.Cavid böyük şəxsiyyətlərin həyatını təsvir edəndə də, tarixi keçmişin hadisələrini canlandıranda da, bir ailənin fəlakətini göstərəndə, bir qəlbin sarsıntılarını üzə çıxaranda da öz ideyasına sadiq qalmışdır:

"Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü" (6, 246)

– deyən dramaturq mövzusundan asılı olmayaraq, bütün əsərlərində bir qayəni izləmişdir ki, bu da fövqəlbəşər məhəbbətdir! O, yaşadığı dövrə münasibətini əksər hallarda tarixdən götürdüyü qəhrəmanların dili ilə verərək, ümumbəşəri ideallarını

əks etdirmişdir. Onun tarixi mövzuda olan əsərlərində zəmanəsi ilə, müasir həyatla səsləşən ideyalar da çox olmuşdur. Dini təəssübkeşliyin, orta əsr zehniyyəti qalıqlarının tənqidi, köhnə adət-ənənələrin tənqidi, imperialist müharibəsi, burjua-mülkədar zülmü, köhnə əxlaq və ailə münasibətlərinə qarşı nifrət, qısqanclıq, əyyaşlıq və avamlığın tənqidi Cavid yaradıcılığında çox qüvvətlidir. Onun dramaturgiyası, bütövlükdə yaradıcılığı XX əsr Azərbaycan romantizminin ən səciyyəvi nümunəsi olmaqla yanaşı, vahid dünya romantizminin ümumi əlamətlərinə də malikdir. Beləliklə, yaratdığı möhtəşəm əsərlərlə Azərbaycan ədəbiyyatını zirvələrə qaldırmış Hüseyn Cavidin bədii irsi bütün nəsillər üçün bir həyat məktəbi, bir örnəkdir.

## ƏDƏBİYYAT


1. Cəfərov M. H.Cavid. Bakı, "Azərnəşr", 1960, 260 s.
2. Əlioğlu M. H.Cavidin romantizmi. Bakı, "Azərnəşr", 1975, 216 s.
3. Əfəndiyev E. Ədəbiyyatda tarix və müasirlik problemi. Fil.e.d. elmi dər. al. üçün təq. ed. dis. Bakı, 1998, 62 s.
4. Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı, "Elm", 2008, 324 s.
5. Hüseyn C. Əsərləri. Beş cilddə. I cild. Bakı, "Lider" nəş., 2005, 256 s.
6. Hüseyn C. Əsərləri. Beş cilddə. III cild. Bakı, "Lider" nəş., 2005, 304 s.

**Xəyalə AĞAYEVA**
*AMEA Folklor İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru*
*xeyale.eliyeva.80@list.ru*

# HÜSEYN CAVİD YARADICILIĞINDA FOLKLOR NÜMUNƏLƏRİ

## Xülasə

XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında son dərəcə zəngin, eyni zamanda ziddiyyətli, ideya-estetik baxımdan çoxçalarlı, təlatümlü bir mərhələdir. Azərbaycan tənqidi realizminin və romantizminin ədəbi cərəyan kimi əsl təkamülü, "Molla Nəsrəddin" və "Füyuzat" ədəbi məktəblərinin ictimai-estetik təsiri müxtəlif əqidəli qəzet və jurnalların çoxcəhətli fəaliyyəti Azərbaycan ədəbiyyatının sonrakı taleyində həlledici olur.

Ölkənin siyasi və ictimai, mədəni və mənəvi vəziyyətinin bir növ bədii güzgüsü sayılan ədəbiyyat tarixinin hər bir mərhələsi xalqın tarixi taleyinin mənəviyyatının obrazlı yadigarıdır. Xalqın və ölkənin çoxcəhətli hərtərəfli öyrənilməsinə sənət əsərlərinin təsiri əvəzsizdir. Çünki sənət əsərlərinin tarixi yaddaşı tarix əsərlərindən daha çox müfəssəl və kamil ola bilir.

XIX əsrin ikinci yarısında vətən və xalq taleyi ədəbiyyatda baş mövzuya çevrilməyə başlayır. XX əsrin əvvəllərində uzun əsrlərin təvəkkül mürgüsündə uyuyan fanatik zehniyyətlə ayıq şüarlar toqquşur. Vətən, millət, ana dili mövzuları, millilik, xəlqilik, bəşərilik problemləri ədəbiyyatın əsas ideya xəttini təşkil edir.

Hüseyn Cavid (1882-1941) 30 il davam etmiş yaradıcılığı ilə Azərbaycan ədəbiyyatını zənginləşdirmişdir. O Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas nümayəndəsi, şair, yazısı, dramaturq milli romantik şeirin və mənzum faciənin banisidir.

Folklorşünaslara bəllidir ki, folklor nümunələrində qəhrəman problemi xüsusi səciyyəyə malikdir. Folklor qəhrəmanları həyatda müşahidə edilməyən qeyri-adi hərəkətləri ilə, həyatdakı insanların gücündən fərqlənən ideal gücləri ilə həmişə yeni ovqata malik olmuşlar. Qeyri-adilik və ideallıq onları nəinki həyatın və gerçəkliyin, eyni zamanda yazdı ədəbiyyatın ədəbi qəhrəmanlarından da kifayət qədər fərqləndirmişdir.

Ədəbiyyatşünaslara bəllidir ki, romantizm nümunələri ilə qəhrəman problemi də spesifik xüsusiyyətlərlə zəngindir. Romantik qəhrəmanlar da qeyri-adiliyə və ideala can atırlar. Xüsusilə H.Cavid dramaturgiyasının şəriksiz qəhrəmanları öz mövqeləri, mübarizələri, inadları, müqavimət gücləri, dönməzlikləri və hətta bəzən möcüzəyə bənzər hərəkətləri ilə dastan qəhrəmanlarını xatırladırlar.

**Açar sözlər:** Hüseyn Cavid, romantizm, dramaturgiya, qəhrəman, Şeyx Sənan

## FOLKLORE SAMPLES İN HUSEYN JAVİD'S ACTİVİTY

### Summary

The beginning of the 19th century is extremely rich, at the same time contradictory, ideologically and aesthetically diverse, turbulent stage in Azerbaijani literature. The real evolution of Azerbaijani critical realism and romanticism as a literary trend, the socio-aesthetic influence of the literary schools "Mullah Nasreddin" and "Fuyuzat", the multi-faceted activity of newspapers and journals of various faiths are decisive in the further fate of Azerbaijani literature.

Each stage of the history of literature, which is considered a kind of artistic mirror of the political and social, cultural and spiritual state of the country, is a figurative relic of the spirituality of the historical fate of the people. The influence of works of art on the multifaceted comprehensive study of the people and the country is invaluable. Because the historical

memory of art works can be more detailed and perfect than works of history.

In the second half of the 19th century the fate of the motherland and the people begins to become the main theme in literature. At the beginning of the 20th century the slogans collide with the fanatical mentality, which sleeps in the maelstrom of long centuries. Themes of nativeland, nation, native language, problems of nationality, origin and humanity form the main ideological line of literature.

Huseyn Javid (1882-1941) enriched Azerbaijani literature with his activity lasting 30 years. He is the main representative of the literary trend of romanticism in Azerbaijani literature, poet, writer, playwright, founder of national romantic poetry and verse tragedy.

It is known to folklorists that the problem of hero in folklore samples has a special characteristic. Folklore heroes have always had a new mood with unusual actions that are not observed in life, with ideal powers that differ from the strength of people in life. Unusualness and ideality quite distinguished them not only from the literary heroes of life and reality, but also from the literary heroes of literature, which he wrote.

It is known to literary critics that the problem of hero with examples of romanticism is also rich in specific features. The romantic heroes also strive for the unusual and ideal. Especially the common heroes of H.Javid’s drama are reminiscent of the heroes of the epic with their positions, struggles, stubbornness, strength of resistance, irreversibility and sometimes they even remind us of epic heroes with their miraculous actions.

**Key words:** Huseyn Javid, romance, dramaturgy, hero, Sheikh Sanan

# ФОЛЬКЛОРНЫЕ ОБРАЗЦЫ В ПРОИЗВЕДЕНИЯХ ГУСЕЙНА ДЖАВИДА


## Резюме

Начало XX века, является чрезвычайно богатым, но в то же время противоречивым, многогранным, в идейно-эстетическом отношении, бурным этапом в азербайджанской литературе. Решающую роль в дальнейшей судьбе азербайджанской литературы сыграли: настоящая эволюция азербайджанского критического реализма и романтизма как литературного течения, общественно-эстетическое влияние литературных школ "Молла Насреддин" и "Фуюзат", многосторонняя деятельность газет и журналов различных убеждений. Каждый этап истории литературы, который считается своего рода художественным зеркалом политического и общественного, культурного и духовного положения страны, является образной памятью нравственности исторической судьбы народа. Влияние произведений искусства на многогранное и всестороннее изучение народа и страны, незаменима. Потому, что историческая память произведений искусства могут быть наиболее подробными и совершенными нежели исторических.

Во второй половине XIX века тема судьбы Родины и народа становится главной. В начале XX века сталкиваются, покоящийся в божьей милости, фанатическое мировоззрение с трезвыми лозунгами. Темы Родины, нации, родного языка, национальности, народности, человечности составляют основную идейную линию литературы.

Гусейн Джавид (1882-1941) обогатил азербайджанскую литературу своим творчеством, которое длилось 30 лет. Он является главным представителем литературного течения романтизма азербайджанской литературы, поэтом, писателем, драматургом, основателем романтического стихотворения и стихотворной трагедии.

Фольклористам известно, что проблема героя в фольклорных образцах имеет особый характер. Фольклорные герои всегда имели новое настроение со своими необычными поступками, не наблюдающимися в реальной жизни и отличающимися от сил людей. Необычность и идеальность достаточно отличали их не только от литературных героев жизни и действительности, но и письменной литературы.

Литературоведам известно, что проблема героя с примерами романтизма также богата со специфическими особенностями. Романтические герои также стремятся к необычности и идеалу. В частности, своеобразные персонажи драматургии Г.Джавида напоминают героев эпоса своей позицией, борьбой, упорством, силой сопротивления, непоколебимостью а иногда даже с чудообразными поступками.

**Ключевые слова:** Гусейн Джавид, романтизм, драматургия, герой, Шейх Санан

Ulu öndər Heydər Əliyev bədii söz təmsilçilərimizin yaradıcılığını Azərbaycan xalqının tükənməz sərvəti hesab edir, onların qorunmasına, tədqiqinə, təbliğinə öz rəhbərlik metodunda geniş yer ayırırdı. Əfzələddin Xaqani, Nizami Gəncəvi, Şah İsmayıl Xətai, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Cəfər Cabbarlı, Səməd Vurğun... Aralarında eləsi tapılmaz ki, diqqətindən, sayğısından kənarda qalsın.

Həmin sıradan böyük dramaturq Hüseyn Cavidə xüsusi etina göstərməklə, sanki onun taleyinə vurulan zərbələrin, uzun müddət kitablarına, hətta adının çəkilməsinə belə qoyulan yasağın əvəzini qaytardı. Respublika rəhbəri kimi, 1981-ci ildə 100 illik yubileyinin keçirilməsi barədə qərar qəbul etdi. 1982-ci ilin payızında, şəxsi təşəbbüsü, göstərişi ilə, nəşinin qalıqları Sibirdən gətirilib, doğma vətənində torpağa tapşırıldı. 1982-1984-cü illərdə yüksək tirajlı dördcildliyi buraxıldı. Prezidentliyi dövründə, Naxçıvanda möhtəşəm məqbərəsi ucaldıldı, orada və Bakıda ev muzeyi açıldı. 120 illiyi ərəfəsində külliyatının nəşri plana

salındı və 2005-ci ildə əsərləri beş cilddə, latın qrafikasında işıq üzü gördü. Pyesləri yenidən teatrların repertuarını bəzədi, bir çoxu dünyanın aparıcı dillərinə tərcümə olunaraq uzaq-uzaq diyarlarda da tamaşaya qoyuldu.

Ümummilli liderimiz Heydər Əliyev Hüseyn Cavidi fəlsəfi şeirlərinə görə Şekspirdən üstün tutur, Hegelə bənzədirdi. Amma ümumilikdə verdiyi yüksək qiymətin səbəbi təkcə ədibin mütəfəkkirliyi deyildi. Onun yaradıcılıq ruhunda həm də həyata öz baxışını, insanlara öz münasibətini görürdü.

Baş qəhrəmanların xarakterində xalqa olan güclü bağlılığı fərqləndirirdi.

Yaşadıqları cəmiyyətin sadə nümayəndələri arasında daha rahat, daha sərbəst davranmalarını nitqlərində, çıxışlarında xüsusi vurğulayırdı. Yeri gəldikcə, folklor elementlərindən də yararlanmaqla, həmin səhnələr üçün münbit psixoloji fon yaratmasını, bununla hadisələrə əlavə dinamiklik gətirməsini müəllifin istedadın geniş imkanları ilə əlaqələndirirdi...

"İblis" pyesinin dördüncü pərdəsində İblisin ağaclar arasından çıxması ərəfəsində baş verən göy gurultusuna bir qızın hər bəndini iki dəfə oxuduğu kanto (şərqi) ilə zəmin hazırlanır:

"Dün bir çoban sevdim pinnə başında,
Bir əksiyi yox gözündə, qaşında.
Fələk ayrı saldı,
Bən köçdüm, o qaldı,
Şimdi bənsiz yaşar,
İrmaq kimi coşar..." (4, s.80).

"Şeyx Sənan"ın dürdüncü pərdəsinin effektini dramaturq qızlar və uşaqların, ardınca dəliqanlıların rəqsi və nəğməsi ilə daha da artırır:

"**...**Qızlar və uşaqlar:
Açmış mənəkcə, sünbül,
Xəndan olur qızılgül;
Öldükcə, sanki bülbül
Rəqs etdirir xəyalı...

Dəliqanlılar:
Hərdəm günəş gülümsər,
Süslər cihanı yeksər;
Məcrub edər sərasər
Ənzari-əhli-hali...” (3, s.206).

“Uçurum”da obrazın daxili aləminin yığcam, lakin təsirli ifadəsindən ötrü bayatıdan istifadə edir:

“...Göyərçinəm, göyərçin,
Ağlaram için-için.
Mən bu qara bəxt ilə
Neçin doğuldum, ah, neçin...” (3, s.334).

“Xəyyam”da da şifahi xalq ədəbiyyatının həmin janrının çevik dilindən faydalanır:

...Sevda, bu nədir, Sevda,
Etdin bizi sən rüsva.
Layiqmi adın gəzsin
Nifrətlə dodaqlarda.

Sevda, gedəlim, Sevda,
Durmaq yaramaz burda.
Gəl, gəl ulu xaqanın
Qalmış gözü yollarda...

“Peyğəmbər” pyesinin “Hicrət” hissəsində verilən uşaqların təranəsi Hüseyn Cavid tərəfindən vətənə öz sevgisini bildirmək üçün edilən orijinal müəllif müdaxiləsidir:

“...Diyor, göydə bağçalar var,
Orda çiçəklər nur saçar.
İnsan mələk kimi uçar...
İstəməm, masaldır onlar,
Mən vuruldum yalnız sana,
Vətən... Ah, sevgili ana!..”(4, 195).

“Azər” poemasında olan nəğmələrdəki fikir sadəliyindən, dil rəvanlığından aydın sezilir ki, şair bu misraları qələmə alarkən folklordan yetərincə bəhrələnib:

“Ey sallana-sallana
Uçan qərib durnalar...”

“...Səfalıdır bizim dağlar, bizim ellər,
Qayğı bilməz bizim bağlar, bizim güllər,
Çağlayan bir yanda çağlar, orman güllər,
Bulutlar bir yanda ağlar, çoban dinlər,
Səfalıdır bizim dağlar, bizim ellər...” (2, s.172) –

poemanın “Kömür mədənində” fəslindəki bu bənd dumduru xalq ruhunda yazdığı “Çoban türküsü” şeiri ilə səsləşir:

“...Açmasın çiçəklər, gülməsin güllər,
Ötüşməsin şirin dilli bülbüllər,
Dərdim çoxdur, ellər, ellər, ay ellər!
Yar-yar deyib gecə-gündüz ağlaram...” (2, s.74)

O isə “Bu da gələr, bu da keçər, ağlama” rədifli məşhur türk şərqisini xatırladır...

Homerdən başlayaraq, üzü bəri bütün sənətkarların əzəli mövzusu Xeyirlə Şərin mübarizəsi olub və Hüseyn Cavidin yaradıcılığında bu meyil daha canlı şəkildədir. Hələ iri həcmli əsərlərindən əvvəl, şeirlərində nəfsə qarşı üsyan qaldırıb, onun törətdiyi fəsadları lənətləyib. Sanki özünü böyük savaşlara, “İblis”ə, “İblisin intiqamı”na hazırlayırdı.

“Hübuti-Adəm” mənzuməsində bəşəriyyətin ulu Ata və Anasının ayrı-ayrı xalqların folklorunda az fərqlə mövcud olan cənnətdən qovulma əfsanəsini nəzmə çəkərək, oxucuları şeytanın fitnəsinə uymamağa çağırır. Yazır ki,

Diyorlər bir zaman Adəm və Həvva
Yaşarmış rövzeyi-cənnətdə tənha... (2, s.27)

Amma çox keçmədən bir qovun diliminin (xurmanın, yaxud almanın) ucbatından öz şad-xürrəm yaşayışlarını təhlükəyə atırlar:

“...Hücum etmiş də süfli ehtirasat,
Qabarmış adəmiyyət hissi... heyhat!..”

Bu zaman

“...Gözəl bir qız, səmavi bir pərizad
Gəlib Həq sahibindən əldə fərman,
Demiş: Çıq, ey səfalətpərvər insan!
Çıq, ey qafil bəşər! Dəf ol, çəkil, get!
Bu lahutu təfərrücgahi tərk et!..” (2, s.28)

Və sonda müəllif insanlara xəbərdarlıq edir:

“...Əmin ol, nerdə nəfs olmuşsa hakim;
Həqiqi eşqi məhv etmiş məzalim.
Kimin ülviysə ruhu, söz onundur,
Əsiri-nəfs olan daim zəbundur” (2, s.29).

Çox təəssüf ki, Hüseyn Cavidin bu qədər xalqa, şifahi xalq ədəbiyyatına bağlılığı sağlığında qəsdən, bilərəkdən kiçildilib, hətta heçə bərabər tutulub. Əksinə, aldığı təhsilin təsirindən ədəbi dilinin İstanbul türkcəsinə yaxınlığı, mövzularının əksəriyyətinin “İrandan, Turandan gəlməsi” ilə qoşalaşdırılaraq, nahaqdan Sibirə sürgün edilməsinə, orada məhrumiyyətlər, əzablar içində dünyasını dəyişməsinə bəhanə olub. Ailə üzvləri incidilib, “Atilla”, “Çingiz”, “Telli saz”, “Şəhla” və “İblisin intiqamı” adlı faciələri yoxa çıxıb, cırılıb-yandırılıb. Şərq və Qərb folkloru ilə dərindən tanışlığına, milli və bəşəri duyğuları vəhdət halında qələmə gətirmək məharətinə görə üstün tutulmaq, yüksək dəyərləndirmək əvəzinə, “xalq düşməni” damğası vurularaq işgəncələrə məruz qaldı.

Əslində, böyük dramaturqun məhəlli çərçivəyə sığmamasında qeyri-adi bir şey yox idi. Sadəcə, görkəmli ədəbiyyatşünas Əli Sultanlının təbirincə desək, o, “öz sərbəstliyini kimsəyə satmamışdır”. Firdovsi, Nizami, Şekspir, Höte, İbsen kimi dahilər sivilizasiyalar arasında fərq qoyurdularmı? Yox! Tərəddüd etmədən ayrı-ayrı xalqlara mənsub əsatirləri, əfsanələri əsərlərinə gətirirdilər. Hüseyn Cavid müxtəlif versiyaları diqqətlə tutuşdururdu. Ən optimal səhnələri, mətnləri hadisələr, obrazlar, dialoqlar əlavə etməklə dolğulaşdırır, müasirliklə səsləşən əbədiyaşar əsərlər yaradırdı...

1914-cü ildə qələmə aldığı “Şeyx Sənan” faciəsinə uzun

müddət hazırlaşıb. Hüseyn Cavid haqqında xatirələrdən birində qeyd edilir ki, Tbilisi şəhərinin Şeytanbazarı deyilən hissəsində kirayələdiyi evdən Şeyx Sənan dağı aydın görünürdü. Saatlarla ona baxıb xəyala dalırdı. Türbəsi önündə yazdığı qəzəllə də onun ilahi sevgisinin mahiyyətini açmağa çalışıb:

...Ziyarətgahın gülbusələr Hüseyn Cavid təzyin edər hər an,
Sən əhli-eşq üçin bir Kəbə yapdıran məhəbbətdən.

"Nədir mənası eşqin!?" – söyləyənlər nerdə? Bir gəlsin,
Görüb qüdsiyyəti – Sənanı, lal olsun xəcalətdən...

Hüseyn Cavid, şübhəsiz, Üzeyir Hacıbəyovun "Şeyx Sənan" operası ilə Mehdi bəy Hacınskinin "Şeyx Sənan əfsanəsi" adlı risaləti ilə tanış idi... Dastanın müfəssəl məzmununa nə türk, nə də gürcü folklorunda rast gəlinmədiyindən, çox ehtimal ki, pyesin sujetini fars mənbəyi əsasında Şeyx Fəridəddin Əttarın "Məcalisi-üşşaq" və "Məntiq-üt-teyp" əsərlərinin təməlində qurub...

Dastana görə, Şeyx Sənan təxminən 55-60 yaşında idi. Vaxtının çoxunu Məkkədə, Kəbə ətrafında ibadətlə keçirirdi. 400 nəfər müridi vardı. Şillər və korlar onun müqəddəs nəfəsinin təsirindən şəfa tapırdılar... Röyada gördüyü sənəmi-tərsanın sorağı ilə bir gün tərki-vətən olur. Rum vilayətinə gedib, həsrəti ilə yaşadığı qızı axtarır. Onunla rastlaşdıqda, qovuşmaq üçün çox ağır şərtlər qəbul etmək məcburiyyətində qalır. Çaxır içir, dinindən dönüb, Quranı yandırır, bütə səcdə qılır. Hətta kəbin bahası kimi, bir il donuz da otarır... Mürüdləri Şeyxsiz evlərinə yola düşürlər. Amma qarşılaşdıqları dostunun danlağından sonra (Başqa bir versiyada Məhəmməd peyğəmbər onlardan birinin yuxusuna girir) yenidən yanına gəlirlər. Öz təhrikləri ilə günaha batdığını anlayıb, canını fəda edən sevgilisini basdırıb, onlarla birgə Kəbəyə qayıdır...

Hüseyn Cavid bu qəmli əhvalatı yazıçılıq süzgəcindən keçirib, əbədiyyətə boy verən ölməz bir əsər yaradıb. Rum elini Gürcüstanla, Sənəmi-tərsanı Xumarla əvəzləyib, Şeyx Sənanı

otuz yaşa qədər “cavanlaşdırıb”, farslıqdan çıxararaq türkləşdirib, sujetə Zəhra, Şeyx Əbuzər, Əzra, Anton, Simon, Papas, Platon...

“Leyli və Məcnun”a, “Əsli və Kərəm”ə, “Romeo və Culyetta”ya bərabər, faciəylə bitən məhəbbət şedevri ərsəyə gətirib:

...Ruhaşinna röya kibi,
Qeyb oldular, qeyb oldular!
Yüksəldilər, yüksəldilər,
Cənnətdə rahət buldular...

“Dini feodal keçmişə dramaturq Cavidin tənqidi baxışı ana ilə başlasa da, onun möhtəşəm bədii ifadəsi “Şeyx Sənan”dır. “Şeyx Sənan” - məhəbbət mahnısıdır, bizim romantik və poetik səhnənin “Leyli Məcnun”udur. İctimai-əxlaqi faciələr və fitnələr törədən, xalqları, millətləri bir-birindən ayrı salan dini ehkama faciədə məhz Sənan sevgisi qarşı qoyulur. Pyesin rəmzi finalında biz bu qadağan olunmuş sevgini təqib edənlərin hamısını – müsəlmanları da, xristianları da, bu sevgidən çox-çox uzaqda və aşağıda – öz xumarı ilə mənəvi ucalığa – sahil qayasının (təbiətin və təbiiliyin) zirvəsinə çəkilən Sənanın ayaqları altında görürük. Beləliklə məhəbbət və din, eşq fəlsəfəsi və dini dünyagörüşü üz-üzə gəlir və Sənan elan edir ki, həqiqi tanrı da sevgidədir, ölü ehkamda, dini ibarələr və ayinlər zəncirində yox, insanı və insaniliyi təsdiq edən insan sevgisi naminə fədakarlığa çağıran təbii ehtirasdadır” (1, s.3).

Dramaturqun “İblis” pyesində hadisələr qeyri-müəyyən bir yerdə - hardasa Şərqdə cərəyan edir. Amma müəllifin əsərin finalında yazdığı kimi, oxşarı hər yerdə var:

“İblis!.. O böyük ad nə qədər calibi-heyrət!
Hər ölkədə, hər dildə anılmaqda o şöhrət,
Hər qülbədə, kaşanədə, viranədə İblis!
Hər Kəbədə, bütxanədə, meyxanədə İblis!..” (4, s.103).

Dünən Adəm oğulları arasına nifaq saldı, qardaşı qardaşa öldürtdü. Ardınca

...Qan püskürən, atəş savuran kinli krallar,

Şahlar, ulu xaqanlar, o çılğın dərəbəglər...

- milyonlarla sadə insanı qılıncdan-güllədən keçirtdilər.

Bu gün Ukraynadakı şəhərləri dağıdırlar, Qarabağda abadlıq işlərini rahat görməyimizə imkan vermirlər.

...Bin hiylə quran tülkü siyasilər, o hər an
Məzhəb çıqaran, yol ayıran xadimi-ədyanlar...

- ara qarışdırır, millətləri biri-biri ilə vuruşdururlar. Belə getsə, şeytan bəşəriyyətin yaxasından sabah da əlini çəkməyəcək:

...Pəncəmdə dəmadəm əzilib qıvrılacaqsın,
Daim ayaq altında sönüb məhv olacıqsın...

Dünyanın hər nöqtəsində min illər boyu fasiləsiz davam edən bir savaş!

Əbəs yerə deyil ki, bütün millətlərin folklorunda həmin mövzuda əsatirlər mövcuddur və onların əsasında yazılmış əsərlər yetərincədir.

Azərbaycan ədəbiyyatında Hüseyn Cavid bu baxımdan daha məhsuldardır: "İblis", "İblisin intiqamı", nəhayət, represiya dövründə əlyazması məhv edilmiş "İblisin ilhamı"...

Xalqımız böyük dramaturqun ideyasını, arzusunu şərəflə həyata keçirdi. Onun, Müşfiqin, haqsızlığın qurbanı olmuş neçə-neçə ziyalının adını, könüllərdə, tarixdə yaşamış hüququnu bərpa elədi. Şərə üstün gəlib, əbədi müstəqillik qazandıq. İblislərin düşmənlərimizə dəstəyi ilə işğal edilmiş torpaqlarımızı, qürur rəmzimiz sayılan Şuşamızı otuz ildən sonra geri qaytardıq. Qələbə çaldıq... bu gün arxa cəbhədə də aramsız mübarizə aparırıq. İnhisarçılığın, rüşvətin, süründürməçiliyin kökünü kəsməyə çalışırıq. Nəfsin qulu olan, şeytanın halal yoldan azdırdığı kəsləri cəzalandırırıq...

Çox çəkməyəcək, Ağdamın, Füzulinin, Kəlbəcərin teatr səhnələrində folklor əsasında qələmə alınmış "İblis"in ikinci pərdəsindəki nəğmə də səslənəcək:

...Hər şey sənindir, ey qafil insan!
Gülgün şəfəqlər, rəngin çiçəklər.

Hər şey sənindir, ey cahil insan!
Parlaq günəşlər, dilbər mələklər... (4, s.46).

Dördüncü pərdədəki kanto da oxunacaq:
"...bən bir qızım, hər ruhumu yaldızlar
Gündüz çiçəklər, gecələr yıldızlar,
Qarlı dağlar bənim,
Yeşil bağlar bənim,
Bənsiz quşlar uçmaz,
Bənsiz güllər açmaz..." (4, s.80).

Hüseyn Cavid "Səyavuş" pyesini Əbülqasim Firdovsinin min illiyi münasibəti ilə yazmış və bu zaman Şərq aləmində geniş yayılmış "Səyavuş" dastanından bəhrələnmişdir. Böyük fars şairinə hörmətini – izzətini bildirməklə yanaşı, həm də onun "Şahnamə"də əcdadlarımıza qarşı bəslədiyi şovinizm hissinə zərbə vurmuşdur. Əsərin baş qəhrəmanı ruhən nə İran şahlıq sarayını qəbul edirdi, nə türk sultanlıq sarayını. O, kənddə boya-başa çatıb, "köylü" bir anadan, elin igid oğlu Zal oğlu Rüstəmdən tərbiyə aldığına görə, sadə insanlar arasında mənəvi rahatlıq tapırdı. Müəllif folklordan yararlanaraq dialoqlarda şeirin qısa ölçülərinə geniş yer verməklə bu mübariz əhval-ruhiyyəni faciənin axırına qədər saxlayır:

Birinci pərdədə:

"Rüstəm:
Xayır, şahım, aldırma,
Yersizdir bu iztirab.
Rüstəm dursun, onlara
Səyavuş verir cavab..." (5, s.129).

İkinci pərdədə

"Birinci bənna:
Gəl, quzum, tez ol da gəl!
Gözüm qaldı yolda, gəl!
Çamur gətir, daş gətir!
Durma, arqadaş, gətir..." (5, s.150).

...Son pərdədə

“Əfrasiyab:
...Hər tədarük görülmüş,
Çin xaqanı bir yandan,
Tus ilə Zal oğlu da
Saldıracaq İrandan...” (5, s.245).

Dahi dramaturqun bir neçə əsərindən misal gətirdiyimiz, həmçinin “Knyaz”da da, “Xəyyam”da da, “Afət”də də, “Topal Teymur”da da... rast gəlinən belə çalarlar onun milli kökə nə qədər möhkəm bağlı olduğunu göstərir.

Akademik Yaşar Qarayev Hüseyn Cavidi Azərbaycan ədəbiyyatında qanunauyğun, əlamətdar hadisə adlandırır. Məhz bu cür uca mərtəbəyə layiq olduğuna görə, xalqımız tərəfindən sevilir, dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Prezident İlham Əliyevin, onun 130 illik və 140 illik yubileyinin qeyd edilməsi haqqında verdiyi sərəncamlardan irəli gələn vəzifələr həyata keçirilərkən bunun bir daha şahidi olduq.

Növbəti il Heydər Əliyev ili elan edilib. Təbii ki, Ulu öndərin gördüyü işlər sadalanarkən, Hüseyn Cavid irsinə göstərdiyi qayğı da yada salınacaq...

## ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı inciləri. Dramlar. Bakı, “Yazıçı” nəşriyyatı, 1986
2. H.Cavid. Əsərləri. 5 cilddə I cild. Bakı, “Lider” nəşriyyatı, 2005, 256 s.
3. H.Cavid. Əsərləri. 5 cilddə II cild. Bakı, “Lider” nəşriyyat, 2005, 352 s.
4. H.Cavid. Əsərləri. 5 cilddə III cild. Bakı, “Lider” nəşriyyat, 2005, 304 s.
5. H.Cavid. Əsərləri. 5 cilddə IV cild. Bakı, “Lider” nəşriyyat, 2005, 256 s.

**Qiymət MƏHƏRRƏMLİ**
*AMEA Folklor İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru*
*ORCID: 0000-3572-1284*

# HÜSEYN CAVİD ROMANTİZMİ: MİFİN POETİKASI

**Xülasə**

Hüseyn Cavid Azərbaycan ədəbiyyatını dünya mədəniyyəti tarixinə daşıyan – klassik şeir yaradıcılığı ənənələri, mənzum dramları, faciə janrında qələmə aldığı bənzərsiz əsərləri ilə həm geniş oxucu kütləsinin, həm də ədəbiyyatşünasların daim diqqət mərkəzsində olan fikir və düşüncə adamı, görkəmli söz sənətkarıdır. Təsadüfi deyildir ki, XX əsr Azərbaycan poeziyasında romantizm – mif və reallığın qarşılaşdırılması, işıq və zülmət, xeyir və şər qarşıdurması, işığın qalibiyyəti, xeyirin şəri, ariflərin iblisləri yenməsi kimi təzadlı məqamlar məhz bu qüdrətli sənətkarın mənəvi dünyasının müqəddəs ideallara sadiqliyindən xəbər verir. Dünyanın ilkinliyindən doğan haqq-ədalət axtarışları “İblis” faciəsi, “Uçurum” pyesi, “Şeyda”, “Knyaz”, “Peyğəmbər”, “Topal Teymur”, “Səyavuş”, “Xəyyam” və sair kimi əsərləri vasitəsilə, bəşəri və milli dəyərlərin təbliği, insanın və insanlığın təkamülü prosesinə xidmət edir. Təbii ki, nə qədər yaranış və törəniş, insan və cəmiyyət, çalxanmalar və durulmalar olacaq, xeyir və şər qüvvələrin qarşıdurması labüddür. Dünyanın düzəni məhz xeyirlə şərin mübarizəsində, nəinki xeyirin, hətta şər qüvvələrin şimasında belə, işıqlı ideallarin əlamətlərinin təzahürünə imkan yaradan mənəvi yüksəlişin qələbəsi ilə gerçəkləşəcəkdir. Böyük Hüseyn Cavid şəxsiyyəti və yaradıcılığı bu müqəddəs ideallarin təcəssümüdür.

**Açar sözlər:** Hüseyn Cavid, xeyir, şər, İblis, faciə

# HUSEYN JAVID ROMANTICISM: THE POETICS OF MYTH


## Summary

Huseyn Javid is a man of ideas and a thinker, an outstanding word artist, who carries Azerbaijani literature into the history of world culture – with his unique works written in the classical poetry traditions, verse dramas, and tragedies, which is always in the center of attention of both the wide readership and literary critics.

It is no coincidence that romanticism in 20$^{th}$ century Azerbaijani poetry – contrasts between myth and reality, conflict between light and darkness, good and evil, triumph of light, good over evil, wise men defeating demons – indicate the devotion of the spiritual world of this mighty artist to holy ideals. The search for justice born from the beginning of the world, “Iblis” tragedy, “Uchurum” play, “Sheyda”, “Prince”, “Prophet”, “Topal Teymur”, “Sayavush”, “Khayyam” and others, he promotes human and national values and serves the process of evolution of man and humanity.

Of course, there will be many births and descents, people and society, upheavals and upheavals, the confrontation of good and evil forces is inevitable. The order of the world will be realized precisely in the struggle between good and evil, not only by the victory of good, but also by the victory of spiritual growth, which enables the manifestation of the signs of enlightened ideals. The great Huseyn Javid’s personality and creativity are the embodiment of these holy ideals.



**Key words:** Huseyn Javid, good, evil, Devil, tragedy

## ГУСЕЙН ДЖАВИД РОМАНТИЗМ: ПОЭТИКА МИФА

**Резюме**

Гусейн Джавид – человек идеи и мыслитель, выдающийся художник слова, который вносит азербайджанскую литературу в историю мировой культуры – своими уникальными произведениями, написанными в традициях классической поэзии, стихотворными драмами и трагедиями, которые всегда находятся в центре внимания. внимание как широкой читательской аудитории, так и литературоведов. Неслучайно романтизм в азербайджанской поэзии XX века – контрасты между мифом и реальностью, конфликт между светом и тьмой, добром и злом, торжество света, добра над злом, волхвы, побеждающие демонов, - свидетельствуют о преданности духовному миру этого могучий художник к святым идеалам. Поиски справедливости, рожденные от начала мира, трагедия “Иблис”, пьеса “Учурум”, “Шейда”, “Принц Пророк”, своими произведениями, такими как “Топал Теймур”, “Саявуш”, “Хайям” и другими, он пропагандирует общечеловеческие и национальные ценности и служит процессу эволюции человека и человечества. Конечно, будет много рождений и сходов, людей и общества, потрясений и потрясений, противостояние добрых и злых сил неизбежно. Порядок мира осуществится именно в борьбе добра и зла, не только победой добра, но и победой духовного роста, дающего возможность проявления знаков просветленных идеалов. Личность и творчество великого Гусейна Джавида являются воплощением этих святых идеалов.

**Ключевые слова:** Гусейн Джавид, добро, зло, Дьявол, трагедия

Azərbaycan ədəbiyyatının ünlü simalarından biri, görkəmli şair-dramaturq Hüseyn Cavid (Hüseyn Abdulla oğlu Rasizadə. 24 oktyabr 1882 - 5 dekabr 1941) milli romantik şeirin və mən-

zum faciə janrının banisi kimi tanınır. Təbəddülatlarla, faciələrlə dolu ömür yolu keçən şairin müasirləri olan bəzi qələm adamları dövrün siyasi görüşləri ilə səsləşən, ideologiyanın diqtəsi ilə pərvəriş tapan "əsərlər" yazmaqla özlərini Stalin repressiyasının qurbanı olmaqdan xilas etdikləri halda, "haqq verilmir, alınır" prinsipini hər şeydən üstün tutan Cavid haqda bunu söyləmək yersizdir. Çünki dövrünün "Cavid Əfəndi"si, "Şərqin Şekspiri" titullarını qazanmış bu böyük sənətkar ağalar-qullar dünyasının amansız qanunlarına boyun əymədən əsl sənətkar kimi vicdanının hökmü və diqtəsi ilə yazıb-yaratmış, bütün dövrlərin dahisi olmağı bacarmışdır. Təbii ki, zaman və mühit gözlərimiz qarşısına bütün qəbildən olan insanları çıxardıqca, hər birimiz görür və şahidi oluruq ki, "çalxalandıqca, bulandıqca zaman nehrə kimi, yağı yağ üstə çıxır, ayranı ayranlıq olur" (M.Ə.Sabir).

Cəmi 59 il ömür sürmüş şairin yaradıcılığının ən məhsuldar dövrlərini iki yerə ayırmaq olar: 1910-1918-ci və 1929-1935-ci illər. Hüseyn Cavidin bir sıra şeir və dram əsərləri – "Keçmiş günlər", "Bahar şəbnəmləri", "Ana", "Maral", "Şeyx Sənan", "Şeyda", "Uçurum", "İblis" və s. həmin dövrün məhsuludur. 1922-1935-ci illər ərzində isə "Azər" poemasını, tarixi mövzuda yazdığı məşhur dram və faciələrini – "Peyğəmbər", "Topal Teymur", "Knyaz", "Səyavuş", "Xəyyam", "İblisin intiqamı" əsərlərini yaratmağa, onların nəşrinə və səhnələşdirilməsinə müvəffəq olmuşdur (3, 350-351).

Bədii, fəlsəfi məna yüklü əsərləri ilə yaxndan tanış olduqca şairin sülhə, ədalətə vurğunluğunun, müharibələrə, qan-qadaya sonsuz nifrətinin şahidi oluruq. Birinci Cahan Savaşının törətdiyi rəzalətləri şair:

Bütün ətrafı sarmış bir məlal; ağlar, cahan ağlar,
Könül məhzun, hava məhzun, günəş məhzun, səma məhzun...

- deyə qəlb göynərtisi, daxili fəryadla nəzmə çəkir.
Nədən ki:
Cahan bir qətlgah olmuş, aman yox zülmü vəhşətdən,

Bu insan məzhəbindən kimsə çıxmaz, kimsə qurtulmaz.

Könüllər qan, çiçəklər qan, bütün çöllər, çəmənlər qan,
Dənizlər qan, buludlar qan, hava qan, iştə hər yer qan...

İnsanın və insanlığın qanına susamış tiranlara qarşı çıxmağa daxili güc tapmaq o dövrlər üçün ancaq Cavid kimi mütəfəkkir şairin işi idi. Bəzi alçaq xislətli, xəbis niyyətli, dinc insanların qəniminə çevrilmiş, "parçala, hökm sür" siyasətini yeridən zalımların qəlbində yuva salmış şeytani hissləri ustalıqla şeirə gətirmək, nəzmə çəkmək Cavid Əfəndinin yaradıcı həyatının qayəsi idi. Cənnəti və cəhənnəmi bu dünyada görən şair, İblis obrazının prototiplərini də elə bu dünyada, hər gün görüb, müşahidə etdiyimiz, birgə addımladığımız adamlar arasında axtarmalı olduğumuzu biz oxuculara təlqin edir.

İblis!... O böyük ad nə qədər calibi-heyrət,
Hər ölkədə, hər dildə anılmaqda o şöhrət!
Hər qülbədə, kaşanədə, viranədə İblis!
Həp Kəbədə, bütxanədə, meyxanədə İblis!

Cavid "İblis"i cəmiyyətə olduğu kimi təqdim etmək üçün onu İblis və Şeytan xislətli biri kimi cəmiyyətdən qovmaq istəyənlərə elə öz monoloqu ilə tanıtdırmağa qərar verir:

Hər kəs məni dinlər, fəqət eylər yenə nifrət,
Hər kəs mana aciz qul ikən, bəslər ədavət.
Lakin məni təhqir edən ey əbləhü miskin,
Olduqca müsəllət sana, bil, nəfsi-ləimin,
Pəncəmdə dəmadəm əzilib qıvrılacaqsın,
Daim ayaq altında sönüb məhv olacaqsın.

Çünki insan nəfsi onu daim haram işlərə sövq edər, xəbis niyyətli əməllərə doğru çəkər. Nəticədə ev yıxmaq, qan tökmək, saf, təmiz vicdanlı insanları tələyə salmaq, xeyirxah əməllərdən çəkindirmək, qəlblərə şübhə, yaxud ehtiras toxumu səpmək kimi qeyri-insani xüsusiyyətlər meydana çıxar.

İblis nədir? – Cümlə xəyanətlərə bais!...
Ya hər kəsə xain olan insan nədir? – İblis!...

"Cavidin "İblis" əsərindən heç də o nəticə çıxmır ki, qan

tökmək, ev yıxmaq, vəhşilik xisləti, ümumiyyətlə, bütün insanların təbiətinə hakimdir. Əksinə dramaturq simvolik İblis surəti vasitəsilə saf ürəkli, təmiz vicdanlı insanlara zidd cəbhəni təmsil edən xainlər qrupunu əsl iblislər kimi damğalayır...” (3, 363).

Cavid poeziyası, dramaturgiyası bütün sonrakı dövrlər üçün də həmişəyaşar, canlı həyat məktəbidir. Böyük Cavidimiz hələ 1915-ci ilin 25 oktyabrında işıq üzü görən “Açıq söz” qəzetində yazırdı: “Ədəbiyyat, bir millətdəki əhvali-ruhiyyənin inikası deməkdir” (4, 19).

“... Şübhəsiz ki, ən faydalı düşüncələr, ən ciddi mühakimələr də yalnız fəlsəfə və ədəbiyyat vasitəsilə əldə edilə bilər. Çünki düşünməyə başlayanlar, xilqət və təbiətdə bir qayə, bir nəticə arayan gənclər, yalnız mütaliə sayəsində öz məsləkini təyin edə bilir, öz aradığını bulur... Məsələn, bir gənc bir şeir, bir hekayə, bir roman, bir tarix, bir faciə oxuyacaq olursa, dərhal özünə ruhdaş, məsləkdaş olmaq üzrə bir qəhrəman seçər, bir tip bəyənər və o ruhda yaşamağa yeltənər və o məsləkdə yaşamaq istər. Və bu yazılan əsərlər isə, adətən, aləmşümul bir müəllim yerinə keçər, qarelərin ruhlarına nüfuz etməyə başlar...” (2, 273). Cavidin məslək və əqidəsində qaranlıq və şər qüvvələrə qarşı mübarizlik ruhu üstündür. Şair bütün varlığıyla, düşüncəsiylə əmindir ki, dünyadakı rəzalətlərin, şər işlərin səbəbkarı olan İblisi kənarda deyil, elə insanların daxilində, iç dünyasında axtarmaq lazımdır. Cavid fəlsəfəsi bunu cəmiyyətə, insanlığa təlqin edir.

Görkəmli ədəbiyyatşünasımız, professor Yaşar Qarayev demonizmin H.Cavid yaradıcılığında “İblis”lə başlamadığını, şübhəçiliyin, demonist narahatlığın onun demək olar, bütün əsərlərinin əsas ruhunu, bədii və fəlsəfi əhval-ruhiyyəsini təşkil etdiyi qənaətinə gələrək yazırdı ki, bu keyfiyyətlər “... Cavid dünyagörüşü ilə islamdan, orta əsrlərdən daha əvvəlki dövrlərin fəlsəfəsi arasında mənəvi ünsiyyətin, varis-irs əlaqəsinin ifadəsi kimi meydana çıxır”. Cavidin ilk nəşr olunmuş kitabı olan “Keçmiş günlər”in (1913) “Hübut Adəm” şeiri ilə başladığını yazan alim, öz nəfsinə uyub cənnəti itirən insanın mənəvi və fiziki sü-

qutunu şairin bütün mənfi qəhrəmanlarının bioqrafiyasına aid edərək, "onun əxlaqi-psixoloji məzmununda izləyir və qəti qərara gəlir ki:

Əmin ol, nerdə nəfs olmuşsa hakim,
Həqiqi eşqi məhv etmiş məzalim.
Kimin ülviysə ruhi, söz onundur,
Əsiri-nəfs olan daim zəbundur.

Bəşərin tarixi – həm də onun aldanışlarının tarixidir. Bu tarix hələ Həvvanın öz nəfsinə uyub şeytana aldanmasından başlayır. Sonralar dinlər, təriqətlər, fəlsəfə və firqə uyduranlar bəşəri aldatmaqla məşğul olmuşlar. Ona öz haqqını başa salmaq, aldanan bəşərə həqiqəti tapmaqda kömək etmək lazımdır" (1, 124) və şairin missiyası da elə bundan ibarətdir. Bütün yaradıcılığı boyunca bu ideallara sadiqlik prinsipi nümayiş etdirən Cavidin həmin kitabındakı ikinci şeirdə də şair cənnətdən qovulan insanları artıq əsl, real bir "cəhənnəm"də - keçmiş Bakının neft mədənlərində təsvir edir. Və bu şeirdə Cavid romantizmi öz yerini tədricən realist üsluba verməklə, həyat həqiqətlərini neft quyularının – "Bakı cəhənnəmi"nin təzadlı koloriti ilə nəzmə çəkir.

Hüseyn Cavid yaradıcılığı ziddiyyətli, daşlaşmış, qəlibləşmiş ehkamları vurub-dağıtmaq baxımından olduqca maraqlı məqamlarla şərtlənir. Məsələn, "Mənim tanrım gözəllikdir, sevgidir" ideyası yaradıcılığının əsas leytmotivini təyin edən Cavidin mənəvi-psixoloji aləmi "Peyğəmbər"dəki Məhəmmədi şair kimi görmək istəyindən doğur. Belə demək mümkünsə, "... elə Məhəmməd özü də Cavidi "din yaradandan" daha çox, "xurafatı yıxan" sima və şəxsiyyət kimi maraqlandırıb və dramda da Peyğəmbər Allahın yox, şairin elçisi kimi insanlar arasına gəlir, dinin və Quranın yox, Cavidin diqtə etdiyi "ayinləri" səhnədən hər tərəfə car çəkir..." Bu məqamın özü Hüseyn Cavid romantizminin "bütlər əleyhinə aşıb-daşan üsyan ehtirası"ndan xəbər verir.

Hüseyn Cavid Azərbaycan ədəbiyyatını dünya mədəniyyəti tarixinə daşıyan – klassik şeir yaradıcılığı ənənələri, mənzum dramları, faciə janrında qələmə aldığı bənzərsiz əsərləri ilə həm geniş oxucu kütləsinin, həm də ədəbiyyatşünasların daim diqqət

mərkəzsində olan fikir və düşüncə adamı, görkəmli söz sənətkarıdır. Təsadüfi deyildir ki, XX əsr Azərbaycan poeziyasında romantizm – mif və reallığın qarşılaşdırılması, işıq və zülmət, xeyir və şər qarşıdurması, işığın qalibiyyəti, xeyirin şəri, ariflərin iblisləri yenməsi kimi təzadlı məqamlar məhz bu qüdrətli sənətkarın mənəvi dünyasının müqəddəs ideallara sadiqliyindən xəbər verir. Dünyanın ilkinliyindən doğan haqq-ədalət axtarışları "İblis" faciəsi, "Uçurum" pyesi, "Şeyda", "Knyaz", "Peyğəmbər", "Topal Teymur", "Səyavuş", "Xəyyam" və sair kimi əsərləri vasitəsilə, bəşəri və milli dəyərlərin təbliği, insanın və insanlığın təkamülü prosesinə xidmət edir. Təbii ki, nə qədər yaranış və törəniş, insan və cəmiyyət, çalxanmalar və durulmalar olacaq, xeyir və şər qüvvələrin qarşıdurması labüddür. Dünyanın düzəni məhz Xeyirlə Şərin mübarizəsində, nəinki Xeyirin, hətta şər qüvvələrin şimasında belə, işıqlı ideallların əlamətlərinin təzahürünə imkan yaradan mənəvi yüksəlişin qələbəsi ilə gerçəkləşəcəkdir. Böyük Hüseyn Cavid şəxsiyyəti və yaradıcılığı bu müqəddəs ideallların təcəssümüdür.

Təsadüfi deyildir ki, "vaxtilə mətbuatda Cavidə həsr edilən yazılardan birində deyilirdi: "Hələ tarix Hüseyn Cavidə əl vurmayıbdır. Şairimiz bir tərəfdə sakit oturub əsərlərini yazır. Tarix isə qulaq asır və gözləyir"("Yeni fikir", 4 mart, 1923). Yarım əsrdir ki, vəziyyət dəyişib: indi artıq tarix Cavidi mühakimə və sınaq meydanına çəkir, təhlil edir və qiymətləndirir. Cavid isə "qulaq asır və gözləyir" (1, 109).

Həmin sətirlərin yazıldığı vaxtdan çox illər keçib. Böyük Cavidimiz və onun cahanşümul əsərləri barədə saysız-hesabsız tədqiqat işləri yazılıb, araşdırmalar aparılıb və nə qədər ki, tarix davam edir, ədəbiyyatşünaslıq elmi yaşayır, cavidşünaslar qarşısında yeni-yeni axtarış üfüqləri açılmaqdadır.

## ƏDƏBİYYAT

1. Y.Qarayev. Ədəbi üfüqlər. Bakı, "Gənclik" nəşriyyatı, 1985. 288 s.

2. M.Məmmədov. Azərbaycan ədəbi tənqidi. Müntəxəbat. Bakı, “Tural-Ə” NPM, 2002. 388 s.
3. M.C.Paşayev, F.Hüseynov. XX Azərbaycan ədəbiyyatı. Bakı, “Maarif” nəşriyyatı, 1982. 428 s.
4. Ə.Pəhləvan. Qalxın, Cavid gəlir. Bakı, “Elm” nəşriyyatı, 1997. 124 s.

**Nəzakət İSMAYILOVA**
*Naxçıvan DövlətUniversiteti*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*nezaket.ismayilova@yahoo.com*

# HÜSEYN CAVİD YARADICILIĞINDA UŞAQ ƏDƏBİYYATI ÖRNƏKLƏRİ

**Xülasə**

XX əsr Azərbaycan uşaq ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan sənətkarlardan biri də Azərbaycan romantik şeirinin banisi Hüseyn Caviddir. O, Azərbaycan ədəbiyyatını həm məzmun, həm də janrca zənginləşdirmiş görkəmli şair, dramaturqdur. Onun yaradıcılığı çoxsahəli olduğundan araşdırdığımız mövzunun istiqaməti də dahi sənətkarın yaradıcılığında uşaqlarla bağlı yazılmış əsərlərin təhlilinə həsr edilmişdir.

Hüseyn Cavid gənc nəslin tərbiyəsi, əxlaqi məsələsinə həmişə ictimai və mədəni inkişaf baxımından yanaşmışdır. Romantik təbiətli, alovlu, maarifpərvər şair nədən yazırsa- yazsın, onu xalqın əhval-ruhiyyəsi, gəncliyin gələcək taleyi həmişə düşündürmüşdü. Hüseyn Cavid elm və maarifin yayılmasında, xalq kütlələrinin savadlanmasında, xüsusilə, yeni nəslin təhsil və tərbiyəsində xidməti olan bir sənətkardır.

**Açar sözlər:** Azərbaycan, Hüseyn Cavid, uşaq ədəbiyyatı, yeni nəsl, tərbiyə

# CREATED BY HUSSAIN JAVID EXAMPLES OF CHILDREN'S LITERATURE

**Summary**

Huseyn Javid, the founder of Azerbaijani romantic poetry, is one of the artists with special merits in the development of 20th century Azerbaijani children's literature. He is an outstan-

ding poet and dramatist who has enriched Azerbaijani literature both in terms of content and genre. Since his creativity is multi-faceted, the direction of the topic we are investigating will also analyze the works written about children in the creativity of the genius artist.

Huseyn Javid has always approached the issue of education and morals of the young generation from the point of view of social and cultural development. No matter what the romantic, fiery, enlightened poet wrote about, he was always thinking about the mood of the people and the future fate of the youth. Huseyn Javid is an artist who has a service in spreading science and knowledge, in educating the masses, especially in the education and upbringing of the new generation.

**Key words:** Azerbaijan, Huseyn Javid, children's literature, new generation, education

## СОЗДАН ГУСЕЙНОМ ДЖАВИДОМ ПРИМЕРЫ ДЕТСКОЙ ЛИТЕРАТУРЫ

### Резюме

Гусейн Джавид, основоположник азербайджанской романтической поэзии, является одним из художников, добившихся особых заслуг в развитии азербайджанской детской литературы XX века. Он выдающийся поэт и драматург, обогативший азербайджанскую литературу как в содержательном, так и в жанровом отношении. Поскольку его творчество многогранно, направление исследуемой нами темы будет также анализировать произведения, написанные о детях в творчестве гениального художника.

Гусейн Джавид всегда подходил к вопросу воспитания и нравственности подрастающего поколения с точки зрения социального и культурного развития. О чем бы ни писал романтик, пламенный, просвещенный поэт, он всегда думал о настроении народа и будущей судьбе юноши. Гусейн Джа-

вид – художник, имеющий заслугу в распространении науки и знаний, в просвещении масс, особенно в образовании и воспитании нового поколения.

**Ключевые слова:** Азербайджан, Гусейн Джавид, детская литература, новое поколение, образование.

H.Cavid bir şair, dramaturq olaraq qalmamış həm də yüksək pedoqoji ustalığa malik bacarıqlı bir müəllim olmuşdur (3, s.198). O, qısa, lakin mənalı ömründə uşaqların fərdi xüsusiyyətlərinə yaxından bələd olur, onların başa düşəcəyi şəkildə dərsi izah etməyə çalışırdı. O, ömrünün axırına kimi müəllim işləmişdir. Gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olduğundan uşaq psixologiyasına daha dərindən bələd olmuş, onların yaş xüsusiyyətlərini nəzərə alaraq uyğun, müvafiq əsərlər yazmışdır. Onun yaradıcılığında uşaq əsərləri mövzu baxımından müxtəlif olsa da, zahirən dağınıq və sistematik görünsə də, onlar öz məzmun etibarilə vahiddir, tərbiyəvi əhəmiyyətinə görə məqsəd aydındır. Dahi sənətkarın arzusu gənc nəsli elə tərbiyələndirmək istəyirdi ki, o ictimai mühiti mümkün qədər dərin və ətraflı başa düşsün, əhatəsində baş vermiş hadisələri düzgün qiymətləndirməyi bacarsın.

1882-ci il oktyabr ayının 24-də Naxçıvan şəhərində anadan olan Hüseyn Cavidin uşaqlıq və gəncliyi bu qədim şəhərdə keçmişdir. XIX əsrin 1980-ci illərində teatrın yaranması, 1990-cı illərdə yeni üsullu məktəblərin açılması doğan yenilik günəşinin ilk şəfəqləri idi. Belə bir mühitdə böyüyən, M.T.Sidqi kimi görkəmli maarifpərvər ziyalının yanında təhsil alan H.Cavidin şeirə, sənətə marağını təsadüfi hesab etmək olmaz.

H.Cavidin atası Molla Abdulla ruhani idi (2, s.9). Məlahətli səsi olduğundan, xüsusən, məhərrəmlik təziyəsində oxuduğu mərsiyə və sinəzənlərlə tanınırdı. Onu, hətta məhərrəmlik vaxtı Qafqazın müxtəlif şəhərlərinə dəvət edirdilər.

H.Cavid 12-13 yaşlarında yaradıcılığa başlamış, "Gülçin" təxəllüsü ilə Azərbaycan və fars dillərində şeirlər yazmışdır.

Klassik üslubda olan bu ilk qələm təcrübələri, eləcə də sonrakı illərdə yazdığı başqa şeirlər H.Cavidin Şərq poeziyasını mükəmməl öyrəndiyini təsdiq edirdi.

1905-ci ildə H.Cavid təhsil almaq üçün İstanbula gedir. İstanbulda oxuduğu illərdə Cavid bir sıra lirik şeirlər yazmışdır. "Rəqs", "Hər yer səfalı", "Çəkinmə, gül", "Son baharda", "Ah, yalnız sən!" və s. Bu şeirlərdə formaca bəzi yenilik nəzərə çarpsa da, məzmunca əvvəlki şeirlərindən fərqlənmirdi.

Azərbaycan ictimai fikri inkişafında XX əsrin birinci rübü yeni bir mərhələdir. Tarixən bu dövrün də özünəməxsus mürəkkəbliyi, ziddiyyətləri və təlatümü olmuşdur (1, s. 69). XX əsrin əvvəllərində milli şüurun oyanması elm, maarif və mədəniyyətin çiçəklənməsi, həm də bunların ardınca bir sıra maarif ocaqlarının, nəşriyyatların, kitabxanaların yaradılması böyük irəliləyiş idi. Bu dövrdə dilimizin, ədəbiyyatımızın, tədrisi, yeni-yeni məktəblərin açılması, xüsusilə qız məktəblərinin sayının artması, demokratik fikirli insanların, ziyalıların çoxalması üçün şərait yaranmışdır. Romantik təbiətli maarifpərvər şair nədən yazırsa-yazsın, onu xalqın əhvali-ruhiyyəsi gəncliyin gələcək taleyi onu həmişə düşündürmüşdü. H.Cavid elm və maarifin yayılmasında, xalq kütlələrinin savadlanmasında, xüsusilə, yeni nəslin təhsil və tərbiyəsində xidmətiləri olan bir sənətkardır.

XX əsr, Azərbaycan xalqının elm, təhsil alması üçün savadsızlığı, geriliyi və cəhalətin ləğv olunması, hamının təhsil almaq hüququna malik olması fikrini irəli sürürdü.

Bu dövrdə tərəqqipərvər ziyalıları, müəllimləri bir vacib məsələ düşündürürdü: Yeni üsullu məktəblərin açılması, yeni dərs vəsaitlərinin hazırlanması. Eyni zamanda bu dövrdə uşaqlar üçün əsər yazan sənətkarların da az da olsa, sayı artmağa başladı ki, onlardan biri də Hüseyn Caviddir. Bu romantik mütəfəkkir şair, dramaturq, publisist, gözəl müəllimin Azərbaycan uşaq ədəbiyyatının inkişafında, zənginləşməsində böyük xidmətləri olmuşdur. Bu mövzunun istiqamətinə uyğun olaraq Hüseyn Cavidin yaradıcılığında uşaq əsərlərinə xüsusi diqqət yetirilmişdi.

XX əsr Azərbaycan uşaq ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan bu romantik şair, uşaq əsərlərinə də xüsusi əhəmiyyət vermişdir. Əsrin əvvəllərində Azərbaycanda milli məktəblər şəbəkəsinin nisbətən genişlənməsi və ana dilində dərsliklərin uşaqlar üçün oxu materialının olmaması, digər tərəfdən də uşaqların təlim-tərbiyəsi və təhsili belə ziyalıları düşündürdü. Məhz bu yolda Hüseyn Cavid də öhdəsinə düşəni etməyə çalışaraq uşaq ədəbiyyatına dəyərli töhfələr vermişdir.

Hüseyn Cavid uşaqlar və yeniyetmələr üçün yaratmış olduğu sadə, yığcam, lakin konkret fikirlərlə böyük məna kəsb edən əsərlər yazmışdır. Onun "Qız məktəbində", "Sevinmə, gülmə quzum", "Öksüz Ənvər", "İlk bahar", "Çiçək sevgisi", "Qoca bir türkün vəsiyyəti", "Hərb və fəlakət", "Kiçik sərsəri" və s. orijinal əsərləri uşaq yaşına və psixologiyasına uyğun olaraq onlarda dünyagörüşün, əqlin, təfəkkürün, bədii zövqün və təxəyyülün formalaşmasına təsir edir.

Hüseyn Cavid bir şair dramaturq olaraq qalmamış, həm də yüksək pedaqoji ustalığa malik bacarıqlı bir müəllim olmuşdur (5, s.138). O, dediyi fənni tədris edərək eyni zamanda uşaq psixologiyasına da yaxından bələd olmuş ayrı-ayrı fərdlərlə ünsiyyətdə olaraq onların xarakterik xüsusiyyətlərini öyrənmişdi. Mən deyərdim ki, uşaq əsərlərinin yazılması fikri də məhz buradan irəli gəlmişdir. Bu da Hüseyn Cavidin uşaq aləminə yaxından bələd olması bununla əlaqədardır.

H.Cavid pedaqoji fikir tarixində mühüm yer tutan, onun inkişaf yolunda silinməz izlər buraxan, çoxşaxəli tarixi xidmətlərin sahibidir. O, xalqını dünya miqyasında, müasir mədəni inkişaf səviyyəsində görmək istəyirdi.

"Yeni iqbal" qəzeti belə yazır ki: "Hüseyn Cavid Əfəndi Qafqaziya islamlarının ən dərin düşüncəli və incə duyğulu, əməlpərvər, həqiqi şairidir. O Qafqaz müsəlmanlarının ən birinci maarifpərvər şairdir" (4, s.63).

H.Cavid vətənpərvər şair idi. Xalqını, millətini, Vətənini dərin bir məhəbbətlə sevir, ana dilimizə sevgi hissi ilə yanaşırdı.

O, bütün dilləri öyrənib bilməyin tərəfdarı idi. Lakin öz dilimizi bütün zənginlikləri ilə öyrənməyi, sonra xalqın tərəqqisinin, maarifin, mədəniyyətin inkişafında olduğunu əsas, yeganə yol hesab edirdi. O, məktəblərdə ana dili təlimini müdafiə edənlərdən biri olmuşdur.

H.Cavid XIX əsrin axırı XX əsrin əvvəllərində milli məktəblərimizdə ana dilində dərs saatlarının az, rus dilində dərs saatlarının çox olmasına qəti etirazını bildirirdi. Çünki belə vəziyyət davam edərsə, məktəb şagirdlərinin "tarixlərindən, köklərindən xəbərsiz" olacağı üçün narahatçılıq keçirirdi.

Bütün bu böyük fəaliyyəti ilə yanaşı o həm də ana dilinin tədrisini sadəcə təbliğ etmirdi. O, bir çox məktəblərdə "Şəfa", "Rüştiyyə", "Aliyevo uçenie" məktəblərində ana dili və ədəbiyyat fənnindən dərs deyərək bu işdə bilavasitə əməli fəaliyyət göstərirdi.

Şair xalqımızın tərəqqisində, maarif və mədəniyyətimizin inkişafında doğma dilimizin tədrisinin inkişafına biganə olanları açıq-aşkar tənqid edərək onları vətən dilini öyrənməyə çağıraraq belə söyləyir:

Həll eyləmək qolayca gərək tez bu müşkülü
Bilsin Vətən cocuqları əvvəl Vətən dili
Gəlməz nə sayə görməsə bülbül çəməni, gülü
Təsdiq edər danışdırsan, hər bir aqili.

H.Cavid dərs dediyi məktəblərdə dərs vəsaitinə ehtiyac olduğunu da hiss edir. Dərslik kitabları yazmağa təşəbbüs göstərir. Belə ki, 1919-cu ildə A.Şaiqlə yaxın dost olan H.Cavid ikisi birlikdə "Ədəbiyyat dərsləri" adlı dərs vəsaiti hazırlayıb çap edirdilər. Bu dərs vəsaiti pedaqoji ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir.

Cavid müəllim sinifdə dərs deyərkən mövzuları elə canlı və şirin izah edirdi ki, şagirdlər həm müəllimi, həm də onun fənnini sevirdilər. Onun rəftarı, sakit danışıqları hər bir mövzunu özünəməxsus üsuli ilə başa salırdı.

Hüseyn Cavidin uşaq ədəbiyyatındakı fəaliyyəti, yəni irə-

liyə sürdüyü məsələlər həm aktualdır, həm də mənalı olduğu üçün dəyərini itirməmişdir. Çünki onun uşaqlar üçün yazdığı əsərlər həm də böyüklərin də diqqətini özünə cəlb edir. Oxucusunun qəlbinə asanlıqla daxil olur, onu intizarda qoyur, sevindirir, ruh yüksəkliyi yaradır və s.

Elə bu baxımdan Hüseyn Cavid artıq romantik şair kimi yox, həqiqətən, bədii realist uşaq ədəbiyyatının şairi olmağa çalışmışdır. Şairin əsərlərindən, həyat təcrübəsindən irəli gələn xalq müdrikliyi tərənnüm edilir. Buna görə də onun yaratmış olduğu uşaq əsərləri, gənc nəslin tərbiyəsində böyük rol oynayır.

Hüseyn Cavidin uşaq əsərlərini məzmun-mündəricə baxımından iki qismə ayırmaq olar: birinci qisim şeirlərində bu sahənin klassikləri kimi Hüseyn Cavid də uşaqların ətraf aləm haqqında tanışlığı, bilik və təsəvvürlərinin genişləndirilməsinə çalışır. Məsələn: "İlk bahar" şeirində olduğu kimi. İkinci qisim şeirlərində isə daha çox özünün pedaqoji baxışlarını, tərbiyə haqqında fikirlərini ön plana çəkir. Nümunə olaraq "Öksüz Ənvər", "Qız məktəbində" və s. şeirlərində olduğu kimi "İlk bahar" şeiri kiçik yaşlı məktəblilərə baharın gəlişini, quşların oxumasını, təbiətin füsünkar gözəlliklərinin portretini bədii boyalarla təsvir edir.

Bahar, bahar gəlmiş, yenə ilk bahar,
Güllər, çiçəklər gülər, quşlar oynar
Göyün altun saçlı qızı nur saçar...
Bir yanda məktəbli bir çox qız, oğlan
Oynaşıb oquşur hər bir ağızdan.
Əl-ələ, qol-qola şadan olurlar
Haqqın qüdrətinə heyran olurlar.

"Öksüz Ənvər" şeirində Ənvərin sıxıntılı həyat tərzini üzüntü ilə izləyirik. Ənvərin doqquz yaşı var. Təlim-tərbiyəsi və yaxşı təhsili ilə seçilən uşaqdır. Atadan yetim qalan Ənvərin indi də anası ağır yataqda yatır. Bütün fikirləri anasının yanında olan Ənvərin dərslərdə həmişəki kimi özünü aparmaması, danışdıqda gözlərindən yaşların tökülməsi, ancaq fikri və xəyalı anasının

yanında qaldığından müəllimlərin söylədiklərini eşitmir və bir şey anlamır.

Dalıb, dalıb gediyor, dərs için, vəzifə için
Tokat yeyirsə də, biçarə susmuş ağlamayır.

Ənvər səkkiz gündür ki, dərsə getmir, çünki anası dünyasını dəyişmiş, bu ağrıya dözməyən Ənvər anasının məzarı başında ağlayır. Sonra bayqın hal keçirir. Müəllimə gəldikdə isə Ənvər onu bir şagird kimi maraqlandırırdı. Əgər həmişə yaxşı oxuyan uşaq bu gün zəif oxuyursa, müəllimə onun bu halı ilə maraqlanmalı, səbəbini öyrənməlidir.

Ənvər səkkiz gündür dərsə gəlmir, nə müəllimi onunla maraqlanır nə də şagird yoldaşları. Müəllif belə bir hala düçar olan Ənvərin qəlb sarsıntılarını, körpə hisslərinin üzüntülərini qələmə almaqla yoldaşlarının bir-birinə arxa, kömək olmağa çağırır. Çünki bu hər bir insanın başına gələn bir hadisədir. Müəllim uşaqlara laqeyd olmamalıdır. Bu pedaqoji tərbiyənin şərtlərindən biridir.

İnsan sevgisinin tərənnümü, insanın insana məhəbbəti, şəxsiyyətlə zaman arasında təzadlar, bəşəri kədər Hüseyn Cavid lirikasında başlıca məsələ olduğu kimi insanlarda sadəlik, ləyaqət hissinin tərənnümü də diqqəti cəlb edir. Bu baxımdan şairin "Qız məktəbində" şeirinə diqqət verək:

-Qızım, yavrum adın nədir?
- Gülbahar
-Pəki, sənin anan, baban varmı?
-Var
-Nasıl, zənginmidir baban?
-Əvət, zəngin, bəyzadə...
-Öylə isə geydiyin geyim neçin böyle sade?
Yoxmu senin incilerin altun bilerziklərin?
- Var, əfəndim, var... Lakin
- Müəlliməm hər gün söylər, onların yox qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti
- Çox doğru söz... Bu dünyada sənin ən çox sevdiyin,

Kimdir, qızım, söylərmisən?
- Ən çox sevdiyim, ilkin
O Allah ki, yeri-göyü, insanları xəlq eylər,
- Sonra kimlər?
- Sonra onun göndərdiyi elçilər,
- Başqa sevdiklərin nasıl, yokmu?
- Var...
- Kimdir onlar?
- Anam, babam, müəlliməm, bir də bütün insanlar.

Cavidin bu kiçik şeiri onun böyük ideyalarını göstərmək üçün kifayətdir. Sadəlik, səmimilik, var-dövlətə uymamaq, valideynlərə, müəllimə ehtiram kimi nəcib keyfiyyətlər insan şəxsiyyətini ucaldan məziyyətlər kimi mənalandırılmışdır.

"Sevinmə gülmə, quzum"! adlı şeirində Hüseyn Cavid insan şəxsiyyətinin təşəkkülündə tərbiyənin rolu çox yüksəkdir. Şeirdə qeyd edilir ki, birinə ağır fəlakət üz verərsə, bu hala sevinmək lazım deyildir. O, "zavallıların", "bikəslərin" qəlbinə toxunmamağı məsləhət edir (7, s.45).

Hüseyn Cavid əsərlərində irəli sürdüyü ideyanı, elmi məlumatları, həyat hadisələrini elə maraqla, elə real şəkildə ifadə edir ki, hər bir uşaq həmin məlumat və hadisələri aydın dərk edir, düşünür, müqayisə edir, müstəqil mühakimə yürüdə bilirdi. Hüseyn Cavidin əsərlərində əsas ideya əxlaqi keyfiyyətlərlə yadda qalır. Bu keyfiyyətləri uşaqlara çatdırmaq üçün həmişə mənfi və müsbət keyfiyyətləri yaxşılıq-pislik, sadəlik-təkəbbürlük, təvazökarlıq-loğvalıq, xeyirxahlıq-bədxahlıq, tənbəllik-işgüzarlıq və s. bir-birilə qarşılaşdırılır. Bunların hansının yaxşı keyfiyyət və hansının pis sifət olduğunu uşaqlara əsaslı sübutlarla izah edirdi. Bu da əsərdə irəli sürülən tərbiyəvi ideyanın şüurlu surətdə mənimsənilməsini təmin etməklə uşaqlarda müstəqilliyi, təşəbbüskarlığı və fikir fəallığını yüksəldir.

Hüseyn Cavidin pedaqoji-metodik fikir tarixində mühüm əhəmiyyətli işlərindən biri də XIX əsrin axırları XX əsrin əvvəllərində yeni dərs vəsaitlərinin hazırlanmasında olan xidmətləri-

dir. Dərs vəsaiti yazmağa təşəbbüs göstərən şair Abdulla Şaiqlə birgə, 1919-cu ildə "Ədəbiyyat dərsləri" adlı dərslik hazırlamışlar ki, bu da pedoqoji ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir (9, s. 57).

Bütün bu deyilənlərdən aydın olur ki, Hüseyn Cavid gənc nəslin tərbiyə olunmasında uşaq ədəbiyyatına böyük töhfələr vermişdir.

## ƏDƏBİYYAT


1. Axundov A., Əfəndiyev E. İşıqlı adamlar // (Naxçıvanın görkəmli adamları haqqında) Bakı "Hüquq ədəbiyyatı nəşriyyatı", 2000, s.480
2. Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı // Bakı, Elm, 2008
3. Əhmədov H. Azərbaycan məktəb və pedoqoji fikir tarixi // Bakı, ABU, 2001, s.320
4. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi // Bakı Maarif, 1985, s.300
5. Əsgərzadə L. Hüseyn Cavid və Şərq. Naxçıvan Əcəmi nəş. 2005, s.208
6. Hüseynov R. Əbədi Cavid. Bakı, Nurlan, 2006
7. İsmayılova N. Naxçıvan ədəbi mühiti: uşaq ədəbiyyatının inkişaf istiqamətləri və problemləri. (**dərs vəsaiti**) Bakı: "Elm və təhsil nəş. 2016 s.180
8. Turan A. Hüseyn Cavid. Bakı, Vektor, 2007
9. Türkekul M.H. Azərbaycan Türk şairi-Hüseyn Cavid. Bakı, 2002

**Sevda QASIMOVA**
*AMEA Folklor İnstitutu*
*sevda.qasimova.61@mail.ru*

# HÜSEYN CAVİD İRSİ PROFESSOR CƏLAL QASIMOVUN TƏDQİQATLARINDA

**Xülasə**

XX əsr Azərbaycan ədəbiyyatının əsas simalarından, şəxsiyyətlərindən sayılan, yaradıcılığı ilə ədəbiyyatımızın böyük hissəsini təşkil edən H.Cavid sənəti bəşəri ideyalarına görə özünəməxsus yeri olan dəyərli simalardan biridir.

Hüseyn Cavid dramaturgiyasında dövrün böyük ictimai-siyasi əhəmiyyətə malik olan problemlər öz əksini tapmışdır.

Əsərlərində müdrükliyi və kamilliyi ustalıqla birləşdirən şair şöhrət qazanmışdır. O məzlumlara fəlakətdən qurtulmağın yolunu da göstərirdi. Onun üçün insanların taleyini düşünmək daha maraqlı idi. O azad yaşamaqla bərabər, düşüncə və fikir azadlığı uğrunda da mübarizə aparmışdır.

Cavidin əsərləri tarixə, tarixi yaddaşa söykənir. Qəhrəmanlarının uzaq ellərdən, uzaq illərdən gəlməsi türk ruhlu olduğundan xəbər verir.

**Açar sözlər:** repressiya, romantik, şeir, dramaturq, əsər

# HUSEYN JAVID'S HERITAGE IN JALAL GASIMOV'S ACTIVITY

**Summary**

The works of Huseyn Javid, who is considered one of the main figures, poets of the 20th century, whose work makes up most of our literature, is also a valuable person who has a peculiar place due to his universal ideas. Huseyn Javid's dramaturgy reflected problems that were of great socio-political importance

for that era. The poet, combining wisdom and perfection in his works masterfully, gained fame. He also showed the oppressed the way to escape from disaster. He was much more interested in thinking about the fate of people. He fought not only for a free life, but also for the freedom of ideas and thinking. H.Javid's works are based on history, historical memory. The fact that his characters coming from the distant countries and years indicate the Turkic spirit.

**Key words:** literature, drama, wisdom, enemy, history, luck

## НАСЛЕДИЕ ГУСЕЙНА ДЖАВИДА В ТВОРЧЕСТВЕ ДЖАЛАЛА ГАСЫМОВА

### Резюме

Творения Гусейна Джавида, который считается одним из главных деятелей, поэтов XX века, творчество которого составляет большую часть нашей литературы, также является ценной личностью, имеющей своеобразное место благодаря своим общечеловеческим идеям.

В драматургии Гусейна Джавида нашли отражение проблемы, которые имели большое общественно-политическое значение для той эпохи. Поэт, мастерски сочетав мудрость и совершенство в своих произведениях, обрел славу. Он, также указывал угнетенным путь к спасению от бедствия. Ему было гораздо интереснее думать о судьбах людей.

Он боролся не только за свободную жизнь, но и за свободу идеи и мышления. Произведения Джавида опираются на историю, историческую память. Тот факт, что его герои родом из дальних стран и далеких лет, указывает на тюркский дух.

**Ключевые слова:** литература, драматургия, мудрость, враг, история, Удача

Azərbaycan ədəbiyyatında romantizmin cərəyanının görkəmli nümayəndəsi Hüseyn Cavid milli poeziyamızda romantik şeirin və mənzum faciənin banisidir.

Görkəmli sənətkar sovet repressiya maşınının ən ağır sınaqlarına dəyanətlə davam gətirmiş, bolşevik-daşnak qaniçənlərinin uydurduqları ağır ittihamları qətiyyətlə rədd etmişdir. "Mənim tanrım gözəllikdir, sevgidir" deyən söz ustadı kommunizmin çürük ideyalarına inanmamış və bu ideyalarla öz yaradıcılığına xələl vurmaq istəməmişdir. Bəşəri ideyalar, insani duyğular, ilahi məhəbbət, paklıq və ucalıq Cavid yaradıcılığının əsas qayəsi olmuşdur.

Bu məqalədə iyirminci əsr Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı, akademik İsa Həbibbəylinin "repressiyaşünaslığımızın Qulam Məmmmədlisi" (1, 4) adlandırdığı filogiya elmləri doktoru, professor Cəlal Qasımovun Cavid Əfəndinin həyat və yaradıcılığına dair elmi araşdırmaları mövzusundan bəhs olunur.

Ötən əsr Azərbaycan ədəbiyyatından söz düşəndə böyük mütəfəkkir, şair, dramaturq Hüseyn Cavidi xatırlamamaq olmur. Qəribədir ki, bu gün Vikipediyadan Azərbaycan şairi, yazıçı və dramaturqu Hüseyn Abdulla oğlu Rasizadə haqqında məlumat almaq istəsək, onun təvəllüdündə "24 oktyabr 1882, Naxçıvan, İrəvan quberniyası, Rusiya imperiyası"nda anadan olub, "5 dekabr 1941, Tayşet rayonu, İrkutsk vilayəti"ndə vəfat etdiyini öyrənərik. Bu təqdimatın nəyi və necə əks etdirdiyinə məsuliyyəti tərtibçilərin öhdəsinə (vicdanına) buraxaraq, Hüseyn Cavidin əsərlərindəki ideyaları ilə ilk növbədə bəşəri söz, fikir sahibi kimi daim ucada duracağına, oxunduqca daha dərindən kəşf olunacağına, kəşf olunduqca daha çox oxunacağına əminliyimi ifadə edirəm.

İstənilən tarixi şəxsiyyəti, şair və yazıçını tədqiq edərkən, sözsüz ki, ilk növbədə onun doğulub boya-başa çatdığı məkana və zamana, cərəyan edən ictimai-siyasi proseslərə, dünyaya baxışlar sisteminə nəzər yetirmək lazımdır. Professor Cəlal Qası-

mov da görkəmli şairimizi (bütövlükdə əksər şair və yazıçılarımızı, tarixi şəxsiyyətlərimizi – S.Qasımova) öyrənərkən bu əsrdən boylanarq yüz il öncəkiləri mühakimə etmək, bu günki baxışlar sistemi ilə o dövrün olaylarına dəyər vermək fikrindən uzaq durmuş, bunu öz tərəf müqabillərinə də, xələflərinə də tövsiyyə etmişdir. Bu mənada, Hüseyn Cavidin çox maraqlı həyat və yaradıcılığı digər tədqiqatçılar kimi, Cəlal Qasımovun araşdırmalarında da obyektiv və subyektiv amillər prizmasından çözülərək elmi dövriyəyə təqdim olunmuşdur.

Naxçıvanda molla məktəbində ilk təhsilini almış, Təbrizdə mədrəsə təhsili almaqla dini biliklərini artırmış, İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirdikdən sonra Gəncə, Tiflis və Bakıda müəllimlik etmişdir. 1926-cı ildə, Almaniyanın paytaxtı Berlində 7 ay müalicə olunarkən məhz orada dövrün eybəcərliklərini əks etdirən bir sıra siyasi-lirik və lirik-epik şeirlər yazmasını da nəzərə alsaq, Hüseyn Cavidin nə qədər geniş dünyagörüşlü, savadlı, eyni zamanda söz mülkündə bir vicdan adamı olduğunu, haqqın tapdanmasına göz yuma, susa bilmədiyi qənaətinə gələrik. Professor Cəlal Qasımov görkəmli sənətkara bu baxışlar sistemindən yanaşmış, onu olduğu kimi uca, pak, mətin bir insan kimi təqdim etməyə çalışmışdır.

XX əsr Azərbaycan ədəbiyyatının əsas simalarından sayılan, yaradıcılığı ilə bütün türk ədəbiyyatına yeni nəfəs gətirən Hüseyn Cavid istər sağlığında, istərsə də ölümündən sonra ədəbiyyatşünaslığın diqqət mərkəzində olmuş, həm şəxsiyyət kimi özü, həm də bənzərsiz əsərləri bir çox tədqiqatların əsas mövzusuna çevrilmişdir. Son bir əsrə yaxın dövrün az ədəbiyyatşünas alimi tapılar ki, Hüseyn Cavidi bir dramaturq, romantik poeziyamızın banilərindən təkrarolunmaz nümayəndələrindən biri kimi tədqiq etməsin. Bu illərdə ədəbiyyat tariximizin ən maraqlı, prinsipial, sözübütöv şəxsiyyətlərindən olan Cavidin arxiv sənədləri, onun sürgün həyatı, türkçülük, turançılıq məfkurəsi neçə-neçə alimin araşdırma mövzusuna çevrilmiş, tariximizin qanlı səhifələrinə işıq tutmuş, bolşevik-daşnak irticasının, qaniçənliyi-

nin iç üzünü açıb göstərmişdir. Hüseyn Cavidi bütövlüyü ilə original şəkildə tədqiq edən, onun əsərlərinə elmi yanaşma tərzi ilə yeniliklər gətirən professor Cəlal Qasımov illərlə çəkdiyi zəhmətin bəhrəsini böyük ədib haqqında məqalə və monoqrafiyada və "Cavidi məhbəsə aparan yol", "Birinci Türkoloji Qurultay: Şahidlər və Şəhidlər" kitablarında görmüşdür. Alimin digər kitablarında da, o cümlədən "Əsrin qiyamət çağı", "Siyasi repressiya həyatda və ədəbiyyatda", "Ədəbi məhkəmələr" bə başqa kitablarında ayrıca fəsil və yaxud mülahizələr şəklində rast gəlirik. Bütövlükdə müasir elmi mühit filologiya elmləri doktoru Cəlal Qasımovu Hüseyn Cavid yaradıcılığının novator tədqiqatçısı kimi qəbul edir və bu təqdirəlayiqdir. Həyat və yaradıcılığı özünəməxsusluğu ilə seçilən Hüseyn Cavid bu maraq dairəsindən kənarda qalmamışdır. Görkəmli alim uzun müddət müxtəlif arxivlərdə çalışaraq böyük sənətkarın möhtəşəm tarixi portretinə yeni rəngləri qatmağı, eyni zamanda Cavid yaradıcılığını hərtərəfli əhatə edərək elmi diskussiyaya gətirmək üçün ədəbi proseslərin və ədəbi cərəyanların incəliklərinə baş vurmağı bacarmışdır.

C.Qasımovun fikrincə, Cavid Əfəndi ilk növbədə mövzu seçimində müasirlərindən fərqlənirdi və seçdiyi hər bir mövzuya özünəməxsus tərzdə yanaşırdı. Bəzilərinin köhnə hesab etdiyi mövzular mütəfəkkir dramaturqun yaddaşdan qaynaqlanan müasirliyi idi. Çünki Cavid "Şeyx Sənan", "Peyğəmbər", "Topal Teymur", "Səyavuş", "Xəyyam" və başqa bu kimi əsərlərində köhnə mövzulara toxunmur, əksinə, türkün dünəni ilə bugunkü tarixi və taleyi arasında paraleliklər aparır, türkün milli mənəvi əxlaqi dəyər və sərvətlərini müdafiə, eləcə də özünəməxsus şəkildə mühafizə edirdi. Başqa sözlə desək, tarixiliklə müasirliyin vəhdətini yaradırdı.

Professor Cəlal Qasımov yazır: "Həqiqətən də, Cavidi məhbəsə aparan yol donoslardan və donosçulardan çox Cavidin özündən, ədəbi əsərlərində qaldırdığı milli ideyalardan, toxunduğu problemlərdən, türkçülüyündən, turançılığından, bəşəriliyindən, islami dəyərlərə sərvət kimi yanaşmasından, bir sözlə,

milliliyindən keçir. Çünki Hüseyn Cavid ZAMANLA ayaqlaşanlardan deyil, ZAMANA qarşı çıxanlardan idi.” (2, 67).

Alimin gəldiyi qənaət həm də onu deməyə əsas verir ki, H.Cavid düşüncə və təfəkkür azadlığını qoruyub saxlayan sənətkar idi. Onun bir çox müasirlərindən ən böyük fərqi də bu idi.

Cəlal Qasımov Cavidin zamandan və məkandan ucada durduğunu, zamana və məkana, zamandakılara və məkandakılara baş əymədiyi haqqında məntiqi fikirlərin onun əsərlərində də əks olunduğuna işarə edərək “Cavid tarixdə və tarix Caviddə” adlı məqaləsində yazır: “Zəmanənin sərhədlərini dağıdıb yırtan sənət əsəri isə vahid zaman və məkandan çıxaraq zamansızlaşır, əbədiləşir. Bu mənada Cavid sənəti də coğrafi hüdüdları aşaraq əbədiyyətə doğru gedən və hər hansı bir zaman tanımayan sənətdir”.

Bütün İranda, cümlə Balkanda,
Çırpınır qardaşın qızıl qanda,
İştə bu qətlgaha dönmüş yer,
Məhz ölən yüz deyil ki, yüz mindir (H.C.).

Göründüyü kimi, Cavid üçün məkan deyil, insanların taleyini düşünmək daha maraqlı idi. O azad yaşamaqla bərabər, düşüncə və fikir azadlığı uğrunda mübarizə aparırdı.

Əsərlərində müdrükliyi və kamilliyi ustalıqla birləşdirən şair şöhrət qazanmışdır. Hüseyn Cavid dramaturgiyasında dövrün böyük ictimai-siyasi əhəmiyyətə malik olan problemləri öz əksini tapmışdır.

O, məzlumlara fəlakətdən qurtulmağın yolunu da göstərirdi. Onun üçün dünyamızın taleyi, insanların zehni inkişafı, yaşadığı aləmə, gerçəkliklərə aydın baxışları əsas meyar idi.

Yaşamaq istəsən çalış, çabala,
Rədd olub gurla, bərq olub parla,
Yoxsa fəryadü nailə ziddir,
Bir həqiqət bu, əzməyən-əzilir.

Cavidin əsərləri tarixə, tarixi yaddaşa söykənir. Qəhrəmanlarının uzaq ellərdən, uzaq illərdən gəlməsi türk ruhlu oldu-

ğundan xəbər verir. Professor Cəlal Qasımov yazır: "...mütəfəkkir Cavid üçün VƏTƏN içində yaşadığın deyil içində yaşatdığındır. İçində yaşadığın VƏTƏN sərhəddən, içində yaşatdığın VƏTƏN isə milli yaddaşdan başlanır" (3, 501).

Hüseyn Cavid dramaturgiyasında dövrün böyük ictimai-siyasi əhəmiyyətə malik olan problemləri öz əksini tapmışdır. Repressiya illərində heç bir səbəb olmadan günahlandırılan Cavidin əsərlərində olan haqlı çağırışlar bəhanə olurdu. Cavidin bütövlüyü yaradıcılığı ilə şəxsiyyətinin birliyində özünü tapır.

H.Cavid əsərlərində müdrikliyi və kamilliyi ustalıqla birləşdirən şair kimi böyük şöhrət qazanmışdır. İnsan qəlbinin incə hisslərini, duyğularını hiss edən Cavid hər şeydən əvvəl sənətkardır. Dahi şəxsiyyət həyatı, insanın həqiqət uğrundakı arzularını, duyğularını çox yüksək formada tərənnüm edir. Onun dramlarının mövzusunu Şərq tarixindəki hadisələrin təsviri təşkil edir. Müəllif mütəfəkkir, sərkərdə və hökmdarlardan ibarət tarixi romantik surətlər yaratmışdır.

Cavidi Türk ruhlu, Turan məfkurəli, sülh, bərabərlik ideyalı bəşər övladını dərk etmək, onun dərin məna və məzmunlu əsərlərindəki bəzən vulkan kimi püskürən, bəzən də sakit axan sular kimi saf və duru ideyalarını canına, ruhuna hopdurmaq üçün professor Cəlal Qasımov ilk növbədə özü təsir altına düşür, sonra Cavid ideyalarının əsirinə çevrilərək bu ideyaların, amalların, arzuların carçısına çevrilir.

"Peyğəmbər"də qoyulmuş bir çox problemlər öz başlanğıcını "Şeyx Sənan"dan alır. Peyğəmbərin fəaliyyətində təkcə dini yox, həm də siyasi motivlər vardı. Belə ki, Peyğəmbər bütün ərəbləri birləşdirməyə çalışırdı. Cavid də bütün türk dövlətlərini birləşdirmək arzusundaydı".

Cavid sağlığında ən çox və ağır təqiblərə məruz qalan sənətkarlarımızdan biri idi. 59 illik ömrünün ən müdrik çağlarını sürgündə keçirmək həm də əzablı idi. Ancaq bütün bunlara cismən rəşadətlə dözən dramaturq yersiz tənələr qarşısında istər-istəməz mənəvi sıxıntılar keçirirdi. Yaşadığı dövrün, elə bu gü-

nümüzün də ən mütəfəkkir söz sahiblərindən olan böyük şəxsiyyət bəlkə də ən çox yersiz qınaqlara, səbəbsiz tənqidlərə məruz qalan şairlərimizdəndir. Cavidi ittiham edənlərə gəldikdə isə, alimin fikrincə, beləlləri üçün "VƏTƏN sərhədin içindəki, Cavid üçün isə həm də çölündəki idi. Deməli, Cavidin ədəbi qəhrəmanları da İrandan və Turandan deyil eyni mənşədən, eyni kökdən, eyni şəcərədən – milli yaddaşdan gəlirdi. Məqsəd də bu idi; Cavidin TURAN boyda olan VƏTƏN əxlaqını, VƏTƏNÇİLİK düşüncəsini yaddaşdan qoparıb Azərbaycan SSRİ coğrafi hüdudları boyda və biçimdə etmək. Bütün bunlar göstərir ki, Cavid vətəndən uzaq deyildi, əksinə VƏTƏNƏ bəlkə də hamıdan və hər kəsdən daha yaxın idi".

Yeri gəlmişkən, Cavid yaradıcılığının ən mükəmməl tədqiqatçılarından biri də alimin müəllimi AMEA-nın müxbir üzvü Kamran Əliyev idi. Məhz Cavidə, Cavid yaradıcılığına yanaşmada hər iki mərhum alimin fikirləri bir-biri ilə uzlaşır, bir-birini tamamlayır: "Əsl yaradıcı şəxsiyyət olan Hüseyn Cavid hər yerdə, həmişə özüdür. Şeirlərində, poemalarında, dramatik əsərlərində həyatı, dünyanı necə tanıyır, necə anlayırsa, H.Cavid o cür də tanıdır və anladırdı:

Hər gülər üzdə olüm, qan görürəm,
Pək yaxın dostları düşmən görürəm".

Professor Cəlal Qasımov yazır: "Hüseyn Cavid düşüncə və təfəkkür azadlığını qoruyub saxlayan sənətkar idi. Onun bir çox müasirlərindən ən böyük fərqi də bu idi. Təfəkkür və düşüncə azad olanda nə əsər, nə də müəllif məkan və zaman tanımır. Elə total sistemdə məkan və zaman tanımayan sənətkarı və onun əsərini qəbul etmir, hər ikisini ləkələyib kənara atır. Sistem dəyişəndə isə Cavidlər yenidən doğulur və həmişəyaşarlıqlarını təmin edirlər. "İblis dərk ediləndə rədd edilir, mütəfəkkir dərk ediləndə qəbul olunur" tezisi də özünü bir daha təsdiqləyir" (4, 9).

Əslində qəhrəmanlarını uzaq illərdən, uzaq ellərdən gətirən Cavidə ən böyük qiyməti Azərbaycan xalqının dahi şəxsiyyəti ulu öndərimiz Heydər Əliyev verdi. Cavidin nəşi Azərbay-

cana gətirildi. Qızı Turan xanımın xahişi ilə atası bir günlük ya-şadığı evdə saxlanıldı və sonra doğulduğu torpağa –Naxçıvana aparıldı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə şairin ev müzeyi də yaradıldı.

## ƏDƏBİYYAT


1. Cəlal Qasımov. "Xalid Səid Xocayev" Bakı: Şirvannəşr, 2021, s.4
2. Cəlal Qasımov. "Cavidi məhbəsə aparan yol" Bakı: Nurlan nəşriyyat, 2007, s.67
3. Cəlal Qasımov. "Birinci Türkaloji Qurultay: Şahidlər və Şəhidlər " Bakı: Gənclik nəşriyyatı, 2019, s.501
4. Cəlal Qasimov. Köhnə Mövzuların"Gah İrandan, gah da Turandan"gələn qəhramanları, CARÇI express jurnalı № 4, 2022, s.9

**Sevinc ƏLİYEVA**
*AMEA Folklor İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*sevinc.k.aliyeva@gmail.com*

# HÜSEYN CAVİDİN DRAMATURGİYASINDA FOLKLORUN BƏDİİ-ESTETİK YERİ

**Xülasə**

Xalqın fikir və düşüncəsində xalq yaradıcılığı ən yüksək dəyərə malik ədəbi nümunələrdən biridir. İnsanlarda xəlqi, saf hisslər oyadan hikmətli sözlər, dastan, nağıl, bayatı və digər xalq yaradıcılığı nümunələri qədim dövrlərdən bu günə kimi öz hikmətini qoruyub saxlamışdır. Bu müdrik fikirlərin nə zaman və kim tərəfindən deyilməsindən asılı olmayaraq, onlara hər zaman sadə insanlar tərəfindən olduğu kimi, sənətkarlarımızın da ehtiyacı olmuşdur. El arasında şifahi şəkildə yayılmış bu folklor nümunələri bədii-estetik mahiyyət qazanaraq yazılı ədəbiyyat üçün də zəngin mənbə rolunu oynamışdır. Hüseyn Cavidin dramaturgiyasında folklorun bədii-estetik yeri bu gün də geniş şərh edilir. Belə ki, sənətkar öz yaradıcılığı boyu folklor nümunələrindən istifadə edərək müxtəlif problemlərin həllinə çalışmışdır.

**Açar sözlər:** Hüseyn Cavid, dramaturgiya, folklor, yazılı ədəbiyyat, bədii-estetik mahiyyət, atalar sözləri və məsəllər

# THE LITERARY-AESTHETIC PLACE OF FOLKLORE IN HUSEIN JAVID'S DRAMATURGY

**Summary**

Folk creativity is one of the literary examples of the highest value in people's thoughts and ideas. Wise words, epics, fairy tales, stale and other examples of folk creativity that evoke folk, pure feelings in people have preserved their wisdom from

ancient times to this day. Regardless of when and by whom these wise thoughts were said, they have always been needed by our literary writers as well as by ordinary people. These examples of folklore, which spread orally among people, gained a literary-aesthetic essence and played the role of a rich source for written literature. The literary-aesthetic place of folklore in Husein Javid's dramaturgy is widely interpreted even today. Thus, the literary writer tried to solve various problems using folklore examples throughout his work.

**Key words:** Husein Javid, dramaturgy, folklore, written literature, literary-aesthetic essence, proverbs

## ЛИТЕРАТУРНО-ЭСТЕТИЧЕСКОЕ МЕСТО ФОЛЬКЛОРА В ДРАМАТУРГИИ ХУСЕЙНА ДЖАВИДА

### Резюме

Народное творчество является одним из литературных образцов высшей ценности в мыслях и представлениях людей. Мудрые слова, былины, сказки и другие образцы народного творчества, пробуждающие в людях народные, чистые чувства, сохранили свою мудрость с древнейших времен до наших дней. Независимо от того, когда и кем были сказаны эти мудрые мысли, они всегда были нужны как нашим литераторам, так и простому народу. Эти образцы фольклора, распространявшиеся в народе устно, приобрели литературно-эстетическое содержание и сыграли роль богатого источника письменной литературы. Литературно-эстетическое место фольклора в драматургии Гусейна Джавида широко осмысливается и сегодня. Таким образом, писатель на протяжении всего своего творчества пытался решать различные задачи на фольклорных примерах.

**Ключевые слова:** Гусейн Джавид, драматургия, фольклор, письменная литература, литературно-эстети-

ческая сущность, пословицы.

Naxçıvanda ruhani ailəsində anadan olan Hüseyn Cavid ibtidai təhsilini mollaxanada, orta təhsilini isə Məhəmməd Tağı Sidqinin yaratdığı "Məktəbi-tərbiyə" ocağında almışdır. İlk şeirlərini xalq ədəbiyyatı ruhunda "Gülçin", "Salik" imzaları ilə yazan sənətkar "Cavid" təxəllüsü ilə ruhumuzu oxşamışdır. Folklordan qaynaqlanan həm lirik şeirləri, həm də dramları ilə ədəbiyyat tarixmizə və insanların qəlbinə yaşadığı dövrün problemlərini, siyasi-ictimai məsələlərini, ailə münasibətlərini, eləcə də mürtəce əxlaqi baxışları çox həssaslıqla qələmə alan sənətkar kimi həkk olunmuşdur. Nümunə üçün qeyd edək ki, əgər sənətkarın ilk mənzum pyesi olan "Ana" əsərində etibar, vəfa kimi gözəl xüsusiyyətlər qabardılırsa, "Maral" faciəsində isə ailə problemləri, mürtəce əxlaqi fikirlər xalq deyimlərinə istinad olunaraq tənqid edilir. Din və milli təəssübkeşlik kimi məsələlərin yer aldığı "Şeyx Sənan" əsərində də "haqq alınır, verilmir" deyimi də xalqın şüurundan, düşüncəsindən doğan fikirdir.

"Təbiət kimsəyə üz verməz, kimsənin əlində oyuncaq ola bilməz", - söyləyən sənətkar "Peyğəmbər", "Topal Teymur", "Səyavuş", "Xəyyam" kimi tarixi dramlarında müstəqil düşünən insanların həyatını, dünyagörüşünü qələmə almış, böyük şöhrət qazanmışdır. Sənətkarın əsərlərində xalq deyimlərinə geniş yer verilmiş, folklorun bədii-estetik gücünə söykənərək qiymətli fikirlər müzakiyə çıxarılmışdır.

Bilirik ki, anaların müqəddəsliyini Məhəmməd Peyğəmbərin hədisi gözəl ifadə edir: "Cənnət anaların ayaqları altındadır". Qadınların elmli-bilikli olması, öz hüquqlarını bilməsi Hüseyn Cavidin "Azər" poemasında bu cür (1928) tərənnüm olunur:

Bir yığın kor qılavuzluq yaparaq,
Göstərir zülməti aydın, parlaq.
Hər gülər üzdə ölüm, qan görürəm,
Pək yəqin dostları düşman görürəm.
Yurdu sarmış qabalıq, yaltaqlıq,

Yüksəliş varsa, səbəb alçaqlıq (3, 154).

Məlumdur ki, həm atalar sözü və məsəllərin, həm də öyüd-nəsihətlərin əsas ideyası insanların həyatında baş verən qüsurları, səhvləri, yalançılığı, lovğalığı, yaltaqlığı və s. üzə vurmaqdır. Müəllifi Mirzə Ələkbər Sabir ("Qarğa və tülkü") olan və bu gün artıq məsələ çevrilmiş "Olmasaydı cahanda sarsaqlar, yəqin ki, ac qalardı yaltaqlar" aforizmi də söylədiyimiz fikri daha da qüvvətləndirir. Zəmanəsində baş verən haqsızlıqlara həmişə etiraz səsini, qəzəbini ucaldan Hüseyn Cavidin "Peyğəmbər" əsəri də bu cəhətdən səciyyəvidir. Peyğəmbərin dili ilə ifadə olunan nümunəyə diqqət yetirək:

Öylə bir əsr içindəyəm ki, cahan
Zülmü vəhşətdə qovrulub yanıyor.
Üz çevirmiş də Tanrıdan insan,
Küfrü haqq, cəhli mərifət sanıyor.
Dinləməz kimsə qəlbi, vicdanı,
Məhv edən haqlı, məhv olan haqsız... (7, 145).

Və ya "Azər" poemasında Azərin dilindən söylənilən "zülmə qarşı durma, əyil" xalq ifadəsi hər zaman olduğu kimi, bu gün də öz aktuallığını qoruyub saxlayır:

Ölçülür pək qolayca xeyr ilə şər
Dedilər: "Zülmə qarşı durma, əyil!"
Dedilər: "Hərbə qoş, ya əz, ya əzil!"
Bən derim: "Həpsi laf, inanma, saqın!
Rəhbər olsun da qüvvətin, ağlın.
Yeri gəldikdə sülh için çabala,
Öylə yer var ki, hərbi alqışla.
Quzu gördünmü sev, o, kin bilməz,
Canavar qarşı gəlsə, parçala, əz.
Qüvvət üstündə varsa əqli-səlim,
Sana həp kainat olur təslim" (3, 161).

Şifahi xalq ədəbiyyatında da əxz olunan, bəşər həyatının təməlini, əsasını təşkil edən yaşamaq duyğusu vicdanları oyadan, təmizləyən səmimi hissləri tərənnüm edir və dosta dost, düşmənə düşmən kimi baxmağı məsləhət görür:

Of!.. “Yaşamaq, yaşatmamaq” duyğusu
Günü-gündən vicdanları gürlətir.
İnsanların bəncə ən uğurlusu
“Yaşatmaq” zevqini duyan kimsədir.
Hiç bir şərəf verməz xudkamlıq sana,
Yüksəlmək istərsən, acı düşmənə (3, 194).

Sənətkar “çəkişməsən bərkiməzsən, çətinliyə düşməyən rahatlığın qədrini bilməz” kimi xalq deyimlərini xatırladaraq insanların azad ikən əsarət altında yaşamasını vurğulayır və bu bəlalardan qurtuluş yolunu elmdə, bilgili olmaqda görür. Bu hikmətli deyim bu gün də səciyyəvidir:

Şərqə görə o diyarda azad ikən düşüncə,
Yazıq!.. Yenə mümkün deyil didişmədən qurtulmaq.
Artdıqca bilgilər artar ehtiras,
Hiç fərqi yoq, əski tas … (3, 194).

Cihan bir bataqlıq… insan adında
Bir yığın möhtəris böcəklə dolmuş.
Bir-birini yeyib yaşarlar onda,
Hər kim gücsüz olmuş, həmən boğulmuş,
Hər şey yalan, güclü olmağa çalış!
Əzilməyə deyil, əzməyə çalış (3, 194).

Fikirlərini xalq ədəbiyyatına istinadən söyləyən və həyati faktlara arxalanan görkəmli sənətkarın əsərlərinin əsas qayəsi budur ki, şifahi xalq ədəbiyyatı nümunələri bəşər həyatının əsasını təşkil edir.

Sənətkar əsas misiyaları yaşamaq və yaratmaq olan insanların cəmiyyətdəki necə böyük əhəmiyyətə və qiymətə sahib olduğunu aşağıdakı şeir nümunəsi ilə izah edir:

Sən nə mələksin, nə də bir qaplansın:
Nə gülsün, nə dikən… yalnız insansan.
Çalış, parla, yüksəl!
Unutma ancaq,
Yaşamaq bir haqsa, yaşatmaq da haq!.. (3, 195)

Və ya

Yaralı gönlümü dikənlər deşdi,
Kimdən vəfa umdum, qanımı içdi.
Cavan ömrüm fəryad içində keçdi,
Səadət əməli bir röya imiş (3, 225).

Hər işlətdiyi sözün, ifadənin sahibi olan Hüseyn Cavid nümunə göstərdiyimiz bu ibrətamiz ifadələrlə "vəfa hər kimsədən kim istədim, ondan cəfa gördüm", - söyləyən Məhəmməd Füzulini yada salır.

Daha sonra "Ana" dramını yazaraq "Sürüklənən bəşəriyyət qadınla yüksələcək", -söyləyən sənətkar uşaqların inkişafında irsiyyətlə bərabər, xalq yaradıcılığının, xalq ədəbiyyatının da böyük rol oynadığını nəzərə çatdırır. Bununla bağlı Hüseyn Cavidin başqa nəzərə çarpan bir fikri də var: "romalılar vaxtı ilə müharibələr zamanı əsirlər içərisindən ən alim və zəki adamları öz uşaqları üçün müəllim təyin edərmişlər. Sənətkar bu kimi tarixi faktlarla müllim rolunun böyüklüyünün təsdiqinə çalışır və deyirdi ki, bizim mühitdə müəllimlərin qədri, halimaişəti nəzərə alınsa, insan ağlamaqdan özünü saxlaya bilməz". H.Cavidin müəllimi Məhəmməd Tağı Sidqiyə "böyük ustad və cəlallı atamız", - deyə müraciət etməsi söylədiyimiz faktların əyani sübutudur (8, 3).

Sənətkar "Vəfalı Səriyyə" pyesində Rüstəmin fikirlərini də xalq ədəbiyyatı nümunəsi ilə tərənnüm edir: "Qoy məni öldürsünlər, amma ondan ayrılmaram. Çünki bizi sarıyan eşq zənciri o qədər möhkəm, o qədər qüvvətlidir ki, ayrılmaq da istəsəm, bacarmaram. Bu eşqə ölümdən başqa bir çarə yoxdur" (1, 8).

Aşağıda qeyd etdiyimiz şeir Qanpoladla İsmət arasında bağlanmış əhd-peymanın, saf münasibətin, təmiz eşqin tərənnümüdür. İsmətin barmağında daşıdığı həmin nişan üzüyü Qanpoladа olan saf sevgisinin, ləyaqətinin rəmzidir hansı ki, İsmət ölər, amma əhdinə, sevgisinə dönük çıxmaz. Əsərdə İsmətə vurulmuş dəliqanlı, zadəgən Orxanla İsmət arasındakı mübahisədə bu sevgi daha canlı nəzərə çarpır. İsmət bir daha barmağındakı

üzüyü göstərərək hiddətlənir:

İşdə barmağımda gördüyün nişan,
Qanpoladdan yadigardır mana,
Ömrüm olduqca bağlıyam mən ona,

Orxan:

Bir üzükdənmi eylərsən ihtiraz,

İsmət:

Əvət, bu zəncir ki, hiç qırılmaz! (4, 15)

Qeyd edək ki, İsmət təmiz ilqarın, sədaqətin mücəssiməsi olan bir türk qızıdır. O, yoxsul Qanpoladın mənəvi zənginliyinə könül vermişdir. Hüseyn Cavidin insanlarda nəcib əxlaqi keyfiyyətləri formalaşdırmaq üçün xalq ədəbiyyatının mühüm rol oynadığını göstərən, hikmətli fikirləri bizə aşılayan aforizm ruhunda olan şeirləri də var:

Yaşadan kainatı qüvvətdir,
Gücsüzün həp nəsibi zillətdir
Kim ki biganədir hüquqə, əvət,
Xain əllərdə məhv olur əlbət
Yaşamaq istərsən çalış çabala,
Rəd olub gurla, bərq olub parla (1, 54).

Sənətkarın "İblis" əsərində bilirik ki, insanlığa qənim kəsilən mürtəce qüvvələr də İblis surətinin timsalında xalq ruhunda təsvir olunur. Əsərdə türk qızı Rənanın "yerin, göyün sahibi olan Allaha itaət edin", - deməsi bir inciyə dönərək həm Quranda, həm də xalq yaradıcılında öz dərin mənasını qoruyub saxlamışdır:

Allah için eyləyin inayət,
İzlər bizi bir yığın fəlakət (5, 58).

Hüseyn Cavidə görə, hər cür mənəvi eybəcərliyin səbəbi zalimlikdədir. Zalimlik hər şeyi-insanlığı da, humanist hissləri də, haqqı-ədaləti də məhv edir. Bu mənəvi çirkinlik və qəddarlıq "Səyavuş" əsərində Səyavuşun dilində Gərgivəza bu cür söylənilir:

Zalim bağışlansa daha çox azar,

Məzlum için qazar ən dərin məzar (6, 224).

Sənətkar "zalimi bağışlamaq onun zülmünü daha da artırar" fikriylə əsərin mahiyyət və məzmununa uyğun tərbiyəvi fikir, fəlsəfi ideyaları təbliğ edir. Hüseyn Cavidin "Xəyyam" əsərində Xərabatinin Xəyyama cavabı da olduqca diqqətçəkəndir və burada da xalq deyimlərinin ruhu, ibrətamiz bir fikir öz əhəmiyyətini qoruyub saxlayır. Belə ki, o səxoşluğu tənqid edərək deyir ki, şərab insanın ağlını alıb onu hər cür riyakarlığa, bəlaya sövq edir:

Hakim olduqca yer üstündə şərab,
Anacaqdır səni hər rindi-xərab (7, 70).

Beləliklə, Hüseyn Cavidin dramaturgiyası Azərbaycan ədəbiyyatında folklorla yazılı ədəbiyyat arasında mühüm bir mərhələ təşkil edir. Onun yaradıclığı boyu istinad etdiyi xalq deyimləri və aforizmlər yazılı ədəbiyyatımızın inkişafına bir islahat qədər təsir göstərmişdir. Yazılı ədəbiyyatımızın xəlqiləşməsində böyük rol oynamışdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatının söz və fikir zadəganı Hüseyn Cavid. Tərt.edənlər: Aynurə Əliyeva, Sevil Əhmədova. Firudin bəy Köçərli adına Respublika Uşaq kitabxanası. Bakı: 74 s.
2. Cabbarlı C. Əsərləri. Dörd cilddə. II cild. Bakı: Şərq-Qərb nəşriyyatı, 2005, 360 s.
3. Cavid H. Əsərləri. Beş cilddə. I cild. Bakı: Lider nəşriyyatı, 2005, 256 s.
4. Cavid H. Əsərləri. Beş cilddə. II cild. Bakı: Lider nəşriyyatı, 2005, 352 s.
5. Cavid H. Əsərləri. Beş cilddə. III cild. Bakı: Lider nəşriyyatı, 2005, 304 s.
6. Cavid H. Əsərləri. Beş cilddə. IV cild. Bakı: Lider nəşriyyatı, 2005, 256 s.

7. Cavid H. Əsərləri. Beş cilddə. V cild. Bakı: Lider nəşriyyatı, 2005, 288 s.
8. Həbibbəyli İ. Məhəmməd Tağı Sidqi-160 / "Şərq qapısı" qəzeti, 24 yanvar 2015, № 16 (21.168)

**Səadət İBRAHİMLİ**
*AMEA Folklor İnstitutu*
*simurq1990@mail.ru*

# ƏBƏDİYAŞARLIĞIN ÜNVANI – HÜSEYN CAVİD

**Xülasə**

Çoxəsrlik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən, zənginləşdirən qüdrətli söz ustası Hüseyn Cavid öz yaradıcılığı ilə, dərin hikmətli və fəlsəfi poeziyası, təkrarsız dramaturji əsərləri ilə Azərbaycanda milli şüurun intibahına xidmət göstərmişdir. Müqtədir sənətkarın yaradıcılığındakı romantik coşqunluq ilk öncə türk millətinin sabahına olan sonsuz inamdan qidalanırdı. Sənətkarın "Əsərləri"nin I cildinə "Keçmiş günlər" (Tiflis, 1913), "Bahar şəbnəmləri" (Bakı, 1917) şeirlər silsiləsi və "Azər" (1920-1937) poeması daxil edilmişdir. Bütün yaradıcılığı insanda, təbiətdə və dünyada gözəllik axtarışlarından ibarət olan mütəfəkkir şair bu şeirlərində gözəlliyin pozulan qaydalarını nizama salmaqla məşğuldur. Odur ki, söz sənətinin bu böyük rəssamını yalnız geniş fəlsəfi mənada gözəlliyi axtara-axtara və gözəlliyə salınan işığın izi ilə axıracan başa düşmək olar. Əsərlərin imlasına toxunulmamış, dil və üslubunun qorunulmasına çalışılmışdır.

**Açar sözlər:** Hüseyn, lirika, üslub, romantizm, poeziya

# THE ADDRESS OF ETERNITY – HUSEYN JAVID

**Summary**

The mighty master of words Huseyn Javid, who developed and enriched the best traditions of centuries-old Azerbaijani literature, served the renaissance of national consciousness in Azerbaijan with his activity, deep wisdom, philosophical poetry and unique dramaturgical works. First of all, the romantic enthu-

siasm in the activity of the master was fueled by the boundless faith in the future of the Turkic nation. The first volume of the master's "Works" included a series of poems "Past days" (Tiflis, 1913), "Spring winds" (Baku, 1917) and the poem "Azer" (1920-1937). The poet, whose entire work consists in the search for beauty in human, nature and the world, is engaged in putting in order the violated rules of beauty in these poems. That is why this great artist of the art of the word can only be understood in the broad philosophical sense in the pursuit of beauty and in the footsteps of the light released into beauty. The spelling of the works was not touched and the language and style were tried to be preserved.

**Key words:** Huseyn, lyrics, style, romantics, poetry

## ЛИТЕРАТУРОВЕДЧЕСКИЙ АДРЕС – ГУСЕЙН ДЖАВИД

### Резюме

Гусейн Джавид является мастером слова, который развивает его в самых лучших традициях многовековой Азербайджанской литературе. Произведения мастера насыщены глубокой философской поэзией, неповторимой драматургией. Произведения мастера слова послужили возрождению Азербайджанского национального самосознания.

Бурная романтика в творчестве талантливого мастера опиралась на безграничное доверие в светлое будущее тюркского народа. В I томе книги "Произведения" было помещено следующее: "Прошедшие дни", (Тифлис, 1913), "Весенние росы" (Баку, 1917), ряд стихотворений и поэма "Азер" (1920 – 1937). Гусейн Джавид все свое творчество посвятил поиску красоты в людях, в природе, в мире, и в произведениях своих он пытается упорядочить изъяны красоты. Поэтому понять красоту до конца можно тогда, когда слово великого художника в широком философском смыс-

ле, достигает этой красоты. Повествование произведения не затронуты, язык и стиль по мере возможности сохранены.

**Ключевые слова:** Гусейн, лирика, стиль, романтизм, поэзия

Azərbaycan ədəbiyyatının böyük romantik şairi, Stalin repressiyası dövrünün qurbanlarından olan Hüseyn Cavidin yaradıcılığının öyrənilməsi bu gün də aktualdır. XX əsr Azərbaycan ədəbiyyatının inkişafında mütəfəkkir şair H.Cavidin yaradıcılığının müstəsna yeri var. Dil, üslub zənginliyi baxımından forma və məzmun yeniliyinin cəlbediciliyi onu dövrünün bütün müasirlərindən seçilməsinə gətirib çıxarmışdı.

Hüseyn Cavid bizim dramatik poeziyada qüvvətli bir faciənəvis, mənzum və romantik dramın yaradıcısı kimi unikal və şərəfli bir yer tutur. H.Cavid orijinal bir dramaturq kimi ədəbiyyat aləmində 1910-1912-ci illərdən tanınır. Hələ 1910-cu ildə yazdığı bir pərdəli ilk "Ana" səhnəciyi ilə o, gələcəkdə ustad faciənəvis olacağını vəd edirdi. Bu əsər öz maraqlı tragik situasiyası ilə diqqəti cəlb edir: böyük ürəkli ana öz balasının hələ isti meyiti üzərindən onun namərd qanlısına xilas yolu göstərir. Bəşəri analıq məhəbbəti şəxsi qisas duyğusuna qalib gəlir. Bu cəhət, insan ləyaqətinə inam, yüksək, ülvi duyğuların tərənnümü, sonralar Cavidin bütün əsərlərinin əsas məziyyətlərindən biri kimi meydana çıxır. 1913-cü ildə H.Cavidin "Keçmiş günlər" adlı ilk şeirlər məcmuəsi nəşr edilir. Bu lirik və romantik şeirlərdə şair müasir ictimai mühiti tənqid edir, köhnələn etiqadlara, din və fəlsəfələrə qarşı çıxır, eyni zamanda, fərdin arzuları ilə cəmiyyətin tələbləri arasındakı ziddiyyətləri açıb göstərməyi bir mütəfəkkir sənətkar, humanist şair kimi qarşıya qoyur. H.Cavidin mövcud həyatdan narazılığı, şairin narahat ruhu, ideya axtarışları onun "Bahar şəbnəmləri" adlı ikinci kitabında toplanmış şeirlərində də hiss olunur.

Uçar, uçar, yenə ruhum diyari-hüznə qoşar,
Uzaq, uzaq, pək uzaq bir mühit içində yaşar.

Soğuq, soğuq!.. Gecə keçmiş, bütün cihan susmuş,
Uzaqda inliyor ancaq zavallı bir bayquş.
Gözümdən uyqu çəkilmiş də çarpıyor qəlbim,
Nədənsə bilmiyorum, ah! Xeyli müztəribim (1, 51).

Romantiklər baxışlarında nə qədər ziddiyyətli, mütərəddid, mücərrəd, seyrçi olsalar da, müasir siyasi mübarizələrdən kənarda qala bilmirdilər. Humanizm, gələcəkçilik, xəyalpərəstlik, vəziyyətdən narazılıq, şikayət və üsyankar bir ruh, vətən məhəbbəti, Şərq ilə Qərb aləminin müqayisəsi, keçmişi idealizə, qadın məsələsi, dini modernizə meyli, inqilaba, azadlıq mübarizəsinə münasibət onların yaradıcılığında romantik şəkildə əks olunurdu.

Azərbaycan romantizminə gətirdiyi yeniliklər Cavid yaradıcılığını dünya romantizm nümunələrindən müəyyən qədər fərqləndirirdi. Cavid yaradıcılığının zənginliyi təkcə bədii-estetik mahiyyəti ilə deyil, eləcədə ictimai-siyasi ideya çəkisinə görə də tarixin istənilən zaman kəsiyində öz əhəmiyyətini və aktuallığını qoruyub saxlamaqdadır. Mütəfəkkir yazar ideyaları ilə XX əsr romantizmini zənginləşdirərək məhəbbət və həqiqətin dərkinə doğru yol başlayan yeni bir təkamülün əsasını qoyan Hüseyn Cavid, eləcə də Şərq və Qərb ədəbiyyat ənənələrinin vəhdətini yaratdı.

Dünya romantizm poeziyasının tarixi inkişaf qanunauyğunluqlarını aydınlaşdımaq, Şərqdə onun özünəməxsus cəhətlərini ümumiləşdirmək baxımından H.Cavid yaradıcılığı geniş imkan yaratdı. Cavid poeziyası öz gərgin mənəvi axtarışlarına, ülvi amalına görə Şekspir, Bayron, Şelli, Şiller, Göte, Lermontov və başqa dünya şöhrətli romantik şairlərin poeziyasına yaxındır.

Azərbaycan ictimai-siyasi həyatının doğru təsviri XX əsr şairləri arasında Cavid yaradıcılığında hamıdan zəifdir. Odur ki, onun Azərbaycan mühiti və ictimai həyatından bəhs edən əsas əsərləri tamam kənar ölkələrdən, hadisələrdən və tarixi, dini şəxsiyyətlərdən bəhs edən "İblis", "Şeyx Sənan", "Peyğəmbər",

“Topal Teymur” və “Səyavuş”a nisbətən kiçik və bir qədər də zəif görünür.

H.Cavid lirik-romantik şair idi. O, dünyaya, insanlara gözəllik meyarı ilə baxırdı. Başqa sözlə, gənc şair adəmi varlığı gözəlliyin, incəlik və zərifliyin pəncərəsindən seyr edirdi: “Mənim tanrım gözəllikdir, sevgidir” fikri onun həyata olan aşiqanə münasibətinin aydın bədii ifadəsi idi.

Şairin lirik əsərləri öz ideya-bədii xüsusiyyətləri, təsvir vasitələri ilə klassik Şərq, o cümlədən Azərbaycan qəzəl ədəbiyyatına bağlı olsa da, onun lirikasında hüzn-kədər, göz yaşı, bədbinlik motivləri qabarıq görünürdü. “Get”, “Məyus bir qəlbin fəryadı”, “Ah... yalnız sən”, “Bir xatirə”, “Çoban türküsü” və başqa şeirləri bu əhvali-ruhiyyənin bədii təcəssümündən ibarətdir. Bu cəhətdən “Çoban türküsü” şeirindən bir parçaya nəzər salaq:

Açmasın çiçəklər, gülməsin güllər,
Ötüşməsin şirin dilli bülbüllər,
Dərdim çoqdur ellər, ellər, ay ellər!
Yar-yar deyib gecə-gündüz ağlaram.

Öz yurdumda bir qəribdən seçilməm,
Əsir kibi bir dost, bir yaqın bilməm,
Cihan cənnət olsa, bir ləhzə gülməm,
Yar-yar deyib gecə-gündüz ağlaram (2, 351).

Azərbaycan poeziyasında fəlsəfi lirikanın təkrarsız nümunələrini yaradan Cavid ümumbəşəri problemləri humanizm mövqeyindən işıqlandıran mənzum faciələri və tarixi dramları ilə Azərbaycan dramaturgiyasında yeni bir mərhələ açmışdır. Milli bədii düşüncə tarixini mövzu baxımından və bir-birindən parlaq xarakterlərlə zənginləşdirən Hüseyn Cavid sənətkar şəxsiyyətinin bütövlüyünü nümayiş etdirən ibrətamiz həyat yolu keçmişdir. Şairin cənazəsinin uzaq Sibirdən vətəninə gətirilməsi, məzarı üzərində məqbərənin ucaldılması Cavidə və 1930-cu illərin repressiyalarına məruz qalmış minlərlə Azərbaycan ziyalısı-

nın xatirəsinə xalq ehtiramının təcəssümüdür.

Azərbaycan ədəbiyyatında ilk mənzum pyeslərin yaradıcısı olan monumental-romantik sənətkarın əsərləri 1920-30-cu illərdə səhnəmizin inkişafında əvəzsiz rol oynamış, neçə-neçə faciə, dram aktyorumuz məhz bu əsərlərlə yetişmişdir. Öz fəlsəfi, poetik və estetik konspesiyalarıyla "Cavid teatrı" hətta Cavidin əsərləri səhnədə oynanmadığı dövrlərdə belə öz təsir gücünü zərrəcə itirmədən yaşamışdır. Mütəfəkkir sənətkarın "Əsərləri"nin bu cildinə "Knyaz" (1928-1929) və "Səyavüş" (1933) mənzum faciələri daxil edilmişdir. İnqilabi mövzuda yazılmış "Knyaz" dramının ideyası Gürcüstanda sovet quruluşunun bərqərar olduğu dövrdən və həmin ərəfədə baş verən hadisələrdən alınmışdır. "Səyavüş" mənzum faciəsi isə fars-tacik şairi Əbülqasim Firdovsinin 1000 illik yubileyinə Hüseyn Cavidin hədiyyəsi idi. Faciədə qədim "Şahnamə" motivlərinə, çox geniş yayılmış və dəfələrlə işlənmiş "Səyavuş" dastanına tamamilə yeni, müasir mövqelərdən yanaşan Cavid tarixi keçmişdə də daha çox milli istiqlalla bağlı motivlər axtarır.

*Knyaz:*

Ya... Pək çocuqkən biz ədəb verdik ona,
Oqudub xeyli əmək verdik ona.
Adam olmuş, dəyişib baş-qulağı,
Şimdi bir adlı mühəndis yamağı.

Hənəfi Zeynallının ədəbi tənqidlə bağlı yazıları içərisində Hüseyn Cavid haqqındakı araşdırmaların xüsusi çəkisi vardır. Onun "Şeyda" xüsusunda qısa bir mülahizə" (1923), "Maral" xüsusunda qısa mülahizə" (1923), "H.Cavidin yazdığı "Pey ğəmbər" haqqında mülahizələrim" (1926), "Şeyx Sənan" haqqında mülahizələrim" (1926-1927) kimi əsərləri böyük mütəfəkkirin dramaturji irsinin araşdırılmasında ən dəyərli və mötəbər tədqiqatlardandır. Qeyd edək ki, bu məqalələr Hüseyn Cavid haqqında ilk sistemli tədqiqat əsərləri olmaqla yanaşı, böyük ədibin yaradıcılıq dünyasını bütün yönləri ilə aşkarlayan, bəhrələndiyi və təsirləndiyi qaynaqları incələyən, həmçinin obyektiv

yanaşma tərzi ilə seçilən araşdırmalar kimi əhəmiyyətlidir. Hənəfi Zeynallı Hüseyn Cavidin "Peyğəmbər" pyesinin zəif cəhətini onun hissiyyatdan doğmaması ilə bağlamış, dramaturqun bu əsərdə "qafasını zorladığını" vurğulamışdır. Araşdırıcının fikrincə, "Şeyx Sənan" kimi xalis romantik, "İblis" kimi canlı və məharətli əsər yaradan bir müəllifin "Peyğəmbər" pyesini daha kamil şəkildə işləyə biləcəyi şübhə doğurmur. Tənqidçi Hüseyn Cavidin dramaturji istedadının formalaşmasında və yaradıcılıq üslubunun müəyyənləşməsində Türkiyə ədiblərinin rolunu səciyyələndirmişdir (3, 180).

H.Cavidin əsərləri şəkilcə Əbdülhəq Hamidin, üslubca Tofiq Fikrətin, fəlsəfi cəhətdən isə Rza Tofiqin əsərləri ilə səsləşməkdədir.

1982-ci ildə hələ sovet rejiminin hökm sürdüyü bir vaxtda ümummilli lider Heydər Əliyevin təşəbbüsü və köməyi ilə xalqımızın dahi şairi, nadir sənətkarı Hüseyn Cavidin nəşi Sibirdən Azərbaycana gətirildi və dünyaya göz açdığı Naxçıvanda torpağa tapşırıldı. Müstəqilliyimizin ilk illərində isə ulu öndər böyük şairin əbədi uyuduğu məkanda onun məqbərəsini ucaltdırdı. O zaman müstəqil dövlətimizin qurucusu yeni epoxanın Cavidə münasibətini belə ifadə etdi: "Bilirsiniz ki, Hüseyn Cavidin həyatı, yaradıcılığı Azərbaycan üçün nə qədər dəyərli, əhəmiyyətli olub. Onun qoyduğu ədəbi-mənəvi irs bizim üçün nə qədər əhəmiyyətli və gərəklidir. Eyni zamanda, onun həyatı faciəli olubdur. Ancaq bu faciəli dövrlər onun yaradıcılığını Azərbaycan xalqının qəlbindən çıxara bilməyib, yaşadıbdır" (6).

## ƏDƏBİYYAT


1. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2005, 256 s.
2. Mir Cəlal, Firidun Hüseynov. XX Azərbaycan ədəbiyyatı. Bakı, "Maarif" nəşriyyatı, 1982. 428 s.

3. Vaqif Sultanlı. Azərbaycan ədəbi tənqidi, Bakı, “Nurlar” nəşriyyatı, 2019, 312 s.
4. http://anl.az/el/emb/HuseynCavid/tarix.htm
5. https://muallim.edu.az/news.php?id=18246
6. https://old.xalqqazeti.com/az/news/culture/105064

**Şəbnəm MƏMMƏDOVA**
*AMEA Folklor İnstitutu*
*Filologiya üzrə fəlsəfə doktoru*
*shebnem.memmedova1981@mail.ru*

# HÜSEYN CAVİD YARADICILIĞI ROMANTİK VƏ FOLKLOR ƏNƏNƏLƏRİ MÜSTƏVİSİNDƏ

**Xülasə**

Təqdim olunmuş məqalədə biz romantizm problemlərini tədqiq edən Azərbaycan alimlərinin araşdırmalarına əsaslanaraq H.Cavidin folklor və yazılı ədəbiyyatdan dramatik əsərlərində bu iki ünsürün necə istifadə etməsi məsləsinə toxunmuşuq. Adı çəkilən məsələni araşdırarkən belə qənaətə gəlirik ki, Cavid öz yaradıcılığında romantik obrazın hər iki qanadını birləşdirərək, mifoloji, dini və folklor motivlərindən geniş istifadə etməklə öz ideya-məzmununa görə heç də dünya çaplı yazıçıların yaratdığı keyfiyyətli nümunələrdən geri qalmayan orijinal faciə və dram əsərləri yaratmağa nail olduğunu göstərməyə çalışmışıq.

**Açar sözlər:** romantizm, istedad, şəxsiyyət, folklor ənənələri, dramatik janr, qəhrəman xarakteri

# CREATİVİTY OF HUSSEİN JAVİD İN THE CONTEXT ROMANTİC AND FOLKLOR TRADİTİONS

**Summary**

In the present article, based on the study of Azerbaijani scientists who study the problems of G. Javid's romanticism, folklore and written literature, we turn to the question of how these two elements are refracted in the dramatic works of the Azerbaijani author. As a result, we come to the conclusion that by combining in his work both wings of the romantic image and the widespread use of mythological, religious and folklore

motifs, Javid managed to create original dramas and tragedies that are not inferior in their ideological and content qualities to the best examples of world literature.

**Key words:** romanticism, talent, person, folklore traditions, dramatic genre, hero's character

## ТВОРЧЕСТВО ГУСЕЙНА ДЖАВИДА В КОНТЕКСТЕ РОМАНТИЧЕСКИХ И ФОЛЬКЛОРНЫХ ТРАДИЦИИ

### Резюме

В представленной статье мы, опираясь на исследование азербайджанских ученых, иизучающих проблемы романтизма Г.Джавида, фольклора и письменной литературы, обращаемся к вопросу как преломляются эти два элемента в драматических произведениях азербайджанского автора. В результате приходим к мысли о том, что, совмещая в своем творчестве оба крыла романтического изображения и широкого использования мифологических, религиозных и фольклорных мотивов, Джавиду удалось создать оригинальные драмы и трагедии, не уступающие по своим идейно-содержательным качествам лучшим образцам мировой литературы.

**Ключевые слова:** романтизм, талант, человек, фольклорные традиции, драматический жанр, характер героя

XX əsr Azərbaycan ədəbiyyatının yetirdiyi orijinal təfəkkür sahiblərindən olan Hüseyn Cavid dahi mütəfəkkir və dramaturq kimi tanınmaqla XX əsr milli mədəniyyətimizin ən qüdrətli nümayəndələrindən biri olmuşdur. Onun bənzərsiz yaradıcılığı keçən əsrin 40-cı illərindən başlayaraq tədqiqatçıları maraqlandırmış, bədii irsinin layiqincə dəyərləndirilməsinə səy göstərilmişdir. Hüseyn Cavid yaradıcılığına M.C.Cəfərov, İ.Həbibbəyli, M.Əlioğlu, K.Əliyev, Z.Əsgərli və digər ədəbiyyatşünaslar geniş yer vermişdir. Bunun nəticəsində sənətkarın ədəbi və

dramaturji irsi bu gün də müasir ədəbiyyatşünaslığın diqqət mərkəzində dayanmaqdadır.

H.Cavid yaşadığı mühitə, yaratdığı bədii gerçəkliyə, onu maraqlandıran sənətkarların ecazkar dünyasına yaradıcı rakursdan baxmağı bacarırdı. Rəngarəng yaradıcı istedada malik olan bu romantikin əsərlərində insan və onun çoxcəhətli fəaliyyətinə müxtəlif yönlərdən nəzər salınmışdır. H.Cavid şəxsiyyətinin mənəvi varlığını yalnız onun əsərlərinin mahiyyəti ilə tanış olduqda dəyərləndirmək mümkündür. Bununla belə, onun mənəvi tellərlə bağlı olduğu qaynaqları araşdırmadan yaratdığı əsərləri elmi-nəzəri qiymətini vermək də səmərəsiz olacaqdır.

Sovetlər birliyi dövründə Hüseyn Cavid sosrealizmin "nailiyyət"lərindən yazmağı özünə rəva bilməmiş, Stalini, Azərbaycan ağalarını mədh etməkdən qətiyyətlə boyun qaçırmışdır (4).

Hüseyn Cavid yaradıcılığının tədqiqatçıları onu romantik yazıçı kimi nəzərdən keçirməklə həm də onun romantizmini öz bədii-estetik mənşəyinə və ənənələrinə görə Azərbaycan mədəniyyətinin dərin tarixi keçmişinə bağlamaqla onun Şərq bədii-fəlsəfi düşüncəsindən, o cümlədən, panteist dünyagörüşündən qidalandığını, Avropa və rus ədəbiyyatlarının ənənələrindən qidalanmaqla milli zəmində inkişaf etdirən müəllif kimi səciyyələndirmişlər. Onun istifadə etdiyi mənbələr nə qədər çeşidli və rəngarəng olsa da o, onları öz fərdi təfəkkürünün süzgəcindən keçirərək etnik-milli və poetik-dramatik düşüncə tərzinə, poeziyasının ahənginə və ritminə min bir çalarlı musiqisinə uyğunlaşdırmış, orjinal yaradıcılıq fərdiliyinə, şair "mən"inə uyğunlaşdırmağı bacarmışdır.

Bədii yaradıcılığa şeirlə başlasa da, H.Cavid ömrünün müdriklik çağında daha çox dramaturq kimi fəaliyyət göstərmişdir. Onun tarixi faciələri, ailə-məişət mövzulu dramları həm forma, həm məzmun, həm də struktur-kompozisiya baxımından Azərbaycan dramaturgiyasında yeni, daha görümlü bir mərhələ yaratmış, milli estetik və teatr mədəniyyətimizin inkişafına nəzərə çarpacaq təsir göstərmişdir. Ona görə də hesab etmək olar ki,

H.Cavid klassik Azərbaycan ədəbiyyatının orijinal və yadda qalan ənənələrini inkişaf etdirən dəyərli və unudulmaz sənətkarlardandır. Şairin poetik fəhmi kimi yaratdığı dramaturji sənət nümunələri janr və forma baxımından zəngin və rəngarəngdir. Onun fəlsəfi, tarixi, dini mövzulu faciələri, ailə-məişət dramları üslub yeniliyi, qeyri-ordinar dramaturji priyomları Azərbaycan dramaturgiyasında yeni daha üstün mərhələ yaratdığını etiraf etməliyik.

H.Cavidi yaradıcılığının araşdırıcıları onu dünyanın böyük romantik sənətkarlarından fərqləndirən qüvvətli bir cəhətindən daha çox bəhs etməkdə haqlıdırlar. H.Cavidin romantizmi Şərqin və bütün dünyanın ən kamil dini-fəlsəfi cərəyanı olan sufizm bulağından dirilik suyu içdiyindən belə əsrarəngiz təsir bağışlamaqdadır. Onun qəhrəmanları Haqqın dərgahına gözəllik və sevgi qanadlarında yetişə bilərlər. "Mən fəqət hüsni-xuda şairiyəm // Yerə enməm də səma şairiyəm" deyən şair H.Cavidin bütün çərçivələri söküb-dağıdan, əngin səmalara qapı açan romantik fəlsəfə aşiqi olduğunu görmək mümkündür. Ulu Tanrının hələ heç kimin görmədiyi hüsnü heç bir mübaliğəsiz ən kamil hüsndür. Elə H.Cavid də əsərlərində bu məchul, fəqət əbədi gözəllik mənbəyi olan ilahi hüsnü tərənnüm edir (5).

Əksər tədqiqatçılar Hüseyn Cavidi romantik ədəbiyyat nümayəndəsi kimi təhlil etdikləri halda, prof. Məmməd Qocayev belə yanaşma ilə razılaşmır və yazır: "... H.Cavidin romantik şair, hətta Azərbaycan ədəbiyyatında romantizmin banisi hesab edilməsi ən azı şübhə doğurur. Birincisi necə olur ki, bütün xalqların ədəbiyyatında romantizm realizmdən əvvəl gəldiyi halda, Azərbaycan ədəbiyyatında, o realizmdən sonra gəlir? İkincisi, XX əsr ictimai həyatında hansı hadisələr romantizimin yaranmasına şərait yaratmışdır?" (3, s.28-29). Eyni zamanda ədəbiyyatşünas-alim elə buradaca davam edərək bildirir ki, "Bu suallara cavab vermək o qədər də asan deyil" (3, s.28).

Prof. Məmməd Qocayevin belə tezislərini birmənalı qəbul etmək çətin olsa da, eyni zamanda onun fikirlərinin diqqətçəkən

olduğunu da nəzərdə qaçırmaq olmaz. Bu məsələ, heç şübhəsiz ki, daha fundamental baxış tələb etməkdədir. Və məsələyə daha dərindən münasibət sərgiləməyə ehtiyac vardır. Odur ki, fikrimizə davam edərək bildirək ki, romantik duyum tərzi H.Cavid sənətinin nüvəsini təşkil etməkdədir. Romantik ruh, romantik ideal daim H.Cavid poeziyasının mahiyyətində oturan başlıca elementlərdir. Şairin ardıcıl surətdə istinad etdiyi və onun yaradıcılıq bünövrəsini bünövrəsinin heç bir zaman tərk etmədiyi poetik zəmin də başdan-başa romantik bir aləmdir. Onun toxunduğu mövzular, qələmə aldığı hadisələr, təsvir etdiyi rəngarəng surətlər, təhlil edib araşdırdığı fəlsəfi-ictimai məsələlər də romantika ilə süslənmişdir (1, s.55).

Romantik sənətə məxsus bu həlledici xüsusiyyətlər öz ifadəsini Cavid yaradıcılığında tapmışdır. Cavid romantikasının fəlsəfi xətti, poetik idealı, bədii surətlər aləmi və sənətkarlıq incəlikləri böyük dramaturqun öz baxış bucağından incələnir. Çünki romantikayla nəfəs alan sənətkarlar bu tipli məharətin incəliyini tarixi-ictimai proseslərin bütün gedişi boyu daim axtarmış, arzu etmiş, onları dərindən görməyə və göstərməyə can atmışdır.

H.Cavid yaradıcılığının davamlı və məsuliyyətli tədqiqatçısı M.Əlioğlu onun romantik poeziyada müsbət səpkidə verilən qəhrəman, mənəvi-əxlaqi gözəlliyi, xarakterinin bütövlüyü və şəxsiyyətinin qüvvətli olması ilə cazibəli göründüyünü qeyd edir. "O, başqalarının səadəti uğrunda çarpışmağı fədakarlıq bilir və azadlıq eşqini həyatın mənası kimi qəbul edir. O, zülmə və xəyanətə qarşı həmişə, hər yerdə alovlanan, odu və hərarəti heç zaman azalmayan gur bir ocağa bənzəyir. Həqiqət və haqq onun həyat tərzi, azadlıq və məhəbbət isə istinad etdiyi əsas mənəvi dayaqdır.

Romantik sənətkarların, demək olar ki, hamısı bu qəhrəmanı "gözəlliyi daxili zənginliyində və məzmunlu həyatında təzahür edən, qəlbən-ruhən azad olması sayəsində maddi-mənfəət əlaqələrindən çox-çox yüksəkdə dayanan" (1, s.56) mərd və mü-

bariz şəxsiyyət kimi təsvir etmişdir. Romantik sənətkarlar şəxsiyyətin qəhrəman kimi yetişməsinə, mübariz və fədakar insanların ortaya çıxmasına nail olmaq üçün, qəhrəmanlığa yaraşan şəraiti meydana çıxarmağa imkan yaratmışdır. Qəhrəmanlığa ilham verən mənəvi amillər, qəhrəmanın ruhi zənginliyini, bütöv xarakterli, yüksək mənəviyyatlı görünüşə malik idealının qarşısında dayanır. Belə olduğu halda həqiqət və azadlıq aşiqi olan müdrik şəxsiyyət yaradıcılığının ilk mərhələsindən başlayaraq müsbət qəhrəmanın daxili təkamül daha görümlü izlənilir.

M.Əlioğlu haqlı olaraq qeyd edir ki, Cavidin obrazları tarixin bir çox ibrətli və nəsihətli hadisələrini yola salmış, zəngin həyat təcrübəsinə malik, müdrik məsləhətləri və tövsiyələri ilə onları pis yoldan çəkindirən sadə insanların ümumiləşmiş surətləridir. "Romantik qəhrəman, həyatla barışmaz münasibətdə olarkən adətən öz gücünü, enerjisini haraya, nəyə və hansı məqsədə sərf edəcəyini bilməmişdir. Bu səbəbdən də mənsub olduğu cəmiyyətdə "artıq adama" çevrilir. Romantik qəhrəman daim axtarışda olmasına baxmayaraq, heç bir fikir, məqsəd və aydın bir istiqamət üzərində də möhkəm dayanmır, ardıcıl olmur" (1, s.75).

Hüseyn Cavid yaradıcılığına çeşidli rakurslardan yanaşanlar heç də yanılmırlar. Bu baxımdan ədibin əsərlərində folklor motivləri və nümunələri axtaranlar da, fikrimizcə, gərəkli işlə məşğul olurlar. Çünki H.Cavid xalq ruhunu yaşadan, onu qidalandıran və folklor örnəklərini yazılı ədəbiyyata gətirmək ənənəsi ona böyük uğurlar qazandırmışdır. O, xalqa məxsus olanı elə xalqın dilində özünə qaytarmağı məqsədəuyğun hesab etmişdir. O, folkloru daim başlıca dayaq nöqtəsi hesab etmiş, öz milliliyinə, soy-kökünə dərindən bələd olan insanları, onu yaddaşlarda qoruyub saxlamağın və gələcək nəsillərə ötürməyin yolunu da məhz bu istiqmətdə görmüşdür.

Elə buna görə də böyük dramatik səhnələr yaratmaq ustası olan H.Cavid zəngin ənənələrə söykənən yeni qəhrəmanları təmsil edən "Maral", "Şeyda", "Şeyx Sənan", "Afət", "Peyğəmbər", "Topal Teymur", "Knyaz", "Səyavuş", "Xəyyam" kimi funda-

mental səpkili əsərləri ədəbiyyatımızda yeni səhifə açmağa müvəffəq oldu. O, şəxsiyyəti qəhrəmana çevirməklə Azərbaycan romantizmində sırf öz təfəkküründən qaynaq alan silsilə qəhrəmanlar yarada bildi.

Hüseyn Cavidin lirik əsərlərində olduğu kimi, onun dramlarında da folklor və şifahi ənənələrə söykənmə özünü nümayiş etdirməkdədir. Və biz bunu H.Cavidin öz sələflərindən gələn bədii yanaşma tərzi kimi dəyərləndiririk. Nizami, Ərdəbili, Ş.İ.Xətai, M.Füzuli, Məsihi, M.Şirvani və başqa bu kimi fikir sahibləri əsərlərində belə poetik yanaşmadan istifadə etməklə onların daha çox oxunaqlı olmasına nail ola bilirdilər. Cavidin folklor süjetlərindən yararlanması əsərlərinə dərin fəlsəfi məna gətirməklə onların milli koloritini zənginləşdirir, müəllifə qəhrəmanlarının xarakterlərinin açılmasında kömək etməklə, həm də personajların hərəkət və düşüncələrini yüksək ideyalarla zənginləşdirir.

Mirzə Fətəli Axundzadəni istisna etməklə bəlkə də H.Cavidə qədər Azərbaycan ədəbiyyatı onun yaratdığı kimi çeşidli qəhrəmanlar tanımırdı. H.Cavidin böyüklüyü onda idi ki, o nəinki Azərbaycan ictimai düşüncəsi, həm də bəşəriyyət və gələcək nəsillər üçün yaradırdı. Məhz buna görə H.Cavidin öz əsərlərini bəşəriyyət və ardı-arası kəsilməyən nəsillər üçün yazdığı qənaətindəyik.

H.Cavid yaradıcılığında, demək olar ki, daim ciddi bir ənənə özünü biruzə verməkdədir. Onun "İblis" faciəsindən xeyli öncə, o, insan taleyini əks etdirən "Hübuti-Adəm" şeirini yazmışdır. Bu şeirdən sonra H.Cavidin romantik bir yazıçı kimi İblisə olan aydın münasibəti ortaya çıxmışdır. Onun yaradıcılığında "Hübuti-Adəm" şeiri İblis mövzusunun bədii inkişafında birinci mərhələnin yekunu və bu mərhələnin son əsəri kimi nəzərdən keçirilə bilər. Şeirdə xeyir-şər, mistik təfəkkür və inanc müstəvisində İblis obrazı yaradılır. O, 1918-ci ildə "İblis" faciəsini yazmaqla Şərin nəhəng obrazını yaratmaqla dahiyanə şəkildə onun bəşəriyyətə yönəlmiş bəd əməllərinin də üstünü açmağı

zəruri hesab edir. Bu faciənin ədəbiyyat tariximizdə rolu və əhəmiyyəti heç də bununla yekunlaşmır. Eyni zamanda əsərdə insan xislətinin iblisləşməsi və insanın törətdiyi faciələr də burada öz bədii həllini tapmağa istiqamətlənir. H.Cavidin "İblis" pyesi XX əsr Azərbaycan romantizmində mifoloji obrazın baş qəhrəmana çevrilməsi bariz nümunə hesab edilir. İblis mifoloji obraz olsa da, "İblis" faciəsi H.Cavidin özünün qurub-qoşduğu və düşündüyü mürəkkəb, ziddiyyətli, real tarixi hadisələrə söykənir.

Hüseyn Cavid yaradıcılığını araşdırmalarının əsas istqaməti hesab edən K.Əliyev qeyd edir ki, "folklor nümunələrinin müəlliflik məsələsi barədə mülahizələr yetərincə maraqlıdır. Ədiblər el ədəbiyyatı nümunələrinin ayrı-ayrı şəxslər tərəfindən yaradıldığını qeyd edir və göstərirlər ki, həmin müəlliflərin "getgedə isimləri unudularaq, yalnız söylədikləri sözlər xalqın hafizəsində qaldığından, ağızdan-ağıza, nəsildən-nəslə keçərək, zəmin və zamana görə az-çox təğyir və təbdil ilə xalq içində əsrlərcə yaşamış və el onları mənimsəyərək kəndinə mal etmişdir" (2, s.305). Hesab edirik ki, folklor nümunələrindən istifadə yaranması H.Cavid yaradıcılığında daha görümlü mövqedən nümayiş etdirilmişdir.

H.Cavid əsatir və əfsanələrə, dini rəvayətlərə, xalq dramlarına müraciət edərkən daha çox həmin obrazları təmsil edən məqamları və mülahizələri arayıb axtarmışdır. Bunula belə, H.Cavidin folklora bağlılığını heç də onun keçmişə qayıdışı kontekstində nəzərdən keçirmək olmaz. Folklora istinad etmək və öz istədiklərini həyata keçirmək romantiklər üçün xoş gələcək axtarışlarının yaranmasına köməklik göstərir. Odur ki, H.Cavidin folklor örnəkləri onun əsərlərinin süjet xəttində və motivlərində əsaslı şəkildə görünür. Güman etmək olar ki, o, düşüncə dünyasını, estetik üslubunu təyin etmək üçün folklor örnəklərinə müraciət edir və bu da folklorun aydın şəkildə göstəricisi hesab olunur. Belə olduğu halda müəllif qarşısına qoyduğu ideyanı qeyri-ixtiyari mənsub olduğu xalqın folklor janrına baş vurmaqla həll etmiş olur. Belə yanaşma H.Cavidin bir çox əsərlərində, o cüm-

lədən "Şeyx Sənan" faciəsində daha geniş şəkildə özünü göstərir. Lakin müşahidələr onu da göstərir ki, bir çox hallarda atalar sözləri, hikmətli sözlər Cavidin əsərlərində həm transformasiyalara uğradılmış formada, həm də olduğu kimi işlədilir.

Apardığımız araşdırma təhlillər nəticəsində biz H.Cavidin əsərlərində yazıçının öz düşüncə, fikir və ideyalarının heç də yalnız mifoloji obrazların vasitəsilə oxuculara çatdırıldığını görmürük. Çünki Cavid yaradıcılığı daha monumentaldır. Beləliklə, mütəfəkkirin mifoloji və folklor obrazlarına söykənib bənzərsiz əsərlər ortaya qoyması onu digər romantik sənətkarlardan fərqləndirən başlıca xüsusiyyəti kimi nəzərdən keçirilməlidir. O, Azərbaycan ədəbiyyatını romantik sənətlə folklor nümunələrinin köməyi ilə zirvələrə qaldıran böyük düha sahibi və bu ideyaları ədəbiyyatımızın danılmaz sərvətinə çevirən böyük şəxsiyyətlərdən biri olduğunu özünün bənzərsiz obrazları ilə sübut etmişdir.

## ƏDƏBİYYAT


1. Əlioğlu M. Hüseyn Cavid romantizmi. Azərnəşr, 1975, 213 s.
2. Əliyev K. Hüseyn Cavid. Əsərləri 10 cilddə, III cild. Bakı, "Elm və təhsil", 2018, 456 s.
3. Qocayev M. Hüseyn Cavidin bir şeiri haqqında. "Ədəbiyyat qəzeti", 2021, 11 dekabr, s. 28-29
4. Hüseyn Cavidin həyat və yaradıcılığı.xanım.az
5. http://www.anl.az/down/meqale/525/2017/dekabr/569399.htm.

**Tahirə VƏLİYEVA**
*AMEA Folklor İnstitutu*
*tahire.ss20@gmail.com*

# HÜSEYN CAVİD YARADICILIĞINDA ANA OBRAZI

**Xülasə**

Hüseyn Cavid klassik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən sənətkarlardandır. Onun sənəti janr və forma cəhətdən olduqca zəngindir. Hüseyn Cavid lirik şeirlərin, epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum və faciə dramların müəllifidir.

Hüseyn Cavid sənəti ləyaqətli analara, qadınlara, qızlara həmdəm olan, onların saf duyğularına öz qoynunda geniş yer verən, onlara himnlər bəstələyən, şərqilər qoşan, analıq adını hər şeydən uca tutan məğrur sənətdir. Hüseyn Cavid lirik şeirlərində olduğu kimi, dram əsərlərində də bir sira orijinal qadın surətləri yaratmışdır. Qadınların taleyi ilə daha çox maraqlanan dramaturq ayrı-ayrı surətləri dərindən səciyyələndirmiş, onların daxili aləmini açmışdır.

**Açar sözlər:** Hüseyn Cavid, folklor, poeziya, şeir, yazılı ədəbiyyat

## THE IMAGE OF “MOTHER” IN HUSEYN JAVID’S ACTIVITY

**Summary**

Huseyn Javid is one of the masters who developed the best traditions of classical Azerbaijani literature. His activity is very rich in genre and form. Huseyn Javid is not only the author of lyric and epic poems, but also the first verse and tragedy dramas in Azerbaijani literature. The art of Huseyn Javid is a proud art that serves the magnificent mothers, women and girls, apprecia-

ting their pure feelings in details, composing anthems, songs for them and raising the name of mother above all. Huseyn Javid created some original female images in his lyrical poems as well as in his dramatic works. The playwright, who was more interested in the fate of women, deeply characterized individual copies and revealed their inner world.

**Key words:** Huseyn Javid, folklore, poetry, mother, poem, the written litera

## ОСНОВНЫЕ ОБРАЗЫ ХУСЕЙНА КАВИДА

### Резюме

Гусейн Джавид, является одним из тех мастеров слова, которые развивают лучшие традиции классической азербайджанской литературы. Его деятельность довольно богата с точки зрения жанра и формы. Гусейн Джавид, является автором лирических стихов, эпических поэм, первых стихотворных и трагических драм в азербайджанской литературе.

Профессионализм Гусейна Джавида, является величественным искусством, которое поддерживает достойных матерей, женщин, восхваляет их чистые эмоции, сочиняет гимны, слагает песни для них и возвышает материнское имя. Гусейн Джавид создал ряд женских образов как в своих лирических, так и в драматических произведениях. Драматург, которого все больше интересовало судьбы женщин, глубоко охарактеризовал отдельные образы, раскрыл их внутренний мир.

**Ключевые слова:** Гусейн Джавид, фольклор, поэзия, мать, наблюдение, письменная литература

Hüseyn Cavid klassik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən sənətkarlardandır. Onun sənəti janr və forma cəhətdən olduqca zəngindir. Hüseyn Cavid lirik şeirlərin, epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə-

nin dramlarının müəllifidir.

Ulu öndər Heydər Əliyevin ölkəmizdə ilk rəhbərliyi dövründən başlayaraq son yarıməsrlik müddətində Hüseyn Cavidin həyatı və yaradıcılığı geniş və sistemli şəkildə tədqiq edilib. Qeyd etmək istərdik ki, Ulu öndər Cavid yaradıcılığına dair belə bir fikir söyləmişdir: "Hüseyn Cavid Azərbaycan ədəbiyyatı tarixində xüsusi mövqeyi olan və çoxəsrlik milli şeirin ən yaxşı ənənələrini inkişaf etdirən, zənginləşdirən qüdrətli söz ustadlarından biridir. O, Azərbaycanımızın mənəvi varlığını təmsil edən, özyolu, öz zirvəsi və öz aləmi olan bir sənətkardır"(4).

Hüseyn Cavid sənəti ləyaqətli analara, qadınlara, qızlara həmdəm olan, onların saf duyğularına öz qoynunda geniş yer verən, onlara himnlər bəstələyən, şərqilər qoşan, analıq adını hər şeydən uca tutan məğrur sənətkardır. Hüseyn Cavid lirik şeirlərində olduğu kimi, dram əsərlərində də bir sira orijinal qadın surətləri yaratmışdır. Qadınların taleyi ilə daha çox maraqlanan dramaturq ayrı-ayrı surətləri dərindən səciyyələndirmiş, onların daxili aləmini açmışdır.

Profesor Kamran Əliyev Hüseyn Cavid haqqında monoqrafiyasının 3-cü cilidində qadın mövzusunu belə açmışdır. Hüseyn Cavidin "Qadın"şeiri qadına müraciətlə başlayır və anaların oyanmasına, ayılmasına çağırış kimi səslənir. Aşağıdakı misralarda anaya yüksək dəyər verilir…

Ana övladını bəslər, böyüdür,
Anasız millət, əvət, öksüzdür" (2, 62).

Sonra qadının əsarət və həqarət üçün bu qədər səbr etməsi narahatlıq doğurur və zəifliyi buraxıb gücünü göstərməsi təlqin edilir. Şeir aşağıdakı misralarla bitir:

Kimsədən gözləmə yardım əsla,
Yalnız kəndinə kəndin ağla! (2, 62)

Hüseyn Cavidin "Ana" əsərində Selma ana obrazının simasında anaların məğrurluğundan, humanistliyindən, böyük ürəyə sahib olduqları əks edilir.

Ədəbiyyatımızın görkəmli klassiklərindən biri kimi şöhrət

tapan Hüseyn Cavidin yaradıcılığında insanpərvərlik, humanizm kimi ideyaların təbliği mühüm yer tutur:

Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü

- deyən ədibin ilk səhnə əsəri olan "Ana" dramında bu cəhət çox səciyyəvidir.

Hüseyn Cavidin "Ana" adlı əsəri ilə türk qadınının bəşəri hisslərlə yaşadığını təsvir etməklə bərabər, həm də bütün insanlığa bir nümunə kimi göstərir. "Ana" Hüseyn Cavidin yeganə pyesidir ki, klassik faciənin zaman, məkan və hərəkət vəhdəti tələblərinə cavab verir.

Hüseyn Cavid yaradıcılığı dedikdə profesor Kamran Əliyev yadda düşür.

Profesor Kamran Əliyev 10 cildli kitabın 3-cü cilddə Hüseyn Cavidin türk soyuna necə baglı oldugunu göstərir. "Hüseyn Cavid yaradıcılığında türkə münasibət, türkü anlamaq və duymaq reallığı türk soyunun bədii təqdimatından başlayır:

Mən bir türkəm, dinim, cinsim uludur,
Sinəm, özüm ataş ilə doludur.

Bu misraları "Maral" pyesindəki Bayram söyləyir.

Lakin həqiqət budur ki,türkün ulu keçmişini öz canına hopduran misralar sadəcə bir xidmətçi zümzüməsi deyil, tarixini və soyunu, mənəvi qüdrətini və gücünü kifayət qədər dərk edən türk oğlunun həyat devizi və müqəddəs amalıdır deyərək Kamran Əliyev göstərmişdir" (2, 214).

Dramaturqun humanist ideyalarının carçısı olan əsərin baş qəhrəmanı Səlma ananın qəlbi sanki mərhəmətdən, insanpərvərlikdən yoğrulmuşdur. Ana hətta oğlunun qatilini belə bağışlaya bilən son dərəcə geniş ürəyə malikdir.

Əsərdə Orxan, Murad şər qüvvələri təmsil edirlər. Onlar fürsət düşən kimi, başqalarına qarşı pislik, xainlik etməkdən çəkinmirlər. Dramaturq əsərdə şər qüvvələrə qarşı duran insanpərvər Səlma ana, İsmət, Səlim, Qanpolad kimi müsbət obrazlar yaratmışdır. Ananın yeganə oğlunun qatili Murada yaşamaq şansı

verməsi adi hadisə deyildir. Hüseyn Cavid bununla yer üzündə qan izini ağılla, həyata və insanlara dərin məhəbbətlə kəsməyin mümkün olduğunu ifadə etmişdir.

"Ana" dramında Hüseyn Cavid türk qadınının mərdanə hərəkətini əks etdirməyə çalışıb. Əsərdə ərsiz, qardaşsız, qohum-əqrabasız ümidini yeganə oğluna bağlayan və onu tez bir zaman kəsiyində itirdiyini hələ bilməyən ananın xoş istək və arzuları, bununla bərabər, böyük bir nigarançılığı göstərilir.

"Ey mərhəmət kanı, ey ulu tanrı!
Ey yerlərin, göylərin hökmdar!
İnayət qıl, yox başqa bir havadar,
Yalnız varım-yoxum tək bir oğlum var" (2, 11).

Əsərdə Səlma xanımın etdiyi böyüklük də analarım məğrurluğundan humanistliyindən xəbər verir.

Ana evinə qəbul etdiyi qonağın oğlunun qatili olduğunu bilincə nə qədər sarsılsa da "qonaq Allah qonağıdır", "qonağa zaval yoxdur" "amandasan" – deyərək verdiyi sözünün arxasında durduğunu nümayiş etdirdi.

Oğlunun qatilini bağışlamaq anında Səlma ana məhz belə bir ömrü yaşayır. Tanrının verdiyi həyatı Səlma almaq fikrindən çox uzaqdır. Amma bu həyata ana yeni bir məna vermək əzmindədir. Ananın sərt və qəti addımı bəlkə də nə vaxtsa, cinayətə qatlanan birinin həyatını dəyişməyə qadirdir. Ananın atdığı addım doğru əməllərə qarşı bir etirazdır:

"Murad! Sən həm qəribsən, həm mültəci...
Buradan sağ qurtulub gedərsən şimdi,
Fəqət bilməlisən, bu qanlı arslan,
Bu qıydığın cavan oğlumdur..." (2, 15).

Əsərin baş qəhrəmanı Səlma ananın qəlbi sanki mərhəmətdən insanpərvərlikdən yoğrulmuşdur. Səlma oğlunun qatilini bağışlayan bilən geniş ürəyə malik olan anadır. Son anda humanist ana qəlbi qan tökməyə razı olmur, çətində olsa içindəki intiqam hissini boğur. Səlma ananın humanistliyi belə xarakterizə edilir:

“Böyüklükdə, mərhəmətdə seçilmiş,
Alicənablıq boynuna biçilmiş

Murad, ananın oğluna atəş açmaqla necə bir dəhşətli səhvə yol verdiyini anlayaraq özünü qınayır, peşmançılıq içində deyir:

Əvət doğrayın, məhvolmalı zalım.
Ah, bir alçağa mərhəmət nə lazım
Qanlı bir canavar sağ buraxılmaz,
Bən bir xainim, öldürün.

Mən bir xainim öldürün! – deyərək yalvarması bunun təcəssümüdür. Ədib anadan qatil olmaz analar hər zaman övladları yolunda canlarını fəda edənlərdilər fikrini bildirmişdir.

Hüseyn Cavid milli adət-ənənəyə olan hörmət, qonağa ehtiramını Səlma ananın İsmətə verdiyi cavabla xarakterizə edir.

Sus, qızım, İsmət!
Sus! Qərib bir qonaq verilməz ələ...” (2, 57).

“Ana” pyesində Murad da Səlma ananın alicənablığı qarşısında duruş gətirə bilməyərək özünü öldürmək istəyir, lakin qan tökülmənin əleyhdarı olan Hüseyn Cavid ananın əli ilə imkan vermir ki, qatil özünü öldürsün, onu öz vicdanının mühakiməsinə buraxır.

Cavid yaradıcılığı haqqında ən gözəl, seçilmiş fikirlərini bildirən şəxslərdən biri də, repressiyaşünas alim Cəlal Qasımov olmuşdur. Carçı jurnalında çap olunmuş “Köhnə mövzuların gah İrandan, gah da Turandan gələn qəhrəmanları” adlı məqalədə fikirlərimiz təsdiq edir (1, 5-9). Cavidin Azərbaycan dramaturgiyasına gətirdiyi ən böyük yeniliklərdən, ən böyük xidmətlərdən biri də Şərqin və Qərbin Azərbaycan ədəbiyyatına və dramaturgiyasına daxil olması idi (1, 6).

Məqaləni tanınmış alim Cəlal Qasımovun Cavid haqqında dediyi fikirlə tamamlamaq istərdim:

“Hüseyn Cavid üçün VƏTƏN içində yaşadığın deyil, içində yaşatdığındır. İçində yaşadığın VƏTƏN sərhəddən, içində yaşatdığın VƏTƏN isə milli yaddaşdan başlanır. Cavidi ittiham edənlər üçün VƏTƏN sərhəddin içindəki, Cavid üçün isə həm

də çölündəki idi” (1, 9).

## ƏDƏBİYYAT

1. Qasımov C. Köhnə mövzuların “Gah İrandan, gah da Turandan” gələn qəhrəmanları. CARÇI jurnalı №4, 2022, s.5
2. Cavid H. Əsərləri. II cild. Bakı, “Lider” nəşriyyat, 2005, 352 s.
3. Əliyev K. Hüseyn Cavid (Əsərləri 10 cilddə, 3-cü cild). Bakı, “Elm və təhsil”, 2018, 456 s.
4. Paşayev M.C., F.Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, Maarif, 1982, s. 427
5. Naxçıvan xəbərləri.com Heydər Əliyev

## MÜNDƏRİCAT

### KONFRANSIN AÇILIŞ MƏRUZƏLƏRİ

**Muxtar Kazımoğlu-İmanov**
Hüseyn Cavid və mifoloji düşüncə məsələsində səciyyəvi məqamlar.....5

### AÇILIŞ MƏRUZƏLƏRİ

**Atif İslamzadə**
Hüseyn Cavid yaradıcılığında folklor motivləri ictimai məfkurə kimi.....11
**Elçin Qaliboğlu**
İblis obrazı: mifoloji-dini şüurda və yazılı ədəbiyyatda (H.Cavidin "İblis" pyesi əsasında).....23

### MƏRUZƏLƏR

**Aygün Əliyeva**
İblis – transsendentlikdən romantik mifyaratma.....35
**Bağır Babayev, Rəşad Əsgərov**
Hüseyn Cavidin mifoloji düşüncəsində dini inanclar ("İblis" faciəsi əsasında).....41
**Əpoş Vəliyev**
Hüseyn Cavid və xalq yaradıcılığı.....54
**Gülnar Osmanova**
Hüseyn Cavidin "Topal Teymur" əsərində tarixi mövzu və müasir ideya.....62
**Xəyalə Ağayeva**
Hüseyn Cavid yaradıcılığında folklor motivləri.....70
**Qiymət Məhərrəmli**
Hüseyn Cavid romantizmi: mifin poetikası.....84

**Nəzakət İsmayılova**
Hüseyn Cavid yaradıcılığında uşaq ədəbiyyatı örnəkləri..........93
**Sevda Qasımova**
Hüseyn Cavid irsi professor Cəlal Qasımovun tədqiqatların-da..........................................................................................103
**Sevinc Əliyeva**
Hüseyn Cavidin dramaturgiyasında folklorun bədii-estetik yeri.........................................................................................112
**Səadət İbrahimli**
Əbədiyaşarlığın ünvanı – Hüseyn Cavid................................121
**Şəbnəm Məmmədova**
Hüseyn Cavid yaradıcılığı romantik və folklor ənənələri müstəvisində...........................................................................129
**Tahirə Vəliyeva**
Hüseyn Cavid yaradıcılığında ana obrazı...............................138